# MALİYYƏ TƏSİSATLARININ VƏ KORPORASİYALARIN RİSKLƏRİNİN SIĞORTASI

# QAYDALARI

Bakı - 2011

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| **MÜNDƏRİCAT** | **2** |
| **SIĞORTA SİNFİ** | **3** |
| **ÜMUMİ ANLAYIŞLAR** | **3** |
| **ÜMUMİ MÜDDƏALAR** | **4** |
| **Maddə 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ** | **4** |
| **Maddə 2. SIĞORTAÇININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **4** |
| **Maddə 3. SIĞORTALININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **5** |
| **Maddə 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ** | **6** |
| **Maddə 5. SIĞORTA MƏBLƏĞİ** | **6** |
| **Maddə 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ** | **6** |
| **Maddə 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ** | **7** |
| **Maddə 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ** | **8** |
| **Maddə 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI** | **8** |
| **Maddə 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR** | **8** |
| **Maddə 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI** | **9** |
| **Maddə 12. SUBROQASİYA HÜQUQU** | **9** |
| **Maddə 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ** | **9** |
| **Maddə 14. XÜSUSİ ŞƏRTLƏR** | **9** |
| **Maddə 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI** | **10** |
| **Maddə 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI** | **10** |
| **Maddə 17. SANKSİYALARA DAİR MADDƏ** | **10** |
| **SIĞORTA BƏNDLƏRİ** | **11** |
| **ÜMUMI ANLAYIŞLAR** | **15** |
| **ÜMUMİ İSTİSNALAR** | **17** |
| **ÜMUMİ ŞƏRTLƏR** | **19** |
| **ELEKTRON VƏ KOMPÜTER CİNAYƏT SIĞORTASI** | **26** |
| **DİREKTORLAR VƏ MƏSUL ŞƏXSLƏRİN MƏSULİYYƏT SIĞORTASI** | **41** |
| **MÜƏSSİSƏLƏRİN CINAYƏTƏ QARŞI SIĞORTASI** | **52** |

## SIĞORTA SİNFİ

Bu sığorta qaydaları ilə müəyyən olunan sığorta növü əmlakın yanğından və digər risklərdən sığortası və ümumi mülki məsuliyyət sığortası sinfinə aiddir.

## ÜMUMİ ANLAYIŞLAR

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**Sığortaçı** - sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

**Sigortalı** - əmlak mənafeləri sığorta müqaviləsi əsasında Sığortalı şəxsdir.

**Faydalanan şəxs** - sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) **Sigortalı** faydalanan şəxs sayılır.

**Sığorta obyekti** - sığortalının, yaxud **Sigortalının** qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə Sığortalı əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

**Qismən sığorta** - müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur. Sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği müəyyən oluna bilər.

- **Şərtli azadolma** - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda zərər məbləğindən azadolma məbləği çıxılmır.
- **Şərtsiz azadolma** - məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**Sığorta haqqı** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta məbləği** - Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

## ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ

Tərəflərin başqa cür razılaşdığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığorta Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**2. Sığortaçının hüquq və vəzifələri:**

**2.1.** Risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalıdan sığorta haqqını tələb edir.

**2.2.** Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün ilk hissəsi ilə bağlı sığorta müqaviləsi bağlandığı gündən, digər hissələrlə bağlı isə ödəmə tarixindən 1 aydan gec olmamaq şərti ilə yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

**2.3.** Sığortaçı sığortalanmış risklər üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği həddində öhdəlik daşıyır.

**2.4.** Sığorta məbləğlərini, sığorta riskləri, sığorta risklərindən istisnaları və (və ya) sığorta təminatında məhdudiyyətləri müəyyən edir.

**2.5.** Sığortalıdan riskinin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları verməsini tələb edir;

**2.6.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməsini tələb edir;

**2.7.** Sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməməsini tələb edir;

**2.8.** Sığortalının sığorta hadisəsi yaranmasına yönəldilən qərəzli hərəkətləri və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməməsini tələb edir;

**2.9.** Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görməsini tələb edir;

**2.10.** Sığorta predmeti və hadisəsi barədə sığortalıdan aydın və düzgün məlumat verməsini tələb edir, sığortalının bildirdiyi məlumatın yanlış və ya yarımçıq olması məlum olarsa:

**2.10.1.** Sığortalı bu hərəkəti qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə, ödəniş verməkdən imtina edə bilər.

**2.10.2.** Sığortalı hərəkətinin qəsdən etmədiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və ya həmçinin sığorta müqaviləsinin şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı almaqla sığorta müqaviləsini qüvvədə saxlaya bilər.

**2.11.** Bu qaydalarda nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsindən imtina edir;

**2.12.** Sığorta hadisələri təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini həyata keçirir.

**2.13.** Sığortaçı sığorta müqaviləsi bağlanarkən sığortalıdan sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları tələb edir və əlavə zəruri məlumatların siyahısını tərtib edərək, yazılı müraciət formasında sığortalıya göndərir.

**2.14.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçı hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

**2.15.** Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

**2.16.** Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta müqaviləsi ilə müəyyən olunmuş qaydada sığorta ödənişini verir.

**2.17.** Sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

**2.18.** Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azad edilir.

**2.19.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**2.20.** Sığortalının bu sığorta qaydaları ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortalıya sığorta müqaviləsi verir.

**2.21.** Sığorta müqaviləsi itdikdə və ya məhv olduqda sığortalı və ya **Sigortalı** onun dublikatını sığortaçıdan şifahi və ya yazılı şəkildə tələb edə bilər. Bu tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya **Sigortalını** müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta müqaviləsinin dublikatı ilə təmin edir.

**2.22.** Sığortaçı sığorta predmeti barəsində sığortalı tərəfindən aydın və düzgün məlumat verilməsini tələb edir. Bu məlumatlarla bağlı sığortalı tərəfindən qəsdən yanlış məlumat verilərsə sığortaçı sığorta predmetinin sığorta müqaviləsində göstərilmiş dəyərini qəbul etməyə bilər.

**2.23.** Sığorta müqaviləsi bağlanarkən müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə sığortalının tanış olmasını təmin edir.

**2.24.** Sığortalını sığorta şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış edir.

**2.25.**Sığorta müqaviləsi bağlayarkən sığortaçı Sığortalı predmetə baxış keçirə, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirə, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin edə bilər.

**2.26.**Sığortaçı sığorta müqaviləsi üzrə Sığortalı əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirə bilər. Bu halda müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**2.27.**Sığortaçı 6.8-ci bəndində qeyd olunan hallar mövcud olarsa sığorta müqaviləsinə vaxtından əvvəl xitam verir.

**2.28.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortaçı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**2.29.**Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya **Sigorta olunan**, həmçinin faydalanan şəxs hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırır.

**2.30.**Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlərin və məlumatların alınması ilə bağlı səlahiyyətli dövlət orqanlarına yazılı sorğunu sığortalıya verərək müvafiq sənədlərin təmin edilməsini tələb edir.

**2.31.**Bu qaydaların 15-ci maddəsində müəyyən edilmiş subroqasiya hüququndan istifadə edir.

**2.32.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

## 3. Sığortalının hüquq və vəzifələri:

**3.1.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortaçı tərəfindən yerinə yetirilməsini tələb edir;

**3.2.** Sığorta hadisəsinin təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini tələb edir;

**3.3.** Sığorta müqaviləsində qeyd olunan sığorta haqqını ödəyir;

**3.4.** Sığorta riskləri barədə sığortaçıya məlumat verir;

**3.5.** Riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları sığortaçıya bildirir;

**3.6.** Sığorta predmetinin və hadisəsinin araşdırması üçün sığortaçıya müvafiq şəraiti yaradır:

**3.6.1.** Sığortalı əmlaka baxış keçirmək;

**3.6.2.** Sığortalı əmlakın olduğu yerləri və yerin yaxınlığındakı binaya (qurğu və ya evin) baxış keçirmək;

**3.6.3.** Sığortalı əmlakın real dəyərinin müəyyənləşdirilməsi məqsədi ilə keçirilən ekspertizada iştirak etmək.

**3.7.** Sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görür;

**3.8.** Sığorta predmeti və hadisəsi barədə sığortaçıya düzgün və aydın məlumat verir;

**3.9.** Bu qaydalarda nəzərdə tutulan şərtləri yerinə yetirir, əks təqdirdə əmlak mənafelərinə dəyən zərərin əvəzinin sığortaçı tərəfindən tam və ya qismən ödənilməsini tələb etmə hüququnu itirir.

**3.10.**Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatı sığortaçıya bildirir.

**3.11.**Sığorta müqaviləsinə bu qaydaların 6.9-ci bəndinin tələblərinə əsasən sığortalı tərəfindən vaxtından əvvəl xitam verilə bilər. Bu halda:

**3.11.1.** Sığortalı, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçıdan həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarının ona qaytarmasını tələb edir, əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçıdan sığorta haqlarını bütünlüklə sığortalıya qaytarılmasını tələb edir.

**3.11.2.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların bu qaydaların 10-cu maddəsinin tələblərinə əsasən həyata keçirilir.

**3.12.** Sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verir.

**3.13.**Sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğini bərpa edilə bilər.

**3.14.**Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə sığortaçıya məlumat verir.

**3.15.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortalı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**3.16.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

**3.17.**İtki, ziyan və ya zərərin qarşısını alma öhdəliyi

Sığortalı

(a) Sığortalı Əmlakın saz vəziyyətdə saxlanılması və itki, ziyan və ya zərərin qarşısını almaq üçün öz hesabına bütün mümkün ehtiyat tədbirlərinin görülməsini təmin etməlidir.

(b) işçilərin seçməsində və onlara nəzarətdə ehtiyat göstərməlidir.

(c) hər bir hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş və qoyulmuş öhdəlikləri icra etməlidir.

Mülkləri nəzarət etmək üçün Sığortaçının nümayəndəsinin Mülklərə hər zaman daxil olma imkanı olmalıdır.

## 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

**4.1.** Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya **Sigorta olunan**, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. Sığorta müqaviləsində məlumat verməyin müddəti və yaxud üsulu göstərilmişdirsə, o, müəyyən olunmuş müddətdə və həmin üsulla həyata keçirilməlidir.
**4.2.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya **Sigorta olunan**, həmçinin faydalanan şəxs bu qaydaların 7.1-ci bəndi ilə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.
**4.3.** Sığortalı baş verən hadisə barəsində səlahiyyətli dövlət orqanlarına məlumat verməyə və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirməyə borcludur.
**4.4.** Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir.
**4.5.** Belə tədbirlər həyata keçirilərkən sığortalı sığortaçıdan aldığı təlimatları yerinə yetirməlidir.
**4.6.** Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.
**4.7.** Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta predmetini sığortaçı baxış keçirənə qədər sığorta hadisəsindən sonra düşdüyü vəziyyətdə saxlamağa borcludur.
**4.8.** Zərər görmüş əmlak təmir etdiriləcəkdirsə təmir yeri təmir başlanana qədər sığortaçı ilə razılaşdırılmalıdır.
**4.9.** Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək, həmçinin hadisənin digər iştirakçılarının və sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.
**4.10.** Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət etməyə, saziş imzalamağa və ya vəd verməyə haqlı deyildir.
**4.11.** Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır.
**4.12.** Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin ölçüsünü sübut etmək sığortalının vəzifəsidir.
**4.13.** Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

## 5. SIĞORTA MƏBLƏĞİ

Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş öhdəliyinin son həddidir.
**5.1.** Bu qaydalara əsasən sığorta məbləği sığorta predmetinin sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.
**5.2.** Sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı sığorta müqaviləsində qeyd olunur.

## 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANILMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ

**6.1.** Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.
**6.2.** Sığorta müqaviləsi tərəflərin bu qaydalar əsasında yazılı formada tərtib etməsi, qarşılıqlı imzalaması və ya sığortalının bu qaydalar ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta müqaviləsinin verilməsi yolu ilə bağlanır.
**6.3.** Sığorta müqaviləsinə ediləcək əlavə və dəyişikliklər qanunvericiliyin tələblərinə uyğun olaraq tərəflərin qarşılıqlı razılaşması yolu ilə həyata keçirilir.
**6.4.** Sığorta müqaviləsi müəyyən müddət üçün bağlanılır.
**6.5.** Sığorta yalnız müqavilənin (şəhadətnamənin) qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrinə təminat verir.
**6.6.** Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.
**6.7.** Azərbaycan Respublikasının qanunvericiliyində əqdlərin etibarsızlığı ilə bağlı ümumi əsaslarla və aşağıdakı hallarda sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır:
**6.8.** Sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

**6.8.1.** sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

**6.8.2.** Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək sığortaçının və həmin şəxsin razılığı ilə onu dəyişdirmək hüququna malikdir.

**6.9.** Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

**6.9.1.** Müqavilənin qüvvədə olduğu müddət bitdikdə;

**6.9.2.** Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

**6.9.3.** Sığortalı sığorta haqqını müqavilədə müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.4.** Məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar verdikdə;

**6.9.5.** Sığorta predmeti artıq mövcud olmadıqda;

**6.9.6.** Aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

**6.9.6.1.** sığorta müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

**6.9.6.2.** qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

**6.9.6.3.** başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

**6.9.6.4.** sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

**6.9.7.** Sığorta müqaviləsi üzrə sığortalı olmayan **Sigortalı** vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

**6.9.8.** Sığorta qanunvericiliyində, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilə bilər;

**6.9.9.** Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

**6.9.10.** Sığorta marağı artıq mövcud olmadıqda;

**6.9.11.** Sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.12.** Azərbaycan Respublikasının Qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

**7.1.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

**7.2.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

**7.3.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

**7.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların 7.1-ci və 7.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**7.5.** Sığorta müqaviləsinə bu qaydalarda və ya qanunvericiliklə müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 7.3-cü və 7.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**8.1.** Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri verilir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (**Sigortalı** və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər.

**8.2.** Sığorta müqaviləsi üzrə sığortalı, **Sigortalı** və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

**8.1.1.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

**8.1.2.** sığortaçı sığorta hadisəsi barədə bu qaydalarla nəzərdə tutulmuş şəkildə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

**8.1.3.** digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI

**9.1.** Sığortalanmış əmlaka vurulan zərərlərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı üsullarla və ardıcıllıqla həyata keçirilir:

**9.1.1.** Qismən sığorta zamanı - sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

**9.1.2.** Sığorta müqaviləsində azadolma nəzərdə tutulduqda - azadolma məbləği çıxılmaqla zərərlərə təminat verilir;

**9.2.** Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

## 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR

Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**10.1.** Sığorta ödənişi aşağıdakılara əsasən həyata keçirilir:

**10.1.1.** sığorta hadisəsi baş verdikdə, sığortalının, **Sigortalının** və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi;

**10.1.2.** sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

**10.1.3.** qanunvericilikdə və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.

**10.2.** Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını bu qaydaların 13.1-ci bəndində göstərilən sənədlərin və ekspert rəyinin əsasında sığorta müqaviləsi üzrə sığortalının, **Sigortalının** və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir. Bu zaman sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirə bilər.

**10.3.** Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert və ya sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər tərəfindən aparılır və bu zaman sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**10.4.** Sığortaçı sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra 30 təqvim günü ərzində sığorta ödənişini verir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişi verməkdən imtina edir.

**10.5.** Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra sığorta hadisəsi üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilir:

**10.5.1.** zərər məbləğinin pul şəklində sığortalıya (**Sigortalıya**) və ya faydalanan şəxsə ödənilməsi;

**10.5.2.** sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (**Sigortalıya** və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

**10.5.3.** sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

**10.6.** Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**10.7.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, bu halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığortaçı sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik edə bilər.

**10.8.** Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya **Sigortalıya,** habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

## 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

**11.1.** Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

**11.1.1.** sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 11.2-ci bəndinə riayət edilmədikdə;

**11.1.2.** qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

**11.1.3.** müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

**11.1.4.** sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

**11.1.5.** sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 11.2.1-ci bəndində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

**11.1.6.** bu qaydaların 14.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin **Sigorta olunan** və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

**11.1.7.** əmlakın sığortası üzrə sığortalı, **Sigortalı** və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

**11.1.8.** baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

**11.1.9.** Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin sığorta müqaviləsində nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığortaçının bu barədə yazılı xəbərdarlıqla son ödəmə müddəti müəyyən edilmişdirsə bu müddətin bitməsindən 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

**11.1.10.** sığorta qanunvericiliyində və ya sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**11.2.** Sığorta müqaviləsi bağlanarkən və ya bağlandıqdan sonra sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməmişdirsə.

**11.3.** Sığortalının sığorta qanunvericiliyində və ya bu qaydalarla nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədiyi hallarda.

**11.4.** Sığorta qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 12. SUBROQASİYA HÜQUQU

**12.1.** Subroqasiya - Sığorta ödənişinin həyata keçirilməsindən sonra, **Sigortalının** səhhətinə vurulan zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı subroqasiya qaydasında tələb irəli sürmək hüququ, həmin ödəniş məbləği həddində Sığortaçıya keçir.

**12.2.** Sığortalı (**Sigortalı**) Sığortaçının subroqasiya hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və Sığortaçını tələb irəli sürmək üçün zəruri olan bütün sənədlər, sübut və məlumatlarla təmin etməlidir.

**12.3.** Sığortalının(**Sigortalının**) hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təminat məbləğləri, ilk növbədə Sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.

**12.4.** Sığortaçı ilə Sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, Sığortalı (**Sigortalı**) zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə, Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılması hüququnu əldə edir.

## 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ

Bu Qaydalarda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər.

## 14. XÜSUSİ ŞƏRTLƏR

**14.1.** Sığorta müqaviləsində qanunvericiliyə, bu qaydalara və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.

**14.2.** Sığorta müqaviləsinə əlavə və dəyişikliklər qarşılıqlı razılaşma əsasında yazılı şəkildə rəsmiləşdirilir.

**14.3.** Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.

**14.4.**Sığorta predmeti bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində sığorta müqaviləsi etibarsızdır.

**14.5.**Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli sığorta predmetinin müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.

**14.6.**Sığortalı bu qaydaların 14.5-ci bəndində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olsa belə sığortalı əldə etdiyi məlumatları sığortaçıya çatdırmalıdır.

**14.7.**Sığortalı tələb etdikdə sığortaçı bu qaydaların 14.5-ci bəndində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta müqaviləsi verməlidir.

## 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

**16.1.**Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələr tərəflərin danışıqlar yolu ilə həll edilir.

**16.2.**Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyatı üzrə məhkəmədə baxılır.

**16.3.**Sığorta müqaviləsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 17. Sanksiyalara dair Maddə

Şirkət bu müqavilənin əhatə etdiyi hər hansı bölmələrinə əsasən məsuliyyət üçün heç bir ödəniş etməyə və ya onun hər hansı bir genişlənməsi çərçivəsində hər hansı ödəniş həyata keçirməyə borclu deyil: bu müqaviləni və/və ya sığortaçı, onun ana şirkəti və yaxud onun əsas nəzarət qurumunu tənzimləyən hər hansı qanun və/ və ya normativ aktla embarqo qoyulan və ya sığortalıya və ya bu müqavilə əsasında hər hansı başqa faydalanan şəxsə sığortalanma təmin etməyi və ya digər iqtisadi müavinət təklif etməyi sığortaçıya qadağan etməklə nəticələnən digər iqtisadi sanksiya forması tətbiq edilən hər hansı ölkə (ölkələr)də yaranan və yaxud sığortalı və ya bu müqavilənin hər hansı faydalanan şəxsi vətəndaşı və ya qurumu olduğu dövlətdən irəli gələn hər hansı iddia çərçivəsində itki üçün.

## SIĞORTA BƏNDLƏRİ

### SIĞORTA BƏNDİ 1

İşçinin Qeyri-dürüstlüyü

Hər hansı İşçinin Sığortalının zərərə məruz qalması, yaxud yersiz şəxsi maliyyə gəliri əldə etməsi məqsədilə hər hansı yerdə, tək və ya başqaları ilə əlbir olub törətdiyi qeyri-dürüst və ya dələduzluq hərəkətləri.

Xüsusi Şərtlər

1. Yuxarıdakılara baxmayaraq, razılaşdırılır ki, Kredit və Ticarətlə bağlı bu Sığorta Bəndi İşçi tərəfindən törədilmiş və nəticəsində bu İşçinin yersiz şəxsi maliyyə gəliri əldə etməsi kimi qeyri-dürüstlük, yaxud dələduzluq hərəkətlərindən irəli gələn maliyyə itkisini əhatə edir.
2. Əmək haqqı, qonorar, komisyon haqq, bonuslar, məvacib artımları, həvəsləndirici mükafatlar, gəlirin bölüşdürülməsi və digər qonorarlar yaxud müavinətlər yanlış şəxsi maliyyə gəliri hesab olunmur.

### SIĞORTA BƏNDİ 2

Mülkiyyət

Aşağıdakıların nəticəsində:

(a) **Mülkiyyət** tərkibində olan **Əmlak** aşağıdakı səbəblər nəticəsində itirilərsə:

(i) **Mülkiyyətdə** olan şəxslər tərəfindən törədilən **Oğurluq,** və ya

(ii) sirli bir şəkildə izahedilməz yoxa çıxma, və ya

(iii) zədələnmə, dağılma və ya yanlış yerləşdirmə,

Belə **Əmlak Mülkiyyətin** tərkibində olduqda, yaxud

(b) Bu Sığorta Müqaviləsinin Ümumi Şərtlərinin 12-ci bəndinə müvafiq olaraq, **Sığortalının Mülkiyyətində** olan, **Sığortalının** hər hansı müştərisinin yaxud hər hansı belə müştərinin nümayəndəsinin mülkiyyətində olan və **Oğurluq** nəticəsində itən **Əmlak**, lakin belə müştəri yaxud onun nümayəndəsinin ucbatından baş verən itki halları istisna edilir.

Xüsusi İstisna

Bu Sığorta Müqaviləsinin Sığorta Bəndi birbaşa yaxud dolayı yolla Terrorçuluqla əlaqədar yaranan zərər və itkiləri SIĞORTALAMIR, bir şərtlə ki, buna baxmayaraq bu Xüsusi İstisna **Oğurluq** və ya ona cəhd nəticəsində yaranan zərər və itkilərə tətbiq edilmir. HƏR HANSI İDDİADA və hər hansı işdə itki və zərər üçün bu Sığorta Müqaviləsinə əsasən iddia qaldırmaq üçün ərizə yaxud digər mühakimə üsulu belə itki və zərəri SÜBUT ETMƏ ÖHDƏLİYİ bu Xüsusi İstisnaya daxil olmayacaq və bu **Sığortalının** öhdəsinə düşəcək.

**SIĞORTA BƏNDİ 3**

Daşınma

Aşağıdakıların nəticəsində:

(a) **Əmlakın** hər hansı **İşçinin** himayəsində olarkən yaxud **Sığortalının** adından zirehli nəqliyyat vasitəsində daşınarkən hər hansı **Təhlükəsizlik Şirkətinin** himayəsində olarkən daşınma zamanı zədələnməsi yaxud itməsi, və ya

(b) hər hansı **Təhlükəsizlik Şirkətinin** himayəsində olarkən daşınma zamanı zədələnən yaxud itən hər hansı ötürülmə hüququ olmayan sənədlər.

Xüsusi şərt

Daşınma bəzən daşınma ilə məşğul olan şəxs tərəfindən **Sığortalı** adından yaxud **Sığortalı** üçün belə əşya aldıqda başlanmış hesab olunur və təyin olunmuş alıcı və ya onun agentinə təslimatdan sonra bitmiş hesab olunacaq.

**SIĞORTA BƏNDİ 4**

Saxta çeklər

Aşağıdakıların nəticəsində:

(a) Sığortalı tərəfindən verilmiş hər hansı **Çeklər, Veksellər, Barat Veksellləri**, **Bank Akseptləri** yaxud **Depozit Şəhadətnamələri üzərində Saxta İmza** və ya onların Saxtalaşdırılması**,**

Və ya

(b) Sığortalı tərəfindən ödənilməli hər hansı Ləğvetmə Qəbzləri yaxud Adi Veksellərin üzərində **Saxta İmza** və ya onların **Saxtalaşdırılması.**

Xüsusi Şərt

Yuxarıda adı çəkilən sənədlər yazılı halda olmalıdır və sonra **İşçi** bu sənədlə yaxşı tanış olmalıdır. **Sığortalı** ola bilsin ki, **Saxta İmza və ya Saxta Sənədə** əsaslanmış ola bilər və bu da nəticədə itkiyə səbəb ola bilər.

**SIĞORTA BƏNDİ 5**

Saxta Qiymətli Kağızlar

**Sığortalının** aşağıda qeyd edilənlər kimi **Qiymətli Kağızlar** yaxud **Uyğun Yazılı Sənədlərə** əsasən düzgünlüklə və ya normal işgüzar fəaliyyəti ərzində hərəkət etməsi:

(i) Üzərində **Saxta İmza** olan, yaxud

(ii) **Saxta Sənədin** olması, yaxud

(iii) Saxtalaşdırılmış olması, yaxud

(iv) itirilmiş və ya oğurlanmış olması.

Xüsusi Şərtlər

1. **Sığortalının Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlərə** həqiqi fiziki malik olması yaxud **Sığortalının** müxbir bank tərəfindən iştirak etdiyi **Kreditlə** bağlı **Sığortalının** adı çəkilən bəndlərə müvafiq olaraq hərəkət etməsi bu **Sığorta Müqaviləsinə** əsasən bu presedenti bərpa etmək üçün şərtdir. **Kreditə** gəldikdə isə, belə həqiqi fiziki malik olma davamlı olmalıdır, hətta **Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlər** ucbatından hər hansı itki aşkarlandığı vaxtda da.

2. **Sığortalı** (və ya onun müxbir bankı tərəfindən) tərəfindən saxlanılma məqsədilə digər Bank Müəssisəsi yaxud tanınan Depozit Bankına qoyulmuş yaxud girov verilmiş və ya iş zamanı mübadilə, konversiya, qeydiyyat və ya köçürmə məqsədilə **Sığortalı** (və ya onun müxbir bankı tərəfindən) tərəfindən köçürmə yaxud qeydiyyat agentinin himayəsində olan **Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlər** davamlı fiziki mülkiyyət hesab olunacaq.

3. Yuxarıda göstərilən **Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlər** yazılı halda olmalıdır və sonra **İşçi** bu sənədlə yaxşı tanış olmalıdır. **Sığortalı** ola bilsin ki, **Saxta İmza və ya Saxta Sənədə** əsaslanıb və bu da nəticədə itkiyə səbəb olub.

Xüsusi anlayışlar

**"Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlər"** burada yalnız ilk mənada işlənib və ilk mənanın açıqlanması aşağıda verilmişdir:

(a) Məhdud şirkətlər yaxud korporasiyalar tərəfindən verilən səhm şəhadətnamələri, adsız səhm, səhm hüququ haqqında şəhadətnamələr, abunə olmaq zəmanəti və hüquqları, səhm alma haqqında məktublar, istiqrazlar, borc iltizamı yaxud kuponlar, və ya

(b) Şirkətlər tərəfindən verilən və girovlar, saxlama üçün təhvil aktları yaxud ikinci dərəcəli cavabdehlik sazişləri ilə təmin edilən istiqrazları birləşdirmək üçün formaca sadə istiqrazlar, və ya

(c) Hökumət və ya Hökumət Zəmanətli və Yerli Səlahiyyət səhmləri, hər hansı Ölkənin Hökuməti yaxud onun müvafiq Agentlikləri, Ştatları, Əyalətləri, Qraflıqları, Şəhərləri yaxud Bələdiyyələri tərəfindən verilmiş borc şəhadətnamələri, istiqrazlar, kuponlar yaxud zəmanət, və ya

(d) Real əmlak və real əmlak və belə girovların başqasına verilməsinə olan maraq əsasında saxlama üçün təhvil aktları, girovlar, və ya

(e) **Adi Veksellər,** aşağıdakılar istisna olmaqla:

(i) valyuta kimi istifadə olunmuş yaxud olunmasını ifadə edən, yaxud

(ii) təyin olunmuş yaxud təyin olunacaq hesablarda birbaşa yaxud dolayı yolla saxlanılan və ya saxlanılacaq olanlar, yaxud

(iii) **Sığortalı** tərəfindən ödənilməli yaxud ödənilmiş, və ya

(f) **Sığortalı** tərəfindən verilən **Depozit Şəhadətnaməsi** istisna olmaqla **Kredit** üçün zəmanət olaraq **Sığortalı** üçün **Depozit Şəhadətnamələri,** yaxud

(g) **Akkreditiv**

Burada istifadə edilən **"Saxtakarlıq",** yuxarıda izah edildiyi kimi həqiqi **Qiymətli Kağızlar yaxud Uyğun Yazılı Sənədlərin** yenidən hazırlanması deməkdir. Belə ki, **Sığortalı** həqiqi orijinal sənəd adı ilə əslində saxta sənəd əsasında aldadılır. Yalan təhrif faktları olan saxta sənədlər saxta deyil.

**SIĞORTA BƏNDİ 6**

Saxta valyuta

Sığortalı tərəfindən düzgünlüklə və normal işgüzar fəaliyyət ərzində qəbul olunan hər hansı Ölkədə qanuni ödəniş vasitəsi kimi buraxılmış və ya buraxılması ehtimal olunan hər hansı saxta kağız pullar yaxud qəpiklər.

**SIĞORTA BƏNDİ 7**

Xidmətlər və məzmunu

Aşağıdakıların nəticəsində:

(a) Sığortalının Mülkiyyətinə birbaşa **Oğurluq** yaxud buna cəhd və ya **Mülkiyyətə qarşı** vandalizm yaxud əmlaka qəsdən ziyan vurma yolu ilə zərər, yaxud

(b) Sığortalının Mülkiyyətinin tərkibindəkilərə birbaşa **Oğurluq** yaxud buna cəhd və ya **Mülkiyyətə qarşı** vandalizm yaxud əmlaka qəsdən ziyan vurma yolu ilə zərər, yaxud.

Xüsusi anlayış

Bu Sığorta Bəndində istifadə edilən **"Tərkibindəkilər"** burada Sığortalının sahib olduğu yaxud oğurluq halı olduqda cavabdeh olduğu avadanlıq, daşınmaz inventar, ləvazimat, dəftərxana ləvazimatı, seyflər və anbarlar mənasında işlənib. Bu avadanlıqlara kompüter, kompüter proqramları, kompüter lentləri, disklər və digər media, kompüter məlumatı və kompüter, kompüterlə bağlı avadanlıqlar DAXİL DEYİL.

Xüsusi istisnalar

1. Bu Sığorta Müqaviləsinin Sığorta Bəndi necə baş verməsindən asılı olmayaraq yanğın nəticəsində yaranmış zərəri SIĞORTA ETMİR.

2. Bu Sığorta Müqaviləsinin Sığorta Bəndi birbaşa yaxud dolayısı yolla Terrorizmlə əlaqədar yaranan zərər və itkiləri SIĞORTALAMIR, bir şərtlə ki, buna baxmayaraq bu Xüsusi İstisna **Oğurluq** və ya ona cəhd nəticəsində yaranan zərər və itkilərə tətbiq edilmir. HƏR HANSI İDDİADA və hər hansı işdə itki və zərər üçün bu Sığorta Müqaviləsinə əsasən iddia qaldırmaq üçün ərizə yaxud digər mühakimə üsulu belə itki və zərəri SÜBUT ETMƏ XƏRCİ bu Xüsusi İstisnaya daxil olmayacaq və bu **Sığortalının** öhdəsinə düşəcək.

"Ümumi Anlayışlar", "Ümumi İstisnalar" və "Ümumi Şərtlər" bütün Sığorta Müqaviləsinə tətbiq edilir; hər hansı "Xüsusi Anlayışlar", "Xüsusi İstisnalar" və "Xüsusi Şərtlər" bura əlavədir.

**ÜMUMİ ANLAYIŞLAR**

Bu Sığorta Müqaviləsində istifadə olunduğu kimi:

1. **"Sığortalı"** Sığortalının və Təklif Forması və Cədvəldə adları olan bank işi ilə məşğul olan tam mülkiyyətli şirkətlərin Cədvəldəki adını göstərir. Bu aşağıda göstərilənlərdən heç birini bildirmir və bura daxil deyil:

(a) natamam mülkiyyətli bank işi ilə məşğul olan köməkçi şirkət, yaxud

(b) bank işi ilə məşğul olan köməkçi şirkət,

əgər belə köməkçi şirkətin əsas fəaliyyət növünü göstərməklə adı varsa və ilk adlanmış Sığortalının səhmdarlıq marağı Təklif Forması və Cədvəldə belə göstərilibsə.

2. **"Bank Aksepti"** Veksel verən Bankın əmrinə əsasən icazə ilə veksel alan Bank tərəfindən bildirilən veksel mənasında işlədilir.

3. **"Barat Vekseli" Sığortalının** əsas yaxud digər ofisində bank adından və ya bank tərəfindən alınmış yaxud ödənilməli olan barat vekseli mənasını verir**.**

4. **"Veksel"** bir şəxs tərəfindən digərinə ünvanlanmış, onu təqdim edən şəxs tərəfindən imzalanmış, ünvanlandığı şəxsə tələbə uyğun olaraq yaxud müəyyənləşdirilmiş və ya təyin ediləcək vaxtda müəyyən şəxsə yaxud sənədi təqdim edən şəxsə müəyyən məbləğdə sığorta məbləğini ödəməyi tələb edən yazılı şərtsiz əmr mənasında istifadə edilir.

5. **"Depozit Şəhadətnaməsi"** depozit bankı tərəfindən depozitorun sifarişinə əsasən depozitora yaxud digər şəxsə müəyyən tarixdə ödəniş edilməsi haqqında yazılı təsdiq sənəddir.

6. **"Çek"** bank tərəfindən tələb üzrə göstərilmiş məbləğin ödənilməsinə yönəlmiş veksel mənasında işlənir.

7. **"İşçi"** yaxud **"İşçilər"** aşağıdakı mənada işlənir:

(a) **Sığortalı** tərəfindən işə götürüldüyü yaxud **Sığortalının** Mülkiyyətində olduğu müddətdə **Sığortalının** əmək haqqı yaxud maaş ödənilən və **Sığortalının** onları idarə etmək və öz vəzifələrini (məvacib alan məsul şəxs yaxud işçi kimi işə götürülən **Sığortalının** Direktoru daxil olmaqla) yerinə yetirmək istiqamətinə yönləndirmə hüququ olan məsul şəxsləri və digər tam ştat yaxud yarım-ştat işçi heyəti,

(b) **Sığortalının** Mülkiyyətində fəaliyyət göstərdiyi zaman Sığortalının Direktorlar Şurasının qərarı ilə işçinin adi vəzifələri çərçivəsində fəaliyyət göstərən **Sığortalının** Direktoru (maaşlı məsul şəxs yaxud işçi kimi işə götürülür),

(c) **Sığortalının** hər hansı **Mülkiyyətində** təhsil və vəzifələrini davam etdirən qonaq tələbələr,

(d) **Sığortalının** hər hansı **Mülkiyyətində Sığortalının** nəzarəti altında işçi vəzifələrini yerinə yetirmək üçün işəgötürmə firması tərəfindən təmin edilən şəxs, lakin məlumat prosessoru, proqramçı, proqram təminatı podratçısı yaxud uyğun vəzifələri yerinə yetirən şəxslər istisna olmaqla.

8. **"Saxta İmza"** səlahiyyəti olmadan əsl səlahiyyətli şəxs adından aldatmaq məqsədilə atılan imza; bura hər hansı məqsədlə səlahiyyətli yaxud səlahiyyətsiz hər hansı şəxsin adanın tam yaxud qismən yazılması və təsdiq edilməsi daxil deyil.

9. **"Saxta Sənəd"** sənədi hazırlayan şəxsdən başqa şəxs tərəfindən aldatma məqsədilə hazırlanmış saxta sənəd.

10. **"Akkreditiv"** müştərinin xahişi ilə bank tərəfindən yazılı öhdəlik deməkdir, bu öhdəliyi verən şəxs belə Akkreditivdə göstərilmiş şərtlərə uyğun olaraq ödəniş üçün çek yaxud digər tələb olunan sənədi verir.

11. **"Kredit"** və **"Kreditlər"** dedikdə aşağıdakılar başa düşülür:

(a) **Sığortalı** tərəfindən ya və ondan əldə edilmiş icarə, borc yaxud kreditin uzadılmasına bənzəyən hər hansı kredit yaxud sövdələşmə,

(b) **Sığortalı** tərəfindən əldə edilən yaxud güzəşt edilən, kimsə tərəfindən yaxud kiməsə satılan və ya təyin edilən hər hansı borc zəmanəti, hesabı, hesab-fakturası, sazişi yaxud digər dəlil.

(c) hər hansı ödənişlər yaxud müştərinin hesabından geri çəkmənin daxil olduğu ləğv edilməyən sənəd yaxud digər hər hansı buna bənzər sövdələşmə.

12. **"Mülkiyyət"** dedikdə Sığortalının Cədvəldə göstərilən Əsas Ünvanında yerləşən ofisi yaxud Sığortalı tərəfindən işlərin həyata keçirilməsi üçün müvəqqəti yaxud daimi tutulmuş və Təklif Formasına daxil edilmiş ofis, saxlama məqsədilə digər Bank Müəssisəsi yaxud tanınan Depozit Bankına qoyulmuş yaxud girov verilmiş və ya iş zamanı mübadilə, konversiya, qeydiyyat və ya köçürmə məqsədilə köçürmə yaxud qeydiyyat agentinin himayəsində olan ofis.

13. **"Borc Öhdəliyi"** bir şəxs tərəfindən digərinə ünvanlanmış, onu təqdim edən şəxs tərəfindən imzalanmış, ünvanlandığı şəxsə tələbə uyğun olaraq yaxud müəyyənləşdirilmiş və ya təyin ediləcək vaxtda müəyyən şəxsə yaxud sənədi təqdim edən şəxsə müəyyən məbləğdə sığorta məbləğini ödəməyi tələb edən yazılı şərtsiz əmr mənasında istifadə edilir.

14. **"Əmlak"** yalnız aşağıdakı real maddələri bildirir: kağız pul, qəpiklər, qızıl külçəsi, bütün növ qiymətli metallar və onlardan hazırlanmış qiymətli əşyalar, qiymətli daşlar (xam qiymətli daşlar da daxil olmaqla), dəyərli və yarı-dəyərli daşlar, möhürlər, sığorta Müqavilələri, turist çekləri, Bank çekləri, səhm şəhadətnamələri, istiqrazlar, kuponlar və bütün digər növ qiymətli kağızlar, konosamentlər, anbar qəbzləri, əmanət kağızları, **Veksellər, Bank Akseptləri, Barat Vekselləri, Depozit Şəhadətnamələri, Akkreditivlər, Adi Veksellər,** pul köçürmələri, dövlət xəzinəsilə bağlı sifarişlər, hüquqi titulu təsdiq edən sənədlər, mülk hüququ şəhadətnamələri və bütün digər növ dövriyyə və qeyri-dövriyyə sənədləri yaxud pul yaxud digər əmlakı (real və ya şəxsi) bildirən və ya marağı pulla yaxud digər əmlakla (real və ya şəxsi) və **Sığortalı** tərəfindən onun maraq dairəsində olan işi həyata keçirmək üçün istifadə edilən mühasibatlıq kitabları yaxud digər yazılı qeydlər şəklində digər qiymətli kağızlarla təmsil edən müqavilələr. **Əmlak** hesablardakı hər hansı debit və kredit formasında elektron yazılmış məlumatı bildirmir.

15. **"Təhlükəsizlik Şirkəti"** qiymətli malların daşınması üçün hökumət tərəfindən səlahiyyət verilmiş təhlükəsizlik şirkəti mənasında işlənir.

16. **"Terrorizm"** hər hansı bir şəxsin hər hansı bir təşkilat adından yaxud onunla əlaqədar gücdən və zorakılıqdan istifadə edərək hökumətə qarşı formal və real təsir etmə yaxud devirmə cəhdi mənasında işlənib.

17. **"Oğurluq" Sığortalı Əmlakdan** həmişəlik məhrum etmək üçün **Əmlakın** talanması, oğurlanması, soyğuna məruz qalması, vicdansız şəkildə götürülüb aparılması.

18. **"Ticarət"** qiymətli kağızlar, metallar, mallar, maliyyə sənədləri, kapital, valyutalar, xarici valyutaların və s. ticarəti deməkdir.

19. **"Ləğvetmə Qəbzi"** depozitor tərəfindən **Sığortalının** təmin etdiyi depozit hesabından kapitalın alınmasının təsdiqi məqsədilə **Sığortalı** tərəfindən depozitorlara verilmiş yazılı sənəd formasıdır.

**YUXARIDA QEYD EDİLƏN ŞƏRTLƏRDƏN HƏR HANSI BİRİ (1-DƏN 19-A QƏDƏR, 19 DAXİL OLMAQLA) BU SIĞORTA POLİSİNDƏ ƏKS ETDİRİLƏRSƏ, "MÜƏYYƏN EDİLDİYİ" KİMİ SÖZÜ QEYD EDİLƏN HƏR ŞƏRTDƏN SONRA MƏTNƏ DAXİL EDİLMƏLİDİR.**

**ÜMUMİ İSTİSNALAR**

Bu Sığorta Müqaviləsi aşağıdakıları əhatə etmir:

(a) Əks Qüvvəyə malik tarixdən əvvəl baş vermiş itki və ya Əks Qüvvəyə Malik Tarixdən əvvəl baş vermiş və ya başlamış hər hansı fəaliyyət, sövdələşmə və ya hadisənin daxil olduğu hər hansı itki, və ya

(b) Sığorta Müqaviləsinin Cədvəldə göstərilən başlanma tarixindən əvvəl aşkar edilmiş hər hansı itki, və ya

(c) bu Sığorta Müqaviləsinə xitam verilməsindən sonra aşkar edilmiş hər hansı itki, və ya

(d) əvvəlki sığortaçıya bildirilmiş hər hansı itki.

2. Sığortalının hər hansı Direktorunun hərəkəti və ya hərəkətsizliyindən tam və ya qismən irəli gələn hər hansı itki, Direktorun Ümumi Şərtlər 7(a) və ya (b) bəndinə əsasən İşçi hesab edildiyi hallar istisna edilir.

3. Hər hansı işçinin qeyri-dürüstlüyü və ya fırıldaq hərəkətindən birbaşa və dolayı yolla irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

4. İcazə verilmiş və ya verilməmiş, faktiki və ya saxta və ya düzgünlüklə və ya yalan, saxtakarlıq, saxta tələblər və ya hər hansı fırıldaqçılıqla təmin edilmiş hər hansı **Kreditin** tam və ya qismən ödənilməməsi və ya ödənilməsindən imtina edilməsindən irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1, 4 və ya 5 ilə sığortalandığı hallar istisna edilir.

5. **Sığortalı** tərəfindən alınmış, hər hansı səbəbdən, o cümlədən məhdudiyyət olmadan fırıldaqçılıq, yalan, saxtakarlıq, saxta tələblər və ya digər fırıldağa görə ödənişi tamamilə həyata keçirilməmiş əşyaların əlaqədar olduğu ödənişlər və ya onların geri alınmasından tam və ya qismən irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1, və ya 5 ilə sığortalandığı hallar istisna edilir.

6. Sığortalıya və ya onun tərəfindən səhv nəticəsində köçürülmüş, ödənilmiş, təmin edilmiş və ya digər yolla həvalə edilmiş vəsaitlərin əlaqədar olduğu ödənişlər və ya onların geri alınmasından irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

7. (a) Şəxsi Depozit qutularında olan, və ya

(b) Sifarişçilər adından həmin Sifarişçilər üçün Sığortalı tərəfindən faktiki saxlanılan müəyyən edilməsi mümkün olan qiymətli kağızlardan başqa, Sığortalı tərəfindən etibarlı qorunma altında saxlanılan hər hansı əşyaların (o cümlədən Mülkiyyət) itirilməsi və ya onlara ziyan dəyməsi, həmin itki və ya ziyanın Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

8. Aşağıdakı hallar istisna olmaqla, hər hansı şəxsə bədən xəsarəti yetirmək və ya Sığortalının hər hansı mülkiyyətinə ziyan dəyməsinin nəticəsində hər hansı əmlakın təslim edilməsi vasitəsilə hər hansı itki:

(a) Yersiz şəxsi maliyyə gəliri əldə etmək məqsədilə həmin hadisə İşçi tərəfindən törədildikdə və həmin itki Sığorta Bəndi 1 ilə sığortalanır, və ya

(b) Əmlakın təslim edilməsi Mülkiyyət daxilində olan şəxsin həmin Mülkiyyət daxilində fiziki mövcud olan şəxsə bədən xəsarəti yetirmək təhlükəsinin birbaşa nəticəsi olaraq baş verdikdə və həmin itki Sığorta Bəndi 2 ilə sığortalanır, və ya

(c) Daşınma zamanı əmlakın təslim edilməsi əmlakı daşıyan şəxsə və ya şəxslərə bədən xəsarəti yetirilməsinin birbaşa nəticəsi kimi baş verdikdə , BU ŞƏRTLƏ Kİ, daşınma həyata keçirildikdə Sığortalı hər hansı belə təhlükə və ya itkidən xəbərdar deyil və həmin itki Sığorta Bəndi 2 ilə sığortalanır.

9. Saxtalaşdırma və ya dəyişdirmədən birbaşa və ya vasitəli yolla irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1,4,5 və ya 6 ilə sığortalandığı hallar istisna edilir.

10. Hər hansı səyahət çekləri və ya səyahət akkreditivlərinin saxtalaşdırılması və ya dəyişdirilməsindən birbaşa və ya vasitəli yolla irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

11. Satmaq səlahiyyəti verilməklə Sığortalının himayəsinə verilən satılmamış səyahət çeklərinin hər hansı itkisi, həmin itkinin Sığorta Bəndi 1,2 və 3 ilə sığortalandığı hallar istisna edilir, və həmçinin bu şərtlə ki, həmin çeklər üçün onları Təqdim edən tərəfindən sonradan ödəniş edilir və ya aksept edilir və Sığortalanmış həmin itki üçün hüquqi məsuliyyət daşıyır.

12. Konosamentlər, nəqletmə sənədləri, yük qəbzləri, trest sertifikatları, debitor borcları və hər hansı digər bu kimi xarakterli və ya eyni qüvvəyə malik olan və ya eyni məqsədə xidmət göstərən banknotlar, sənədlər və ya qəbzlər olan və ya olması nəzərdə tutulan hər hansı sənəddən irəli gələn hər hansı birbaşa və ya dolayı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir və ya hər hansı belə sənədlər Sığorta Bəndi 2 və ya 3 ilə Sığortalı hallarda həmin sənədlərin fiziki itkisi istisna edilir.

13. Sığortalı və ya Sığortalıdan başqa hər hansı şəxs tərəfindən verilmiş və ya verilməsi nəzərdə tutulan kartlar olub-olmamasından asılı olmayaraq, hər hansı kredit, debit, ödəniş, şəxsi giriş kartı, imtiyaz, identifikasiya və ya digər kartların istifadəsindən və ya ehtimal edilən istifadəsindən irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

14. Gəlir və ya mənfəətin itirilməsi və ya gəlir və ya mənfəətdən məhrum edilmə, o cümlədən məhdudiyyət olmadan faiz, dividendlər, ödənişlər, komisyon haqları və s-nin itirilməsi və ya bunlardan məhrum olunma.

15. Tam və ya qismən maliyyə və ya depozit müəssisənin (onun qəbul edicisi və ya likvidatoru)

(a) İstənilən qisimdə saxladığı vəsait və mülkiyyəti ödəməməsi, geri qaytarmaması və ya təmin etməməsi, və ya

(b) Maliyyə və ya depozit müəssisəsinin və ya onun işçilərinin məsuliyyət daşıdığı hər hansı itki üçün Sığortalıya kompensasiya etməməsindən irəli gələn hər hansı itki, həmin itkinin Sığorta Bəndi 1 ilə sığortalandığı hallar istisna edilir.

16. **Sığortalının** rəsmi olaraq cavabdeh olduğu birbaşa kompensasiya zərərlərindən başqa (lakin burada artırılmır) hər hansı təsvirə uyğun olan hər hansı və ya bütün (ştraf, cərimə, cəza, nümunə və ya başqa) zərərlər üçün Sığorta Müqaviləsi tərəfindən əhatə olunan birbaşa maliyyə itkisini təmsil edən həqiqətən itirilmiş fondlar və ya mülkiyyət üçün adı gedən tərəfə kompensasiya vermək məqsədi ilə üçüncü tərəfə təqdim olunur.

17. Hər hansı xarakterli dolayı və ya nəticədə yaranmış itki.

18. **Sığortalı** tərəfindən Müqavilə tərəfindən əhatə olunan itkinin mövcudluğu və ya miqdarının müəyyən olunmasına və ya müəyyən olunmasına cəhddə çəkilmiş ödəmələr və digər xərclər.

19. **Sığortalı** tərəfindən Ümumi Şərt 1-də göstərildiyi kimi kompensasiya oluna bilən həddə xarici məsləhətçinin rəsmi xərcləri və digər rəsmi ödəmələrdən başqa çəkilmiş qiymətlər və digər xərclər.

20. 1, 4 və ya 5 nömrəli Sığorta Bəndləri ilə əhatə olunan bu cür itkilər istisna olmaqla **Ticarət** nəticəsində hər hansı birbaşa və ya dolayı itkilər.

21. Köhnəlmə, işlənmə, tədrici məhv olma, güvə və ya gəmiricilər vasitəsilə yeyilmə səbəblərindən hər hansı mülkiyyətə zərər dəymə və mülkiyyətin zədələnməsi.

22. Birbaşa və ya dolayısı ilə tayfun, qasırğa, siklon, vulkan püskürməsi, zəlzələ, yeraltı yanğın və ya digər təbiət sarsıntıları səbəbindən mülkiyyətin zərər görməsi və yanğın, daşqın və ya soyğundan nəticələn və ya eyni anda baş verən itki və ya zədə.

23. Birbaşa və ya dolayısı ilə müharibə, işğal, xarici düşmənlərin fəaliyyəti, döyüş və ya müharibə əməliyyatları (müharibə elan edilib və ya edilməyib), vətəndaş müharibəsi, üsyan, inqilab, qiyam, xalq üsyanının ölçü və sayını nəzərə alaraq vətəndaş hərc-mərcliyi, hərbi hakimiyyət, hərbi vəziyyət, iğtişaş və ya qanuni şəkildə qurulmuş hər hansı qanuni Orqanın fəaliyyəti səbəbindən baş vermiş itki və ya zərər. İtki və ya zərərə görə bu siyasət altında iddia həyata keçirmək üçün hər hansı İDDİA, ərizə və ya digər prosedur zamanı belə itki və zərərin ümumi İstisnaya aid olmadığını sübut etmək məsuliyyəti Sığortalının üzərinə düşür.

24. Hər hansı mülkiyyətə hər hansı səbəbdən dəyən itki və ya zərər və ya buna görə baş vermiş hər hansı itki və ya xərclər və ya birbaşa və ya dolayısı ilə aşağıdakı səbəblərdən nəticələnən itki və xərclər, və ya hər hansı nəticələn itki və ya hüquqi öhdəlik dolayısı və ya birbaşa olaraq aşağıdakılardan nəticələnir:

(a) nüvə yanacağının yanmasından alınan hər hansı nüvə yanacağı və ya nüvə tullantısı vasitəsilə ion radiasiyası və ya

(b) partlayıcı nüvə komponentlərinin radioaktiv, zəhərli, partlayıcı və ya digər zərərli hissəcikləri ilə.

25. Proqramlar da daxil olmaqla kompüter məlumatlarının daxil edilməsi, modifikasiya və dağıdılmasından nəticələnən hər hansı itki, bura Sığorta Bəndi 1-ə daxil olan itkilər daxil deyil.

26. Sığorta edənə göndərilən və ya ondan qəbul edilən təlimat və ismarıclardan nəticələnən hər hansı itki və ya Sığorta edən tərəfindən öz kompüter sisteminə daxil olma və ya teletayp terminalına, teleprinterə, video ekran terminalına daxil olmasından nəticələnən hər hansı itki, Sığorta Bəndi 1-ə daxil olan itkilər istisna olmaqla.

27. Sığortalının sığorta və ya təkrarsığorta Müqaviləsi, müqaviləsi təşkil etmək məqsədilə hər hansı maddə təşkil etməsindən (və ya edə bilməməsindən) və ya Sığortalının hər hansı məslə ilə bağlı sığorta və ya təkrarsığorta üçün Sığorta edənin nümayəndə və ya müdir qismində iştirakından doğan öhdəlik səbəbi ilə meydana çıxan hər hansı itki, bura həmçinin sığorta Müqaviləsi, sertifikat, sığorta şəhadətnaməsi, müqavilə və ya sığorta və təkrarsığorta Müqaviləsinin sənədi, təsdiq etmə və ya razılaşma və ya sığorta, təkrarsığorta müqaviləsi, və ya zəmanət də daxildir, buna baxmayaraq, ümumi İstisna sığorta haqqlarına və ya iddia ödənişləri prosedurlarına aid deyil, bu zaman belə itki Sığorta Bəndi 1 ilə sığortalandıqda belə ödənişlərin İşçi tərəfindən xərclənməsindən nəticələnir.

28. Hər hansı dövlət poçt xidmətinin himayəsi altında olarkən Əmlakın hər hansı itkisi, Sığorta Bəndi 1 ilə Sığortalı hallar istisnadır.

## ÜMUMİ ŞƏRTLƏR

### 1. HÜQUQİ HAQLAR VƏ HÜQUQİ XƏRCLƏR

Sığorta Şirkətləri Sığortaçının əvvəlcədən razılığı ilə Sığortalını onun əleyhinə irəli sürülmüş hər hansı məsələ və ya hüquqi prosedurda müdafiə edərək baş verən hadisə və ya törədilən işlə bağlı onu ödəniləcək hüquqi haqlar və hüquqi xərclərdən sığortalayır ki, bu da Sığortalını bu Sığorta Müqaviləsi altında müdafiə edir. Hər hansı məsələ və ya hüquqi prosedurla bağlı Sığortaçılar tərəfindən ödəniləcək hüquqi haqlar və hüquqi xərclər Ümumi Şərtlər 6-ya əsasən müvafiq Sığorta Bəndinin ümumi Sığorta Limiti və ya sub-Limitinin azalması ilə tətbiq olunacaq.

Sığortalı yuxarıdakılara aid hər hansı mübahisə və ya hüquqi prosedurla bağlı müəssisənin Sığortaçılarına dərhal bildiriş göndərməli və Sığortaçıların tələbi ilə onları məhkəmə çıxışlarının nüsxələri və digər sənədlərlə təmin etməlidir.

Əgər Sığortalı əleyhinə mübahisə və ya hüquqi prosedurda çoxlu sayda iddia səbəbləri mövcuddursa bu zaman bu Sığorta Müqaviləsində kollektiv itki təşkil etməyəcək və cəzalandırıcı iddiaları məhdudlaşdırmadan, sonrakı və ödənilməyəcək itkilər üçün Sığortalanmış öz xərcləri hesabına belə hallardakı hüquqi haqq və hüquqi xərcləri ödəyəcək.

Əgər Sığortalının itkisinin məbləği bu Sığorta Müqaviləsi tərəfindən ödəniləcək məbləğdən artıqdırsa və ya Azadolma mümkündürsə və ya hər ikisi baş verirsə, bu ümumi Şərtlərin birinci bəndində olduğu kimi Sığortaçının öhdəliyi Sığortalının məruz qaldığı və ödədiyi hüquqi cərimə və xərclərlə və ya bu Sığorta Müqaviləsi tərəfindən ödənilən məbləğ belə məbləğin cəmindən və əlavə olaraq ödənilməyəcək məbləğdən ibarət Sığortaçılarla məhdudlaşır. Belə proporsional məbləğ müvafiq Sığorta Bəndi üçün ümumi Sığorta Limitinin və Sub-Limitin azaldılması üçün tətbiq olunacaq.

Sığortaçılar hər hansı mübahisə və ya hüquqi prosedurun son qərarına kimi Sığorta edənin hüquqi haqq və hüquqi xərclərini ödəməyə məsuliyyət daşımır.

Sığortaçılar bu Ümumi Şərtlərin birinci paraqrafında qeyd edilmiş mübahisə və hüquqi prosedurların müdafiəsini apara bilər amma bunun üçün heç bir məcburiyyət daşımır. Sığortaçıların seçiminə əsasən Sığorta edən öz adından Sığortaçıların seçdiyi hüquqi nümayəndələr vasitəsilə belə mübahisə və hüquqi prosedurların müdafiəsinə qərar verə bilər. Sığortalı mübahisə və hüquqi prosedurlar zamanı müdafiə üçün Sığortaçılara lazım olacaq lazımi məlumatı və yardımı təmin etməlidir.

Sığortaçılar tərəfindən mübahisə və hüquqi prosedurların müdafiəsi zamanı ödəniləcək hüquqi haqlar və hüquqi xərclər müvafiq Sığorta Bəndi üçün Ümumi Sığorta Limitinin və Sub-Limitin azaldılması üçün tətbiq olunacaq.

Əgər müdafiə üçün seçilərsə Sığortaçılar öz proporsional hissələrindən artıq hüquqi haqq və ya hüquqi xərc ödəyirlərsə belə xərc və cərimələr Sığortalı tərəfindən Sığortaçılara ödəniləcək.

Sığortalı səbəbsiz olaraq hər hansı məsələ və ya hüquqi prosedurun Sığortaçılar tərəfindən həll edilməsinə etiraz edə bilməz.

## 2. SIĞORTALININ NƏZARƏTİNİN DƏYİŞMƏSİ

**(a) Ləğvetmə və s.,**

Sığortalanının könüllü və ya məcburi ləğv edilməsi zamanı və ya Qəbul edən və ya Müdirin təyin edilməsi zamanı və ya hər hansı Güzəştli Sazişə girərkən və ya kreditorlarla birləşmə zamanı, və ya Sığortalının İdarə etmə hüququ hər hansı Dövlət və ya Dövlət orqanı və ya nümayəndəliyi tərəfindən təyin edilmiş rəsmilər tərəfindən alındığı zaman Sığorta Müqaviləsi Sığortaçılara bildiriləcək hər hansı itkiyə görə sığorta məsuliyyəti daşımağı dayandırır.

Yuxarıda qeyd edildiyi kimi Sığortalının adı Bildiriş Blankında və Cədvəldə qeyd edilmiş hər hansı köməkçi ofisinin ləğvetmə və s., zamanı Sığorta Müqaviləsi belə köməkçi idarələrdə baş verə biləcək və aşkar edilərək Sığortaçılara bildiriləcək hər hansı itkiyə görə sığorta məsuliyyəti daşımağı dayandırır.

**(b) Əmlakın dəyişdirilməsi və ya Səhmlərə sahibkarlıq**

Sığortalı dərhal sahibkarlıq və ya idarə etmədə hər hansı dəyişikliyə şərait yaradacaq digər biznes müəssisəsi ilə birləşmə və ya satınalma, təyinetmə, köçürmə, girov qoyma və ya əmlak və ya səhmlərin satışı ilə bağlı Sığortaçılarla məsləhətləşməlidir. Bu Ümumi Şərtlərdə istifadə olunduğu kimi idarə etmə Sığortalı şirkətin idarəetmə strategiyası və siyasətini səhmdarların səsverməsi təyin etmək səlahiyyətidir. Səhmdar və ya on faiz (10%) və ya daha çox səhmə malik səhmdarların birləşməsi tərəfindən birbaşa və ya dolayısı ilə səsvermə hüququ olan səhmlərin idarəsində dəyişiklik tələb olunan bildiriş məqsədilə idarəetmədə dəyişikliklə nəticələnəcəyi güman edilir.

Bu Sığorta Müqaviləsinin davam etməsi üçün Sığortalı aşağıdakıları həyata keçirməlidir:

(i) Hadisədən otuz (30) gün müddətində Sığortaçılara yazılı bildiriş təqdim etmək,

(ii) Sığortaçıların tələb edəcəyi bütün əlavə məlumatı cəld təmin etmək, və

(iii) Bu sığorta Müqaviləsi tərəfindən təmin edilən sığortanı tam və ya bir hissəsini davam etdirmək üçün Sığortaçıların yazılı razılığını əldə etmək, və

(iv) On (10) gün müddətində belə dəyişikliklə bağlı Sığortaçılar tərəfindən tələb olunan sığortanın şərtləri ilə razılaşdıqları barədə yazılı bildiriş göndərmək, və

(v) Sığortaçılara əlavə sığorta haqqı ?dəmək.

Yuxarıdakı (b)(i) paraqrafları ilə əlaqədar olaraq Sığortaçılara bildiriş göndərə bilməmək və ya yuxarıdakı (b)(iv) paraqrafları ilə bağlı olaraq Sığortalının öz razılığı barədə Sığortaçıya bildiriş göndərməməsi Sığortalının sığortanı davam etdirməmək seçimini bildirəcək.

Burada tələb olunduğu kimi, Sığortaçılara bildiriş Sığortalı tərəfindən yazılı formada təmin edilmədiyi və Sığortaçılar tərəfindən yazılı şəkildə qəbul edilmədiyi təqdirdə başa çatmamış hesab olunur.

## 3. ƏLAVƏ İDARƏLƏR, BİRLƏŞMƏ VƏ YA DİGƏR BİZNES SAHƏSİNƏ AİD SIĞORTALI TƏRƏFİNDƏN SATINALINMA

Əgər Sığorta Müqaviləsi müddətində Sığortalı birləşmə və satınalma və ya digər biznes sahəsinə aid mülkiyyət əldə etməkdən əlavə, yeni filial ofisi açırsa belə filiallar yarandığı tarixdən etibarən avtomatik olaraq sığortalanmış hesab ediləcəklər və bu zaman Sığortaçılara bildiriş göndərmək və ya Sığorta Müddətinin qalan hissəsi üçün illik sığorta pulu ödəmək tələb olunmur.

Əgər Sığortalı Sığorta Müddətində birləşirsə və ya digər biznes sahəsinə aid əmlak satın alırsa bu Sığorta Müqaviləsi aşağıdakı hallar da əhatə edən hər hansı növ itki və zərər üçün məsuliyyət daşımır:

(a) Hər hansı ofis və ya əmlaklarında baş verən və ya baş verə biləcək itkilər; və ya

(b) belə biznesin direktor və ya işçisinin səbəb olduğu və ya olacağı itkilər; və ya

(c) Sığortalı tərəfindən qəbul edilmiş mülkiyyət və ya öhdəliklərdən kənar belə birləşmənin, satın alma və ya əldə etmənin nəticəsi olaraq baş verən və ya baş verəcək itki, aşağıdakı hallar istisna olmaqla:

(i) Belə birləşmənin, satınalma və ya əldə etmənin qüvvəyə mindiyi gündən qabaq Sığortaçıya yazılı bildiriş təqdim etmək, və

(ii) Sığortaçıların tələb edəcəyi bütün əlavə məlumatı cəld təmin etmək, və

(iii) Belə birləşmə, satınalma və ya əldə etmə ilə əlaqədar olaraq bu sığorta Müqaviləsi tərəfindən təmin edilən sığortanın genişləndirilməsi üçün Sığortaçılardan yazılı razılıq əldə etmək və

(iv) Belə birləşdirmə, satınalma və ya əldə etmə ilə bağlı olaraq Sığortaçılar tərəfindən tələb olunan sığortanın şərtləri ilə razılaşdıqları barədə yazılı bildiriş göndərmək.

(v) Sığortaçılara əlavə sığorta haqqı ödəmək.

Yuxarıdakı (i) paraqrafı ilə əlaqədar olaraq Sığortaçılara bildiriş göndərə bilməmək və ya yuxarıdakı (iv) paraqraf ilə bağlı olaraq Sığortalının öz razılığı barədə Sığortaçıya bildiriş göndərməməsi Sığortalının sığortanı davam etdirməmək seçimini müəyyən edəcək.

Burada tələb olunduğu kimi, Sığortaçılara bildiriş Sığortalı tərəfindən yazılı formada təmin edilmədiyi və Sığortaçılar tərəfindən yazılı şəkildə qəbul edilmədiyi təqdirdə tamamlanmamış hesab olunur.

## 4. XİTAM VERMƏ MÜDDƏALARI

Bu Sığorta Müqaviləsi sığorta pulunun qaytarılan hissəsinin tələbi ilə və ya onsuz aşağıdakı hallarda başa Çatır

(a) dərhal

(i) Ümumi Şərtlər 2(a)-da qeyd edildiyi kimi Sığortalının nəzarətinin dəyişməsi ilə bağlı hər hansı halların baş verməsi ilə,

(ii) Ümumi Şərtlər 2(b)-da qeyd edildiyi kimi Sığortalının əmlakın dəyişməsi və ya səhmlərə sahib olma barədə bildiriş verməməsi ilə,

(iii) Ümumi Şərtlər 2(b)-da qeyd edildiyi kimi Sığortaçılar mülkiyyət hüququnda və nəzarətdə dəyişikliklərlə bağlı sığorta müdafiəsindən imtina etdiyi halda.

(b) Ümumi Şərtlər 2-də qeyd edildiyi kimi, Sığortalının hər hansı köməkçisi belə köməkçinin nəzarət və mülkiyyət hüququnda dəyişikliklərlə əlaqədar olaraq baş verən hər hansı hadisə zamanı dərhal.

(c) Dərhal əgər Sığortalının adı çəkilən şəxslə gizli sövdələşməsi olmayan hər hansı Direktor və ya İşçisi və ya məsul şəxsi baş verdiyi anda direktor və ya işçi tərəfindən yalan və ya fırıldaqçılıq halını aşkar edərsə, belə hərəkətin bu Sığorta Müqaviləsinin Sığorta Bəndi 1 ilə sığortalanıb sığortalanmamasından asılı olmayaraq, lakin Sığortalının Direktor və ya məsul şəxsinin belə yalan və fırıldaqçılıq barədə bildiyi vaxt belə şəxsin himayəsində olan Əmlakın Sövdələşmə zamanı əmlaka zərərə görə hüququ özündə saxlayır.

(d) Bu Sığorta Müqaviləsinin başa çatması barədə Sığortaçıların qərarlarını bildirən yazılı bildirişin Sığortalının qəbul etməsindən otuz (30) gün sonra. Bildiriş Blankında qeyd edildiyi kimi əgər əvvəlcədən ödənilmiş sifarişli poçtla Sığortalının Əsas ünvanına göndərilirsə belə bildirişin göndərildiyi vaxt alındığı hesab edilir.

(e) Bu Sığorta Müqaviləsinin başa çatması barədə Sığortalının yazılı bildirişinin Sığortaçılar tərəfindən alınması ilə .

(f) Bu Cədvəlin 2-ci maddəsində qeyd edilmiş müddətin başa çatması ilə dərhal.

Əgər başa çatma Ümumi Şərtlərin (a) və (e) paraqraflarına əsasən həyata keçirilirsə sığortaçılar İllik Sığorta Haqqının qısa müddətli faizi ilə hesablanan sığorta pulunun qaytarılan hissəsini ödəyəcəklər, əgər başa çatma Sığortaçılar tərəfindən Ümumi Şərtlərin (d) paraqrafına əsasən həyata keçiriləcəksə İllik Sığorta Pulu proporsional olaraq ödəniləcək.

Bu Sığorta Müqaviləsi eyni zamanda ümumi Sığorta Limitinin bir və bir neçə itki ödənişi ilə başa çatması zamanı da başa şatır, bu zaman sığorta pulu tam qazanılır.

## 5. DİGƏR SIĞORTA VƏ YA TƏMİNAT

Belə razılaşdırılıb ki, itki zamanı bu Sığorta Müqaviləsi digər sığorta və ya TƏMİNATla sığortalanmış itkiləri də sığortaladığı hallarda digər belə sığorta və ya TƏMİNAT məbləğinin artığını (ümumi Sığorta Limitini və ya hər hansı müvafiq Sub-Limiti keçmədən) ödəyir. Eksedent sığorta kimi bu Sığorta Müqaviləsi digər belə sığorta və TƏMİNAT məbləği başa çatmayana kimi hər hansı itki üçün ödəniş etməyəcək.

## 6. TƏMİNAT LİMİTİ

(a) Bu Sığorta Müqaviləsi Cədvəlinin 2-ci Maddəsində irəli sürülmüş və hüquqi haqq və hüquqi xərclərdən ibarət Sığorta fəaliyyəti müddətində aşkar edilən bütün itki və zərərlər üçün Sığortaçıların ümumi öhdəliyi belə itki və zərərin ümumi məbləğindən asılı olmayaraq bu Sığorta Müqaviləsi Cədvəlinin 6-cı Maddəsində qeyd edilmiş Ümumi TƏMİNAT Limiti ilə məhdudlaşır. Hər hansı müvafiq Sığorta Bəndinin Sub-Limiti Ümumi TƏMİNAT Limitinin və hüquqi haqq və hüquqi xərclər də daxil olmaqla Sığortaçıların bütün zərərlərə görə ümumi öhdəliyinin tərkib hissəsidir və ona əlavə deyil, hər hansı Sub-Limitli Sığorta bəndi zərər və itkilərin ümumi məbləğindən asılı olmayaraq Sub-Limitin məbləği ilə məhdudlaşır.

Ümumi Sığorta Limiti bu Sığorta Müqaviləsi tərəfindən edilən hər hansı ödənişlə azaldılacaq. Belə ödənişlərlə ümumi Sığorta Limitinin başa çatması zamanı Sığortaçılar aşağıdakılar üçün öhdəlik daşımır:

(i) Sığortalını bu Sığorta Müqaviləsinin hər hansı Sığorta Bəndinə uyğun olaraq hər hansı itki və zərərlərə görə sığortalamaq, və

(ii) Sığortalını hər hansı hüquqi cərimə və hüquqi xərclər üçün sığortalamaq, və

(iii) Sığortaçıların müdafiəni həyata keçirmək üçün iştirak etdiyi hər hansı iddia və ya hüquqi prosedurda Sığortalının müdafiəsini davam etdirmək. Sığortaçı tərəfindən Sığortalıya Ümumi TƏMİNAT Limitinin başa çatması barədə bildirişdən sonra Sığortalanmış özünün müdafiəsini öz xərcləri hesabına həyata keçirəcək.

(b) Azalan ümumi TƏMİNAT Limitindən əlavə Cədvəlin 6-cı Maddəsində qeyd edilən hər hansı tətbiqi Sığorta Bəndinin Sub-Limiti adı çəkilən Sığorta Bəndi ilə əlaqədar olaraq həyata keçirilən ödənişlə azalacaq. Belə ödənişlər zamanı adı çəkilən Sığorta maddələri üçün müvafiq Sub-Limitin başa çatması ilə Sığortaçılar aşağıdakılar üçün öhdəlik daşımır:

(i) Sığortalı bu Sığorta Müqaviləsinin hər hansı Sığorta Bəndinə uyğun olaraq hər hansı itki və zərərlərə görə sığortalamaq, və

(ii) Sığortalını adı çəkilən itki və zərərlərə görə və ya adı çəkilən Sığorta Bəndinə uyğun olaraq hər hansı hüquqi cərimə və hüquqi xərclərdən sığortalamaq, və

(iii) Sığortaçıların müdafiəni həyata keçirmək üçün iştirak etdiyi hər hansı iddia və ya hüquqi prosedurda Sığortalının müdafiəsini davam etdirmək. Sığortaçı tərəfindən Sığortalıya ümumi TƏMİNAT Limitinin başa çatması barədə bildirişdən sonra Sığortalanmış özünün müdafiəsini ö xərcləri hesabına həyata keçirəcək.

Əgər bu Sığorta Müqaviləsi altında edilən ödənişlər səbəbi ilə Ümumi Sığorta Limiti bu Sığorta Müqaviləsi Cədvəlinin 6-cı maddəsində hər hansı Sub-Limit üçün təyin edilmiş məbləğdən aşağı düşərsə, bu zaman hər hansı belə Sub-Limitin məbləği elə azaldılacaq ki, hüquqi cərimə və hüquqi xərclər də daxil olmaqla hər hansı itki və zərər üçün Sub-Limitə müvafiq ümumi məbləğ ümumi Sığorta Limitinə uyğun olaraq qalan azalmış məbləğdən asılı olmasın.

ümumi Sığorta Limiti və hər hansı Sub-Limit bu Sığorta Müqaviləsi tərəfindən edilmiş hər hansı ödənişə bərabər təsir göstərəcək hər hansı ödənilmə ilə tam və ya yarımçıq olaraq bərpa olunmayacaq, bir şərtlə ki, belə ödənilmə Sığortaçılar tərəfindən Cədvəlin 2-ci Maddəsində qeyd edilmiş müddətdə və ya bundan sonra on iki (12) təqvim günü müddətində qəbul edilir.

Əgər itki birdən çox Sığorta Bəndi ilə sığortalanırsa belə itkiyə görə ödəniləcək maksimum məbləğ hər hansı müvafiq Sığorta Bəndinə uyğun ən böyük mümkün məbləğdən artıq olmamalıdır.

(c) İtirilmiş qiymətli kağızlar: Ümumi Şərtlər 14-ə uyğun olaraq qiymətli kağızların itkisinə görə sığorta və ya TƏMİNAT razılaşmasının istifadəsi vasitəsilə qiymətli kağızların itkisi təyin edilirsə belə itki, Sığorta Müddətində Sığortaçıların adı çəkilən qiymətli kağızların itkisinə görə zəmanət və TƏMİNAT razılaşmasına əsasən ödəniş etmədikləri halda, hər hansı itki və zərərin ödənilməsi üçün qalan Ümumi Sığorta Limitini və ya hər hansı Sub-Limiti azaltmayacaq. Buna baxmayaraq, belə itkiyə və ya qiymətli kağızların itkisinə görə zəmanətə və ya TƏMİNAT razılaşmasına əsasən Sığortaçı tərəfindən edilən hər hansı ödəniş bu sığorta Müqaviləsinə uyğun ödəmə hesab ediləcək.

Ümumi Sığorta Limitinin və ya hər hansı Sub-Limitin azalması və ya başa çatması ümumi Sığorta Limitinin və ya hər hansı Sub-Limitin başa çatması və ya azalmasından əvvəl buraxılmış qiymətli kağızların itkisi üçün sığorta və ya TƏMİNAT razılaşması ilə əlaqədar Sığortaçının öhdəliklərinə təsir etməyəcək.

## 7. BİLDİRİŞ VƏ İTKİNİN AŞKAR EDİLMƏSİ

Bu Siyasət əsasında sığortalanmaq hüququna misal olan vəziyyət kimi, Sığortalı hər hansı zərərin aşkar edilməsindən sonra otuz (30) gün müddətində mümkün olduqca tez Sığortaçılara yazılı bildiriş göndərməlidir.

Bu siyasətin məqsədi kimi, aşkar edilmənin baş verməsi Sığortalının faktlardan xəbərdar olması zamanı baş verdiyi güman edilir ki, bu zaman sağlam düşüncəli şəxs zərərin baş verməsi üçün halların, əməliyyatların və hadisələrin baş verməsindən, belə zərərin bu Sığorta Müqaviləsinin norma və şərtlərinə uyğun gəldiyini sübut etmək üçün Sığortalının məlumatının kifayət qədər olub-olmamasından və hətta zərərin məbləğ və təfərrüatlarının o zaman məlum olub olmasından asılı olmayaraq, belə zərərə məruz qalındığına inanır.

Aşkar edilmə həm də o zaman baş verir ki, Sığortalı həqiqi və potensial iddia bildirişi alır və burada təsdiq edilir ki, Sığortalı bu Sığorta Müqaviləsinə daxil olan zərəri təyin edəcək şərtlər altında üçüncü tərəfə qarşı cavabdehlik daşıyır, baxmayaraq ki, o anda zərərin məbləği və təfərrüatları məlum olmaya bilər.

Sığortalı tərəfindən aşkar edilən və bir şəxsin, İşçinin və ya digərinin, hərəkət və ya səhvi üzündən baş verən və ya belə şəxsin daxil olduğu zərər və ya zərərlər bir zərər kimi güman ediləcək.

## 8. ƏMƏKDAŞLIQ

Bu Siyasət altında sığortalanmaq hüququna misal olacaq vəziyyət kimi, Sığortalı burada qeyd edilən hər hansı zərərlə bağlı bütün məsələlərdə Sığortaçılar və onların təyin edilmiş nümayəndələri ilə əməkdaşlıq etməlidirlər. Sığortalı Sığortaçıların tələbi ilə onların təyin etdiyi yer və vaxtda mühasiblərinin audit sənədləri də daxil olmaqla bütün müvafiq sənədləri araşdırmaq üçün təmin etməli və əlindən gəldiyi qədər öz İşçilərini və digər şəxsləri müsahibə üçün təmin etməlidir. Sığortalı bütün sənədləri icra etməyə və bütün hüquqları, vəzifə və maraqları və hadisənin səbəblərini təyin etməyə kömək etməlidir, çünki bu qeyd edilən hər hansı zərərlə əlaqədar olaraq hər hansı şəxsə qarşı ola bilər və buna görə belə hüquq və hadisə səbəblərinə zərər vurmamaq üçün heç nə etməməlidir.

## 9. ZƏRƏRİN ÖDƏNİLMƏSİ ÜÇÜN SÜBUT

Belə zərərin aşkar edilməsindən sonra altı ay müddətində Sığortalı maliyyə müfəttişinin təsdiqi ilə Sığortaçılara zərər barədə yazılı formada ətraflı inandırıcı sübut təqdim etməlidir. Aşağıdakıları nəzərə alaraq itkinin ödənilməsi barədə sübut hazırlayan zaman sübut etmə məsuliyyəti Sığortalının üzərinə düşür:

(a) Sığorta Bəndi 1 əsasında iddia qaldırılan zərərə görə məsuliyyət daşıyan şəxsin təyin edilməsi üçün; zərəri təyin edən hər hansı proses zamanı yalan və fırıldaqçılıq hallarının təyin edilməsi; hər istiqrazdan və ya ticarət əməliyyatlarından əldə edilmiş qeyri-qanuni şəxsi maliyyə gəlirini təyin etmək üçün; və nəticədəki zərərin məhz belə yalan və fırıldaq hallarından doğduğunu təyin etmək üçün iddia qaldırılan zərər və ya

(b) Özündə Saxta İmza, Saxtakarlıq və ya Saxta Sənəd ehtiva edən maddədən ibarət Sığorta Bəndi 4 və 5 əsasında iddia qaldırılan zərər, burada belə maddənin həqiqi olduğu və Saxta İmza, Saxtakarlıq və ya Saxta Sənəd daşımadığı, Sığortalanmış iddia edilən zərərə məruz qalmadığı təyin edilir, və ya

(c) Zərərin iqtisadi şəraitdən və ya digər əlavə hallardan deyil sığortalanmış riskdən nəticələndiyini sübut etmək üçün hər hansı Sığorta Bəndi əsasında iddia qaldırılan zərər.

## 10. İTKİNİN ƏVƏZİNİN ÖDƏNİLMƏSİNİN HÜQUQİ PROSEDURLARI

Əgər Sığortaçıların öz araşdırmalarından sonra Sığortalıya bu Sığorta Müqaviləsinin qayda və şərtlərinə əsasən əvəzinin ödənilməsinə səlahiyyət verən itki və zərərin əvəzinin ödənilməməsi zamanı Sığortaçılar Sığortalının tələbi ilə Birləşmiş Krallığın səlahiyyətli yurisdiksiyaya malik hər hansı məhkəməsinə verilə bilər.

Hər hansı belə hüquqi prosedurlarda məhkəmə sənədinin təhvil verilməsi Sığortaçılar adından Məhkəmə Sənədini qəbul etmək üçün səlahiyyətə malik Siyahıda adı ?əkilən insan (insanlar) tərəfindən həyata keçiriləcək. Hər hansı Sığortaçılar əleyhinə təşkil olunmuş belə hüquqi prosedurlarda digər Sığortaçılar da bundan sonra Belə Məhkəmənin və ya apelyasiya zamanı Apelyasiya məhkəməsinin son qərarına riayət etməli olacaqlar.

Bununla əlaqədar olaraq itkinin əvəzinin ödənilməsi üçün hüquqi prosedurlar Ümumi Şərtlər 9-da qeyd edildiyi kimi nə Sığortalının zərərin sübutlarını təmin etdikdən sonra üç ay müddətində nə də belə zərərin aşkar edilməsindən sonra iki il müddətinin başa çatmasından sonra başladılmayacaq.

Əgər adı çəkilən iki il məhdudiyyəti bu Sığorta Müqaviləsinin qurulmasına nəzarət edən hər hansı qanun tərəfindən qadağan edilirsə belə məhdudiyyətin belə qanun tərəfindən icazə verilən minimim məhdudiyyətə bərabər olaraq dəyişdirilməsi güman ediləcək.

## 11. İNTERPRETASİYA

Bu Müqavilənin terminlər, istisnalar, məhdudiyyətlər və şərtləri İngiltərənin ümumi qanununa uyğun olaraq və bu Müqavilədə göstərildiyi kimi İngilis mətninə uyğun olduğu kimi müəyyən olunacaq.

## 12. SIĞORTA POLİSİNİN MÜSTƏSNA SƏMƏRƏSİ

Razılaşdırılmışdır ki, burada təmin olunan Sığorta sadəcə ilk adlandırılan **Sığortalının** eksklüziv səmərəsi üçün olacaq və adı çəkilən **Sığortalıdan** başqa heç bir vəziyyətdə heç kim bu Müqavilənin şərtləri altında hər hansı bir fəaliyyət göstərməyə haqqı yoxdur.

## 13. QİYMƏTLƏNDİRMƏNİN ƏSASI

(a) Bu Müqavilənin şərləri alında hər hansı bir iş üçün toplana bilən məbləğin müəyyən olunmasında əsas, maraqlar, dividentlər, komisyonlar, və bənzər ödəmələr də daxil olmaqla adı gedən itkinin baş verdiyi hər hansı bir məsələ ilə əlaqədar olan hər hansı bir mənbədən alınmış bütün vəsait qəbul olunduğu vaxtda həqiqətən ödənmiş, irəli sürülmüş, alınmış və ya başqa şəkildə itirilmiş məbləğdən çıxılacaq. Adı çəkilən itkinin baş verdiyi hər hansı bir məsələ ilə əlaqədar olaraq hər hansı bir mənbədən qəbul olunmuş bütün mülkiyyətin dəyəri qəbul olunduğu vaxtda eyni zamanda **Sığortalının** tələb olunan itkisindən çıxılacaq.

(b) İtki tələbini irəli sürüləcəyi hər hansı təhlükəsizlik xidmətlərinin, xarici fondların, valyutaların və ya qiymətli metallar itkinin müəyyən olunduğu tarixdən bir gün əvvəlki son iş günündə son bazar qiymətlərinə görə müəyyən olunacaq.

Eyni əşya üçün həmin gündə bazar qiymətləri olmazsa o zaman qiymətlər **Sığortalı** və Sığorta edənlər arasında razılaşdırıldığı kim və ya məhkəmə ilə müəyyən olunduğu kimi qiymətləndiriləcək. Lakin əgər bu cür təhlükəsizlik xidmətləri, xarici fondlar, valyutalar və ya qiymətli metallar dəyişdirilə bilərsə o zaman **Sığortalı** Ümumi Şərtlərin 14 nömrəli Bəndinə əsasən adı çəkilən vahidləri Sığorta edənin təsdiqi ilə əvəz edə bilər və qiymətlər dəyişdirilmənin həqiqi qiymətlərinə bərabər olacaq.

Əgər bu Sığorta Müqaviləsi Azadolmaya tabedirsə, və ya Sığorta Müqaviləsi Limiti varsa Cədvəlin 6-cı bəndində hər hansı bir itki və ya itkilərin qalan ödəməsi üçün burada tələb irəli sürülən təhlükəsizlik xidmətlərinin itkisi üçün **Sığortalıya** tam olaraq kompensasiya üçün məbləğ kifayət etmir, bu Müqavilənin şərtləri altında Sığorta edənin öhdəlikləri bu Müqavilənin tətbiq oluna bilən Sığorta Şərtləri altında toplana bilən miqdara bərabər olan qiymətdə təhlükəsizlik xidmətlərinin ödənməsi və ya dublikasiyası ilə məhdudlaşır.

(c) Hesab kitablarından və ya işlərin həyata keçirilməsində **Sığortalı** tərəfindən istifadə olunan digər qeydlərdən ibarət mülkiyyətin itirilməsi və ya zədələnməsi nəticəsində Sığorta edən tərəf sadəcə bu cür kitab və ya qeydlərin həqiqətən yenidən hazırlanması və boş kitablardan, boş səhifələrdən və ya digər materiallardan daha baha başa gəlməsi və əlavə olaraq bu cür kitablar və digər qeydləri yenidən hazırlamaq üçün **Sığortalı** tərəfindən təşkil ediləcək məlumatların nüsxəsinin alınması və həqiqi izahı üçün əməyin dəyəri üçün cavabdeh olacaqdır.

## 14. İTİRİLMİŞ QİYMƏTLİ KAĞIZLAR

Bu Sığorta Müqaviləsinin şərtləri altında əhatə olunan qiymətli kağızlarla bağlı itki ilə əlaqədar olaraq **Sığortalı** aşağıda adı gedən şərtlər ilə əlaqədar olaraq ilkin onun vasitəsi ilə hazırlanmış zəmanət məktubundan istifadə etməklə itirilmiş qiymətli kağızları əvəz etmək cəhdi olacaqdır. Zəmanət məktubu ilə itirilmiş qiymətli kağızları əvəz etmək mümkün olmadıqda **Sığortalı** Sığorta edənin əvvəlcədən verdiyi razılığa uyğun olaraq qiymətli kağızların surətinin əldə edilməsi üçün müəyyən olunmuş itirilmiş qiymətli kağız girovunu təmin edəcək.

Daha sonra razılaşdırılır ki, Sığorta edənlər **Sığortalıya** Cədvəldə göstərilən tətbiq olunan Azadolmadan əlavə, Ümumi Kompensasiya Limitindən və ya **Sığortalıdan** ya Müqavilə Müddəti ərzində, ya da ondan sonrakı hər hansı vaxt **Sığortalı** tərəfindən həyata keçirilən hər hansı kompensasiya sazişi səbəbi ilə ödəməsi tələb olunan, **Sığortalı** tərəfindən zəmanət məktubunun həyata keçirilməsi vaxtında və ya itirilmiş qiymətli kağızların həddini müəyyən etmək üçün hər hansı itkinin ödənilməsi üçün əlverişli olaraq qalan itki ilə bağlı tətbiq edilən hər hansı Sub Limitdən artıq olmamaq şərti ilə həmin məbləğ və ya məbləğləri kompensasiya edəcək.

Bundan sonra razılaşdırılır ki, **Sığortalı** bu cür kompensasiya sazişini əldə etməyin xərclərini və ya Cədvəldə müəyyən olunduğu kimi tətbiq oluna bilən Azadolma hissəsinə daxil olan itkinin həmin hissəsi üçün itki zəmanəti həddi və ya adı gedən itkinin ödənməsi üçün mümkün olaraq qalan Ümumi Kompensasiya Limitindən artıq olan və ya adı gedən itkinin ödənməsi üçün hər hansı tətbiq oluna bilən Sub Limitdən artıq olan xərcləri öz hesabına çəkəcək.

Sığorta edənlər bu cür kompensasiya sazişini əldə etmək və ya bu Müqavilənin Sığorta Şərtləri altında əhatə olunan və Azadolmadan artıq olan və Ümumi Kompensasiya Limitivə ya hər hansı itkinin ödənişi üçün mümkün olan qalan Sub Limitdən çox olan həmin itkinin itki zəmanəti həddi üçün xərcləri özü çəkəcək.

## 15. SUBROQASİYA, İKİNCİ İSTİFADƏ VƏ BƏRPA

Razılaşdırılmışdır ki, Sığorta edənlər burada adı çəkilən hər hansı itkinin ödəməsinə görə bu itki ilə əlaqədar **Sığortalının** hərəkətlərinin bütün hüquqları, titulu, maraqları və səbəblərinə kreditor olacaq.

Burada adı çəkilən hər hansı itkinin ödənməsindən sonra bərpa olunma halında bərpa olunan miqdar əldə etmənin həqiqi qiymətləri çıxıldıqdan sonra və ya **Sığortalının** öz əməyini və ya təşkil etmə xərclərini çıxmaqla bu cür bərpanı həyata keçirmək aşağıdakı qaydada tətbiq olunacaq:

(a) **Sığortalıya** tam olaraq əgər varsa, bu Müqaviləsin şərtləri altında ödənən itkinin miqdarından çox olan bu cür itki üçün kompensasiya (tətbiq oluna bilən hər hansı Çıxarıla Bilən məbləğdən asılı olmayaraq),

(b) Əgər varsa və ya bu Müqaviləsin şərtləri altında ödənən itkinin miqdarından artıq olan bu cür itkilərin heç bir hissəsi üçün tam dəqiq bərpa yoxdursa Sığorta edənlərlə kompensasiyanı tarazlaşdırmaq,

(c) son olaraq, **Sığortalı** tərəfindən Cədvəldə müəyyən olunmuş Çıxarıla bilən miqdar səbəbi ilə və / və ya bu Müqavilədən çox olan Sığortanın hər hansı Müqavilələri ilə əhatə olunan bu cür itkinin həmin hissəsi səbəbi ilə çəkilmiş itkinin həmin hissəsinə görə.

## 16. AZADOLMA

Sığorta edənlər sadəcə Cədvəlin 7-ci bəndində göstərilmiş tətbiq oluna bilən Sığorta Şərtlərinin Azadolma hissəsinin artıq qalan hissəsi üçün cavabdeh olacaqlar. Birdən çox tətbiq oluna bilən Sığorta Şərtlərinin olması halında hər hansı tətbiq oluna bilən Sığorta Şərtləri ilə əlaqədar ən böyük Azadolma məbləğ tətbiq olunacaq.

Azadolma məbləği Müqavilə Müddəti ərzində bu cür itkilərin sayından asılı olmayaraq ayrı-ayrılıqda və hər bir itkiyə aid ediləcək.

## 17. DƏLƏDUZLUQ

Əgər **Sığortalı** miqdar ilə əlaqədar və ya başqa cür saxta və ya dələduzluq barədə iddia irəli sürərsə bu Müqavilə qüvvədən düşəcək və burada göstərilən bütün tələblər etibarsız olacaq.

# ELEKTRON VƏ KOMPÜTER CİNAYƏT SIĞORTASI

## I. SIĞORTA MÜDDƏALARI

### SIĞORTA MÜDDƏASI 1

### KOMPÜTER SİSTEMLƏRİ

Aşağıdakıların nəticəsində **Sigortalının** hər hansı məbləğ yaxud əmlak verməsi, ödəniş etməsi və ya təqdim etməsi, kredit verməsi yaxud qiymət verməsi

(a) Qəsdən yalan Elektron Məlumatın aşağıdakılara birbaşa daxil edilməsi:

(i) **Sigortalının** Kompüter Sisteminə, yaxud

(ii) Xidmət Bürosunun Kompüter Sisteminə, və ya

(iii) Vəsaitin Elektron Köçürülməsi Sistemi, və ya

(iv) Müştərilərlə Əlaqə Sisteminə; yaxud

(b) **Sigortalının** Kompüter Sisteminə yaxud Xidmət Bürosunun Kompüter Sisteminə Elektron Köçürülmə zamanı və ya yuxarıdakı sistemlərin hər hansı birində saxlanılan yaxud işləyən Elektron Məlumatın yalandan dəyişdirilməsi və ya yalandan məhv edilməsi;

(c) Telefon Bank Sistemi vasitəsilə birbaşa **Sigortalının** Kompüter Sisteminə Elektron Məlumatın yalandan yerləşdrilməsi

Bu yalan əməllər **Sigortalının** itkiyə məruz qalması və ya özünün yaxud digər şəxsin mənfəət əldə etməsi üçün istənilən şəxs tərəfindən törədilmiş yaxud təlimatlandırılmışdır.

### SIĞORTA MÜDDƏASI 2

### ELEKTRON KOMPÜTER PROQRAMLARI

**Sigortalının** itkiyə məruz qalması və ya özünün yaxud digər şəxsin mənfəət əldə etməsi üçün istənilən şəxs tərəfindən törədilmiş yaxud təlimatlandırılmış bu yalan əməllərin nəticəsində Elektron Kompüter Proqramlarının yalandan dəyişdirilməsi yaxud hazırlanması nəticəsində **Sigortalının** hər hansı məbləğ yaxud əmlak verməsi, ödəniş etməsi və ya təqdim etməsi, kredit verməsi yaxud qiymət verməsi.

### SIĞORTA MÜDDƏASI 3

### ELEKTRON MƏLUMAT VƏ İNFORMASİYA

Aşağıdakıların nəticəsində

(a) istənilən şəxs tərəfindən **Sigortalının** Kompüter Sistemində yaxud Xidmət Bürosunun Kompüter Sistemində saxlanılan yaxud **Sigortalının** ofis və obyektlərində Elektron Məlumat Hazırlayan Vasitəyə əsasən qeyd edilən və ya **Sigortalı** tərəfindən kuryer kimi (təyin edilmiş bu cür kuryerin səriştəsizliyi nəticəsində yaranan fövqəladə hal zamanı kuryer kimi fəaliyyət göstərən şəxs) fəaliyyət göstərməsi məqsədilə təyin olunmuş və ya onun nəzarətində olan şəxs tərəfindən bu Elektron Məlumatın qeyd edilməsindən sonra Elektron Məlumat Hazırlayan Vasitənin ötürüldüyü istənilən yerdə Elektron Məlumatın qəsdən dəyişdirilməsi yaxud məhv edilməsi və ya buna cəhd, bu ötürülmə yuxarıda adı çəkilən kuryer tərəfindən Elektron Məlumat Hazırlayan Vasitə alındıqdan dərhal sonra başlamalı və **Sigortalının** bu Elektron Məlumatın və Elektron Məlumat Hazırlayan Vasitənin sahibi olduğu və ya bu itki yaxud zərər üçün hüquqi cəhətdən cavabdeh olduğu təqdirdə onun tərəfindən təyin edilmiş alıcı və ya nümayəndəyə çatdırıldıqdan sonra dərhal qurtarmalıdır;

(b) Elektron Məlumat Hazırlayan Vasitənin istənilən yerdə yerləşən ofis və obyektlərdə saxlanılması yaxud yığılması zamanı yaxud **Sigortalı** tərəfindən kuryer kimi (təyin edilmiş bu cür kuryerin səriştəsizliyi nəticəsində yaranan fövqəladə hal zamanı kuryer kimi fəaliyyət göstərən şəxs) fəaliyyət göstərməsi məqsədilə təyin olunmuş və ya onun nəzarətində olan şəxsin nəzarəti altında Elektron Məlumat Hazırlayan Vasitənin soyğunçuluq, oğurluq, quldurluq, çapqınlıq, yanlış yerləşdirilmə, sirli şəkildə izaholunmaz yoxa çıxması yaxud qərəzli hərəkət nəticəsində məhv edilməsi itməsi və ya zədələnməsi, bu ötürülmə yuxarıda adı çəkilən kuryer tərəfindən Elektron Məlumat Hazırlayan Vasitə alındıqdan dərhal sonra başlamalı və **Sigortalının** bu Elektron

Məlumatın və Elektron Məlumat Hazırlayan Vasitənin sahibi olduğu və ya bu itki yaxud zərər üçün hüquqi cəhətdən cavabdeh olduğu təqdirdə onun tərəfindən təyin edilmiş alıcı və ya nümayəndəyə çatdırıldıqdan sonra dərhal qurtarmalıdır; və

(c) **Sigortalının** Kompüter Sistemində saxlanılan Elektron Kompüter Proqramlarının qəsdən dəyişdirilməsi və ya məhv edilməsi, bir şərtlə ki, **Sigortalı** bu Elektron Kompüter Proqramlarının sahibi olsun və ya itkiyə və zədələnməyə hüquqi cəhətdən cavabdeh olsun.

**SIĞORTA MÜDDƏASI 4**

**KOMPÜTER VİRUSU**

Aşağıdakıların nəticəsində

(a) **Sigortalının** Kompüter Sistemi yaxud Xidmət Bürosunun Kompüter Sistemində saxlanılan bu Elektron Məlumatın istənilən şəxs tərəfindən səbəb olan Kompüter Virusuna görə **Sigortalının** Elektron Məlumatının pozulması yaxud buna cəhdin nəticəsində **Sigortalının** hər hansı məbləğ yaxud əmlak verməsi, ödəniş etməsi və ya təqdim etməsi, kredit verməsi yaxud qiymət verməsi; və

(b) **Sigortalının** Kompüter Sistemi yaxud Xidmət Bürosunun Kompüter Sistemində saxlanılan bu Elektron Məlumatın istənilən şəxs tərəfindən səbəb olan Kompüter Virusu nəticəsində **Sigortalının** Elektron Məlumatının pozulması yaxud buna cəhd.

**SIĞORTA MÜDDƏASI 5**

**ELEKTRON VƏ FAKS ƏLAQƏSİ**

**Sigortalının** maliyyə köçürməsi, ödəniş etməsi, pul göndərməsi yaxud almasına səlahiyyət verilməsinə yönəlmiş məlumatların aşağıdakılar vasitəsilə ötürülməsi üçün hər hansı məbləğ yaxud əmlak verməsi, ödəniş etməsi və ya təqdim etməsi, kredit verməsi yaxud qiymət verməsi

(a) Elektron Əlaqə Sistemi vasitəsilə, yaxud

(b) Faks, teleks, teletayp əlaqəsi və ya buna bənzər əlaqə vasitələri ilə

Birbaşa **Sigortalının** Kompüter Sistemi və ya **Sigortalının** Kommunikasiya Terminalına və müştəri, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsinə göndərilmə barədə yalan niyyət, amma bu məlumatlar nə müştəri, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsi tərəfindən göndərilməyib nə də Elektron Məlumat Hazırlayan Vasitənin **Sigortalıya** ötürülməsi yaxud **Sigortalının** Kompüter Sistemi və ya **Sigortalının** Kommunikasiya Terminalına ötürülmə zamanı yalandan dəyişdirilməyib.

**XÜSUSİ ŞƏRT**

2-ci bənddə göstərilən bütün faks, teleks, TTƏ yaxud digər buna bənzər əlaqə vasitələri sınaqdan keçirilməli yaxud səlahiyyətli şəxsə cavab zəngi edərək yoxlanılmalıdır və ya hər hansı belə faksda Saxta İmza və ya Saxta Dəyişdirilməyə qarşı sistem olmalıdır.

**SIĞORTA MÜDDƏASI 6**

**ELEKTRON KÖÇÜRÜLMƏLƏR**

**Sigortalı**, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsinin müştərisinin hər hansı məbləğ yaxud əmlak verməsi, ödəniş etməsi və ya təqdim etməsi, kredit verməsi yaxud qiymət verməsi nəticəsində

(a) **Sigortalı** tərəfindən birbaşa müştəri, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsinin Kompüter Sistemi yaxud Kommunikasiya Terminalına Elektron Kommunikasiya Sistemi yaxud sınaqdan keçirilmiş Faks, Teleks, TTƏ yaxud buna bənzər digər kommunikasiya vasitələri ilə ötürülmüş pul və yaxud əmlak ötürülməsi, ödənişi, çatdırılması yaxud qəbul edilməsinə səlahiyyət verən müştəri, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsinə istiqamətlənməsi nəzərdə tutulmuş hər hansı elektron məlumat; yaxud

(b) **Sigortalının** Kompüter Sistemi yaxud adı çəkilən müştəri üçün Xidmət Bürosu kimi fəaliyyət göstərdiyi zaman **Sigortalının** Kompüter Sistemindən müştərinin Kompüter Sisteminə Elektron Ötürülmə zamanı Elektron Məlumatın birbaşa yalandan daxil edilməsi, yalandan dəyişdirilməsi yaxud yalandan məhv edilməsi nəticəsində; və

**Sigortalının** müştəri, Avtomatlaşdırılmış Hesablama Palatası, **Sigortalının** ofisi yaxud digər maliyyə müəssisəsi qarşısında hüquqi cəhətdən cavabdeh olduğu itki üçün.

**SIĞORTA MÜDDƏASI 7**

**ELEKTRON MÜHAFİZƏ VASİTƏLƏRİ**

Mərkəzi Xəzinənin **Sigortalının** hesabına **Sigortalı** tərəfindən Mərkəzi Xəzinəyə istiqamətlənmiş elektron məlumat üçün hər hansı pul və əmlak köçürməsi, ödəniş etməsi yaxud verməsi nəticəsində yuxarıda adı çəkilən pul və ya əmlakın köçürülməsi, ödənişi yaxud çatdırılması və ya Elektron Mühafizə vasitələrinin alışı-satışı, köçürülməsi yaxud girov qoyulması ilə bağlı **Sigortalının** hesabının debetə yazılması.

(a) Elektron Əlaqə Sistemi vasitəsilə, yaxud

(b) Yoxlanılmış Faks, teleks, teletayp əlaqəsi və ya buna bənzər yoxlanılmış əlaqə vasitələri ilə

Adı çəkilən Mərkəzi Xəzinənin birbaşa Kompüter Sistemi yaxud Kommunikasiya Terminalına və **Sigortalı** tərəfindən Mərkəzi Xəzinəyə yalandan informasiya göndərməsi, ancaq bu əlaqə vasitələri nə **Sigortalı** tərəfindən Mərkəzi Xəzinəyə göndərilib nə də **Sigortalı**dan Elektron Məlumat Hazırlayan Vasitənin fiziki daşınması və ya **Sigortalının** Kompüter Sistemindən yaxud Kommunikasiya Terminalından Mərkəzi Xəzinəyə Elektron Ötürülmə zamanı yalandan dəyişdirilməyib və bu itkiyə görə **Sigortalı** Mərkəzi Xəzinə qarşısında məsuliyyət daşıyır.

**SIĞORTA MÜDDƏASI 8**

**SƏSLİ TƏLİMATLAR**

Aşağıdakıların nəticəsində

(a) **Sigortalıya** yönəlmiş səsli təlimatlar üçün Müştərinin hesabına digər banklara Müştəri tərəfindən təyin edilmiş şəxslərə kredit üçün pul yaxud əmlak köçürən yaxud çatdıran **Sigortalı** və həmin təlimatlar telefon vasitəsilə **Sigortalının** işçilərinə, xüsusilə də **Sigortalının** ofisində adı çəkilən təlimatları qəbul etmək səlahiyyəti olan işçilərinə çatdırılıb və belə maliyyənin köçürülməsi yaxud belə əmlakın çatdırılması Müştəri tərəfindən təyin olunan və səlahiyyət verilən şəxs tərəfindən yalan niyyəti, amma belə təlimatlar adı çəkilən Müştəri yaxud Müştərinin istənilən məsul şəxs, direktor, əməkdaş yaxud işçisi tərəfindən verilməyib və ya Müştərinin istənilən məsul şəxs, direktor, əməkdaş yaxud işçisi tərəfindən yalandan verilib, bu şəxslərin vəzifə və öhdəlikləri onlara Müştəri səsli təlimatları verməyə, tətbiq etməyə, səlahiyyətləndirməyə yaxud təsdiq etməyə icazə vermir, bu yalan əməllər **Sigortalı** yaxud Müştərinin zərər uğraması və özlərinin mənfəət əldə etməsi üçün başqa şəxslər tərəfindən törədilir;

(b) **Sigortalının** ofisləri arasında əlaqələndirilmiş səsli təlimatlar üçün Müştərinin ofisləri arasındakı Müştəri hesabına Müştəri tərəfindən təyin edilmiş şəxslərə kredit üçün pul yaxud əmlak köçürən yaxud çatdıran **Sigortalı** və həmin təlimatlar telefon vasitəsilə **Sigortalının** ofisindəki işçilərinə, xüsusilə də **Sigortalının** ofisində adı çəkilən təlimatları qəbul etmək səlahiyyəti olan işçilərinə çatdırılıb və belə maliyyənin köçürülməsi yaxud belə əmlakın çatdırılması Müştəri tərəfindən təyin olunan və səlahiyyət verilən şəxs tərəfindən yalan niyyəti, amma belə təlimatlar adı çəkilən Müştəri yaxud Müştərinin istənilən məsul şəxs, direktor, əməkdaş yaxud işçisi tərəfindən verilməyib və ya Müştərinin istənilən məsul şəxs, direktor, əməkdaş yaxud işçisi tərəfindən yalandan verilib, bu şəxslərin vəzifə və öhdəlikləri onlara Müştəri səsli təlimatları verməyə, tətbiq etməyə, səlahiyyətləndirməyə yaxud təsdiq etməyə icazə vermir, bu yalan əməllər **Sigortalı** yaxud Müştərinin zərər uğraması və özlərinin mənfəət əldə etməsi üçün başqa şəxslər tərəfindən törədilir;

**XÜSUSİ İZAH**

"Müştəri" bu Sığorta Sazişində **Sigortalı** ilə müştəri səsli maliyyə köçürmələri üçün yazılı saziş bağlayan hər hansı korporativ, şəriklik yaxud etibarlı müştəri və ya buna bənzər biznes müəssisəsi nəzərdə tutulur. Bağlanan bu yazılı saziş telefon nömrələri və bütün təşəbbüskarlar/mötəbər şəxslərin maliyyə məhdudiyyətini göstərən siyahıda adları olan səsli maliyyə köçürməsinə səlahiyyəti olan şəxslərin siyahısını təşkil edən korporativ qətnamədir. Belə yazılı saziş həmçinin **Sigortalı** tərəfindən qəbul olunan öhdəliyin məhdudiyyəti daxil olmaqla xidmətin göstərildiyi şərtlər və müddəaları ümumi təsvir edir.

**XÜSUSİ ŞƏRT**

Maliyyə və ya əmlak köçürülməsi üçün müştəri tərəfindən qəbul edilən bütün səsli təlimatlar yoxlanılmalı yaxud köçürülmə tələbini irəli sürən səlahiyyətli şəxslə əks əlaqə ilə sınaqdan keçirilməlidir.

**II. İZAHLAR**

1. "**Sigortalı**" Cədvəldə adı verilmiş **Sigortalı** və Təklif Forması və Cədvəldə adı verilmiş bank işi ilə məşğul olan tam sahibkarlıq fəaliyyəti altında birləşən şirkətlər deməkdir. Bu aşağıdakıları nəzərdə tutmur:

(a) tam bank işi ilə məşğul olmayan köməkçi şirkət, yaxud

(b) bank işi ilə məşğul olmayan köməkçi şirkət,

Belə köməkçi şirkətin adı əsas fəaliyyət növü üzrə Təklif Forması və Cədvəldə verilməyənədək və birinci adı verilən **Sigortalının** səhm kapitalındakı iştirakı belə göstərilməyənədək.

2. "**Sigortalının** Kompüter Sistemi" **Sigortalı** tərəfindən idarə edilən və **Sigortalının** sahib olduğu yaxud icarə götürdüyü və ya Təklif Formasında verilmiş Kompüter Sistemləri.

3. "Avtomatlaşdırılmış Hesablamalar Palatası" maliyyə müəssisələrinin müştəriləri adından maliyyə müəssisələri arasında icazə verilmiş təkrar olunan debet və kreditlərin köçürülməsi üçün köçürmə mexanizmi və elektron hesablamanı idarə edən hər hansı korporasiya və assosiasiya mənasında işlənir.

4. "Mərkəzi Xəzinə" Birləşmiş Ştatların hər hansı Federal Ehtiyat Bankı daxil olmaqla hər hansı klirinq korporativi mənasında işlənir, burada birbaşa elektron klirinq və köçürülmə mexanizmi nəticəsində klirinq korporativinin Təklif Formasında göstərdiyi köçürülmüş, girov qoyulmuş və ya girovdan azad edilmiş hüquq və səhmlərin sayı və öhdəliyin həcmi əsasında köçürən şəxsin, girov qoyan şəxsin yaxud girov alan şəxsin hesabı azalan siyahısında qeyd edilir və alan şəxsin, girov qəbul edən şəxsin və girov alan şəxsin hesabı çoxalan siyahısında qeyd edilir.

5. "Kommunikasiya Terminalı" teletayp, teleprinter, video görüntü terminalı yaxud faks aparatı və ya elektron informasiya göndərmək və klaviatura və ya mausla təchiz edilməsindən asılı olmayaraq qəbul etmək imkanı olan buna bənzər aparat deməkdir.

6. "Kompüter Sistemi" istifadəçi tərəfindən kompüter əməliyyat sisteminə verilmiş Elektron Kompüter Proqramlarına müvafiq olaraq texniki təminat, proqram təminatı və məlumat resursları imkanı olan çox- funksiyalı proqramlar üçün uyğun kompüter deməkdir. Belə qurğuya fiziki birləşdirilmiş müvafiq kommunikasiya vasitələri və açıq sistem şəbəkələri daxil olmaqla bütün daxil etmə, çıxış, emal etmə, saxlama və kommunikasiya vasitələri, həmçinin qurğunun müstəqil media kitabxanaları adı çəkilən kompüter sisteminin bir hissəsi hesab edilir. Bura tək istifadə proqramları üçün yararlı olan kompüterlər daxil deyil.

7. "Kompüter Virusu" **Sigortalının** Kompüter Sistemi və/yaxud şəbəkə vasitəsilə şəxs yaxud bəlli bir işçi tərəfindən qəsdən təqdim edilmiş təlimatlar vasitəsilə özlərini təbliğ edən icazəsiz təlimatlar, proqram yaxud vasitələri nəzərdə tutur.

8. "Müştəri Kommunikasiya Sistemi" Təklif Formasında verildiyi kimi həmin kommunikasiya sistemləri nəzərdə tutulur, bu da **Sigortalının** müştərilərini Müştərinin Kompüter Sisteminə birbaşa girişlə təmin edir.

9. "Elektron Kommunikasiya Sistemi" Fedwire, Hesablamalar Palatası Banklararası Ödəniş Sistemi (HPBÖS), Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti (ÜBMTC), Hesablamalar Palatasının Avtomatlaşdırılmış Ödəniş Sistemi (HPAÖS) tərəfindən aparılan elektron kommunikasiya əməliyyatları, Milli Avtomatlaşdırılmış Hesablamalar Palatası Assosiasiyasının üzvü olan Avtomatlaşdırılmış Hesablamalar Palatası Assosiasiyasının və Təklif Formasında verilən buna bənzər kommunikasiya sisteminin icazəli təkrarlanan debet və kreditlərinin köçürülməsi üçün maliyyə köçürülməsi sistemi nəzərdə tutulur.

10. "Elektron Kompüter Proqramları" Elektron Məlumat əsasında fəaliyyət göstərən Kompüter Sistemində istifadəyə yararlı faktlar və məlumata çevrilmiş kompüter proqramlarını nəzərdə tutur.

11. "Elektron Məlumat" Kompüter Sistemində istifadəyə yararlı faktlar və məlumata çevrilmiş və kompüter proqramları tərəfindən istifadə olunması üçün Elektron Məlumat Hazırlayan Vasitədə saxlanılan məlumatı əks etdirir.

12. "Elektron Məlumat Hazırlayan Vasitə" Elektron Məlumatın qeyd edildiyi maqnetik yaxud optik vasitədən asılı olmayaraq kaset yaxud disk və ya digər media vasitəsi kimi işlənilir.

13. "Elektron Maliyyə Köçürmə Sistemləri" avtomatlaşdırılmış bank avtomatları yaxud satış terminalları nöqtələrinin idarə olunduğu sistemləri nəzərdə tutur və bura **Sigortalının** iştirak etdiyi adı çəkilən sistem üçün şərikli şəbəkə və ya vasitələr daxildir.

14. "Elektron Zəmanət" eminent müəssisəsinin əmlakında iştirak yaxud digər marağı olan hissə yaxud eminentin aşağıdakı öhdəliyi deməkdir:

(a) qiymətli kağızlar mübadiləsi yaxud marketlə ümumi işbirliyi; və

(b) şərtlərinə müvafiq olaraq səhmlər, iştirak, maraq yaxud öhdəliklərin bir növü yaxud seriyasına bölünən; və

(c) (i) hər hansı sənədlə təmsil olunmayan, yaxud

(ii) yüksək ixtisaslı yaxud qlobal şəhadətnamənin bir hissəsi olan; yaxud

(iii) maliyyə müəssisəsi tərəfindən imtina edilən kağız şəhadətnaməni təmsil edir və bu kağız şəhadətnamə əsas xəzinədarlıq qeydi ilə birləşib və kağız şəhadətnamələr durğunlaşıb

Və belə qiymətli kağız Mərkəzi Xəzinənin mühasibatlıq kitabında alan şəxsin, girov qəbul edən şəxsin və girov alan şəxsin hesabında elektron siyahı kimi göstərilib.

15. "Elektron Ötürülmə" Elektron Məlumatın peyk xətləri, radio tezliyi, infraqırmızı xətlər yaxud Elektron Məlumatın Ötürülməsi üçün nəzərdə tutulan buna bənzər vasitələrlə məlumat kommunikasiya xətləri ilə ötürülməsini nəzərdə tutur.

16. "Borc Sənədi" **Sigortalının** müştərisi tərəfindən icra olunan və **Sigortalı** tərəfindən müştərinin **Sigortalıya** olan borcunu, həmçinin alınan hesablar və xərcləri bildirən sənədləri nəzərdə tutur.

17. "Saxta İmza" səlahiyyəti olmadan və aldatma məqsədilə bir başqa şəxs tərəfindən başqasının yerinə imza atma deməkdir; bura şəxsin hər hansı məqsədlə öz adından icazəli yaxud icazəsiz tam yaxud natamam imzalaması daxil deyildir.

18. "Saxta Dəyişdirilmə" aldatma məqsədilə sənədi hazırlayan və imzalayan şəxs deyil, başqası tərəfindən materialın Faksda dəyişdirilməsini nəzərdə tutur.

19. "Xidmət Bürosu" dedikdə Kompüter Sistemlərindən istifadə edərək məlumat hazırlama xidmətini həyata keçirən yazılı sazişlə səlahiyyətləndirilən şəxs, əməkdaşlıq yaxud korporativ nəzərdə tutulur.

20. " Xidmət Bürosunun Kompüter Sistemi" Xidmət Bürosu tərəfindən idarə olunan və Xidmət Bürosuna məxsus yaxud onun tərəfindən icarəyə götürülən Kompüter Sistemlərini nəzərdə tutur.

21. "Faks" yazılı sənədlərin nüsxəsinin ötürülərək yenidən yaranması məqsədilə xüsusi mühafizə olunan sahədə telefon xətti üzərindən **Sigortalı** tərəfindən təmin edilən avadanlığa elektron siqnallarla ötürülməsi üçün tələb olunan sistemi nəzərdə tutur.

22. "Telefon vasitəsilə Bank Sistemi" Təklif Formasında verilən telefon vasitəsilə bank sistemi kommunikasiya sistemidir və bu sistem **Sigortalının** müştərilərinin avtomatlaşdırılmış toxunma tonu telefon xidməti ilə **Sigortalının** Kompüter Sisteminə birbaşa girişini təmin edir və bu hər hansı bank sövdələşmələrini həyata keçirmək üçün Yoxlanılmış kodun istifadəsini tələb edir, lakin bu özəl telefon stansiyası, səsli poçt prosessoru, avtomatlaşdırılmış zəng xidmətçiləri yaxud səsli kommunikasiya şəbəkəsində telefon zənglərinin marşrutu yaxud istiqamətlənməsi üçün buna bənzər kompüter sistemini nəzərdə tutmur.

23. "Yoxlanılmış" işin ümumi gedişatında kommunikasiyanın bütövlüyünü mühafizə etmək məqsədilə **Sigortalı** və müştəri, Avtomatlaşdırılmış Hesablamalar Palatası, Mərkəzi Xəzinə, digər maliyyə müəssisəsi arasında yaxud **Sigortalının** ofisləri və digər maliyyə müəssisələri arasında mübadilə edilmiş etibarlı sınaq açarını bərkitməklə kommunikasiyanın tərkibindəkiləri yoxlamaq metodlarıdır.

**YUXARIDAKI ŞƏRTLƏRİN 1-DƏN 23-Ə QƏDƏR HƏR HANSI BİRİ BU SIĞORTA SİYASƏTİNDƏ OLDUĞU TƏQDİRDƏ “MÜƏYYƏN EDİLDİYİ KİMİ” İFADƏSİ ADI ÇƏKİLƏN ŞƏRTLƏRİN HƏR BİRİNDƏN DƏRHAL SONRA MƏTNƏ DAXİL EDİLMİŞ HESAB EDİLƏCƏK.**

## III. İSTİSNA HALLAR

Bu Sığorta Müqaviləsinə aşağıdakılar daxil deyil:

1. **Sigortalının** Maliyyə Müəssisəsi Öhdəliyi ilə əhatə olunmuş təhlükələrinin birindən irəli gələn itki.

2. **Sigortalının** müəyyən direktoru yaxud işçisi və ya **Sigortalının** adı çəkilən direktoru yaxud işçisi ilə əlbir olaraq digər ir şəxs tərəfindən yol verilən itki.

   Hər hansı bir işçi tərəfindən **Sigortalının** işçisi olmayan şəxs yaxud şəxslər tərəfindən yalan əməlin törədilməsi yaxud törədiləcəyi haqqında əvvəlcədən məlumata sahib olma bu Sığorta Müqaviləsinin məqsəd və məramı üçün əlbir olmaq və **Sigortalı**dan bu məlumatı qəsdən gizlətmək kimi nəzərə alınacaq. İşçi tərəfindən bu məlumatın hər hansı şəxsə bədən xəsarəti yetirilməsi yaxud **Sigortalının** obyektinə zərər yetirilməsi səbəbindən **Sigortalı**dan qəsdən gizli saxlanılması bu işdə əlbir olma hesab olunmayacaq.

3. Haqq və qazanc payı daxil olmaqla, lakin bununla məhdudlaşmayan potensial gəlirin itkisi.

4. Hər hansı növ dolayı yaxud məntiqi itki.

5. Hər hansı müqaviləyə müvafiq olaraq **Sigortalı** tərəfindən saziş əsasında götürülmüş öhdəlik hətta bu sazişin olmaması zamanı da **Sigortalının** üzərinə düşür.

6. **Sigortalının** üzərinə götürdüyü bütün ödənişlər, xərclər və məxariclər

1. bu Sığorta Müqaviləsinə əsasən itkinın məbləği və mövcudluğunu yaratmaq; yaxud

2. Ümumi Şərtlərin 6-cı bəndində verildiyi kimi istisna olaraq hər hansı mühakimə üsuluna tərəf kimi.

7. Müharibə, işğal, xarici düşmən basqını, döyüş əməliyyatları yaxud müharibəyə bənzər əməliyyatlar (müharibə élan edilib edilməməsindən asılı olaraq) vətəndaş müharibəsi, qiyam, inqilab, üsyan, vətəndaş hərc-mərcliyi, hərbi yaxud işğal gücü, hərbi vəziyyət, iğtişaşla bağlı, birbaşa yaxud dolayısı ilə bunun nəticəsində yaranan hər hansı itki yaxud zərər. Bu Sığorta Müqaviləsinə əsasən HƏR HANSI İDDİADA yaxud əməldə itki və zərər üzrə iddia yaxud iddianı həyata keçirən digər prosesdə bu itkini yaxud zərəri sübut etmə yükü bu Ümumi İstisnanın üzərinə deyil **Sigortalının** üzərinə düşür.

8. Birbaşa yaxud dolayı yolla aşağıdakıların nəticəsində hər hansı əmlakın itkisi yaxud məhv edilməsi və ya zədələnməsi yaxud birbaşa yaxud dolay yolla təbiətin ardıcıl itkisi yaxud hüquqi öhdəliyindən irəli gələn hər hansı itki:

(a) hər hansı nüvə yanacağı yaxud hər hansı nüvə yanacağının daxili yanma qalığından yaranan radiasiyanın ionlaşdırılması yaxud radioaktivlik nəticəsində yoluxması, yaxud

(b) hər hansı partlayıcı nüvə aqreqatının yaxud nüvə komponentinin radioaktiv, zəhərli, partlayıcı yaxud digər zərərli xüsusiyyətləri.

9. Təhlükə nəticəsində itki

(a) kuryer kimi fəaliyyət göstərən hər hansı şəxsin nəzarətində ötürülmədə Elektron Məlumat Hazırlayan Vasitə yaxud Elektron Məlumatın itkisi və belə ötürülməyə **Sigortalının** təhlükə haqqında məlumatı olmadan təşəbbüs edilməsi istisna olmaqla hər hansı şəxsə bədən xəsarəti yetirmək, yaxud

(b) **Sigortalının** obyektləri və əmlakına zərər yetirmək.

10. Poçtla yaxud zirehli avtomobil şirkətindən başqa bir poçt xidməti vasitəsilə daşınan Elektron Məlumat Hazırlayan Vasitə yaxud Elektron Məlumatın itkisi.

11. Ümumi Şərtlərin 11-ci bəndi istisna olmaqla Elektron Məlumat, Elektron Məlumat Hazırlayan Vasitə yaxud Elektron Kompüter Proqramlarının itkisi.

12. Birbaşa yaxud dolayı yolla aşağıdakılardan yaranan itki

(a) yazılı təlimat yaxud məsləhətlər, yaxud

(b) teleqrafik yaxud kabel təlimat yaxud məsləhətlər, yaxud

(c) Sığorta Sazişinin 8-ci bəndi ilə əhatə olunan belə təlimatlar olmayınca telefon üzərindən səsli təlimat yaxud məsləhətlər, yaxud

(d) Sığorta Sazişinin 5, 6 və ya 7-ci bəndi ilə əhatə olunan belə təlimatlar olmayınca faks üzərindən təlimat yaxud məsləhətlər.

13. Elektron Məlumatın hazırlanmasında yaxud məlumat terminalında mənbə sənədləri kimi istifadə edilən saxta, dəyişdirilmiş yaxud yalançı danışıq aktları, qiymətli kağızları, sənədləri yaxud yazılı təlimatlar nəticəsində birbaşa yaxud dolayı yolla meydana gələn itki.

14. Elektron Məlumata çevrilmiş və yalnız dəyişdirilmiş formada olanlar istisna olmaqla danışıq aktları, qiymətli kağızlar yaxud yazılı təlimatların itməsi.

15. Ticarətə dair məxfi məlumat, kompüter proqramları yaxud müştəri haqqında məlumat daxil olmaqla, lakin bununla məhdudlaşmayan hər hansı məxfi məlumata birbaşa yaxud dolayı yolla giriş nəticəsində itki.

16. Mexaniki səhv, yanlış quruluş, dizaynda səhv, gizli qüsur, köhnəlmə, tədricən xarab olma, elektrik rejiminin pozulması, Elektron Məlumat Hazırlayan Vasitənin işləməməsi yaxud proqramlaşdırmada yanlışlıq yaxud səhv istifadə və ya iş prosesi zamanı proqramlaşdırmada səhvlər və buraxılmalar nəticəsində əmələ gələn itkilər.

17. Sığorta Sazişinin 2, 3 və 4-cü bəndi ilə əhatə olmayınca birbaşa yaxud dolayı yolla Elektron Kompüter Proqramlarının yalandan hazırlığı, yalandan dəyişdirilməsi, əvəzlənməsi yaxud məhv edilməsindən irəli gələn itkilər.

18. Elektron Maliyyə Ötürülməsi Sistemi yaxud Müştəri Kommunikasiyası sisteminin icazəli elektron terminalında müştəri yaxud müştərinin müəyyənləşdirmə mexanizminə giriş icazəsi olan digər şəxs tərəfindən Elektron Məlumatın daxil edilməsi nəticəsində itki.

19. Satıcı yaxud məsləhətçilərlə tanışlıq zamanı çoxlu müştərilərə satılan yaxud satış üçün hazırlanan Elektron Kompüter Proqramlarında olan yalançı cəhətlərdən irəli gələn itkilər.

20. Sığorta Sazişinin 4-cü bəndi ilə əhatə olmayınca birbaşa yaxud dolayı yolla hər hansı Kompüter Virusundan əmələ gələn itki.

21. Hər hansı itki

(a) Keçmiş tarixdən əvvəl meydana gəlmiş hər hansı fəaliyyət, sövdələşmə yaxud hadisənin daxil olduğu və Keçmiş tarixdən əvvəl saxlanılmış hər hansı itki, yaxud

(b) Cədvəldə verilmiş Sığorta Müqaviləsi Müddəti tarixinin başlamasından əvvəl aşkarlanmış, yaxud

(c) müvafiq olaraq Sığorta Müqaviləsinin bitməsindən sonra aşkarlanmış, yaxud

(d) əvvəlki **Sigortalıya** xəbərdarlıq edilmiş.

22. Sığorta Sazişinin 1-cü bəndi (c) ilə əhatə olmayınca Birbaşa yaxud dolayı yolla Telefon Vasitəsilə Bank Sistemi nəticəsində əmələ gələn yaxud özəl telefon stansiyası, səsli poçt prosessoru, avtomatlaşdırılmış zəng xidmətçiləri və ya yaxud səsli kommunikasiya şəbəkəsi və ya mobil telefon sistemində telefon zənglərinin marşrutu yaxud istiqamətlənməsi üçün buna bənzər kompüter sisteminin icazəli yaxud icazəsiz istifadəsi nəticəsində yaranan itkilər.

# IV. ÜMUMİ ŞƏRTLƏR

## 1. YOLDAŞLIQ SİYASƏTİ

Elektron və Kompüter vasitəsilə Cinayət Müqaviləsi **Sigortalının** Maliyyə Müəssisəsi Öhdəliyinə şərik Sığorta Müqaviləsi olması üçün tərtib edilmişdir və **Sigortalının** Maliyyə Müəssisəsi Öhdəliyinə əsasən əhatə olunmayan Sığorta Sazişlərində müəyyən edildiyi kimi kompüterlə əlaqədar cinayətlərini sığortalamaq üçün nəzərdə tutulmuşdur. Elektron və Kompüter vasitəsilə Cinayət Müqaviləsini yaradan müəyyən Sığortaçılar **Sigortalının** Maliyyə Müəssisəsi Öhdəliklərini də ilkin sığorta, əlavə sığorta və digər yardımçı sığorta və təkrar sığorta vasitəsilə tərtib edə biləcəyi və həmçinin **Sigortalıya** sığortasını artırmamaq yaxud ikiqat etməmək fikri olduğu üçün razılaşdırılır ki, Bu Sığorta Müqaviləsi artıq yaxud birgə sığorta hesab edilməyəcək.

## 2. NAMİZƏDLƏR

**Sigortalı** tərəfindən öz iş sövdələşmələrini müstəsna olaraq öz məsul şəxslərinə, katiblərinə yaxud digər işçilərinə təhvil verməsi məqsədilə seçilmiş hər hansı namizəd tərəfindən məruz qalınan itki bu Sığorta Müqaviləsinin bütün məqsədləri üçün **Sigortalı** tərəfindən yol verilmiş itki hesab ediləcək.

## 3. ƏLAVƏ OFİSLƏR, BİRLƏŞMƏ, YAXUD SIGORTALI TƏRƏFİNDƏN BAŞQA İŞƏ DAİR SÖVDƏLƏŞMƏ

Sığorta Müqaviləsi Müddəti ərzində **Sigortalı** hər hansı yeni filial yaradarsa yaxud **Sigortalının** kompüter sisteminə birləşmə haqqında məlumatdan savayı bu başqa işin sövdələşməsi yaxud əldə edilməsi ilə bağlı məlumat əlavə edərsə, belə filiallar yaxud **Sigortalının** kompüter sisteminə belə əlavələr Sığortaçılara xəbərdarlıq tələbi olmadan yaxud Sığorta Müqaviləsi Müddətinin qalan hissəsi üçün əlavə mükafat verilmədən avtomatik olaraq onların yaradılma tarixindən sığortalanacaq.

Sığorta Müqaviləsi Müddəti ərzində **Sigortalının** digər biznes əmlakı aldığı, əldə etdiyi yaxud birləşdirdiyi təqdirdə Bu Sığorta Müqaviləsi aşağıdakı itkilər üçün sığorta əməliyyatını həyata keçirməyəcək:

(a) hər hansı ofis və ya obyektlərdə baş verən yaxud baş verə biləcək; yaxud

(b) aktivlər və ya öhdəliklərdə irəli gələn yaxud gələ biləcək və ya digər ifşa edilənlər

**Sigortalı** tərəfindən belə birləşmə, sövdələşmə yaxud əldə edilmə nəticəsində qazanılmış, **Sigortalı** aşağıdakıları etmədiyi təqdirdə:

(i) qüvvəyə minmə tarixindən əvvəl Sığortaçılara belə birləşmə, sövdələşmə yaxud əldə edilmə haqqında yazılı xəbərdarlıq etmək, və

(ii) Sığortaçıları onlara lazım ola biləcək belə informasiya ilə dərhal təmin etmək, və

(iii) Sığortaçıların belə birləşmə, sövdələşmə yaxud əldə edilmə ilə bağlı sığorta müddətini artırmaq haqqında yazılı razılığını almaq, və

(iv) Sığortaçılar tərəfindən belə birləşmə, sövdələşmə yaxud əldə edilmədən sonra tələb olunan sazişin şərtləri və müddəaları haqqında Sığortaçılara yazılı xəbərdarlıq etmək, və

(v) Sığortaçılara əlavə mükafat vermək.

Yuxarıdakı (i) bəndinə müvafiq olaraq Sığortaçılara xəbərdarlıq edə bilməmək yaxud yuxarıdakı (iv) bəndinə uyğun olaraq Sığortaçılara öz sazişi barədə xəbərdarlıq etməmək **Sigortalının** bu sığortanı davam etdirməmə seçimi hesab olunacaq.

Burada tələb olunduğu kimi Sığortaçılara xəbərdarlıq **Sigortalı** tərəfindən yazılı halda yerinə yetirilməyənədək və Sığortaçılar tərəfindən yazılı halda təsdiq olunmayanadək yerinə yetirilmiş hesab olunmayacaq.

## 4. SIGORTALININ NƏZARƏTİNİN DƏYİŞMƏSİ

(a) Ləğv etmə, və s.

**Sigortalının** istər könüllü istərsə də məcburi ləğv olunduğu yaxud Alıcı və ya Menecerin təyin edildiyi halda yaxud kreditorlarla Mübahisəli Məsələlərin Həlli haqqında Razılıq əldə olunduqda yaxud **Sigortalının** nəzarəti hər hansı Hökumət yaxud Hökumət orqanı və ya Təşkilatı tərəfindən təyin edilmiş məsul şəxsləri tərəfindən həyata keçirildikdə, bu zaman Bu

Sığorta Müqaviləsi dərhal aşkarlanmış və Sığortaçılara xəbərdarlıq edilmiş hər hansı sığortanı həyata keçirməyi dayandıracaq.

Yuxarıda deyildiyi kimi **Sigortalının** Təklif Forması və Cədvəlində adı çəkilən hər hansı filialının ləğv edilməsi zamanı bu zaman Bu Sığorta Müqaviləsi bu filialda dərhal aşkarlanmış və Sığortaçılara xəbərdarlıq edilmiş hər hansı sığortanı həyata keçirməyi dayandıracaq.

(b) Aktivlərin Dəyişdirilməsi və ya Səhmlər üzərində Sahibkarlıq

**Sigortalı** Sığortaçılar ilə hər hansı digər biznes müəssisəsi ilə birləşdiyi haqqında yaxud sahibkarlıq yaxud nəzarətdə hər hansı dəyişikliyə səbəb olan aktivlərin yaxud səhmlərin alış-verişi, təyin edilməsi, köçürülməsi, girov qoyulması yaxud satışı ilə bağlı məsləhətləşəcək. bu Ümumi Şərtlərdə verildiyi kimi nəzarət səhm sahibkarlığına səs vermə sayəsində **Sigortalının** şirkəti nəzarətdə saxlama siyasəti yaxud idarəçiliyini müəyyən etmə qüvvəsi mənasında işlənir. Səhmdar yaxud filial şəklində birləşmiş səhmdarların 10 faizinin (10%) yaxud daha çox hissəsinin birbaşa yaxud dolayı sahibkarlıq yolu ilə nəticələnən səhm sahibkarlığına səs verməsində olan dəyişiklik tələb olunan xəbərdarlıq məqsədilə nəzarətin dəyişikliyi kimi güman edilir.

Bu Sığorta Müqaviləsinin davamı olarsa, **Sigortalı:**

(i) bu halın davam etdiyi otuz (30) gün ərzində Sığortaçılara yazılı xəbərdarlıq edəcək, və

(ii) Sığortaçılara lazım ola biləcək bütün informasiyanı dərhal çatdıracaq, və

(iii) Bu Sığorta Müqaviləsində verilmiş sığortanın hamısının yaxud bir qisminin davam etdirilməsi üçün Sığortaçıların yazılı razılığını əldə etmək, və

(iv) on (10) gün ərzində bu sazişin Sığortaçılara bu sazişin şərtlərinə və müddəalarına olan dəyişikliklər haqqında lazım ola biləcək yazılı xəbərdarlıq edəcək, və

(v) Sığortaçılara əlavə sığorta haqqı verəcək.

Yuxarıdakı (b) (i) bəndinə müvafiq olaraq Sığortaçılara xəbərdarlıq edə bilməmək yaxud yuxarıdakı (b) (iv) bəndinə uyğun olaraq Sığortaçılara öz sazişi barədə xəbərdarlıq etməmək **Sigortalının** bu sığortanı davam etdirməmə seçimi hesab olunacaq.

Burada tələb olunduğu kimi Sığortaçılara xəbərdarlıq **Sigortalı** tərəfindən yazılı halda yerinə yetirilməyənədək və Sığortaçılar tərəfindən yazılı halda təsdiq olunmayanadək yerinə yetirilmiş hesab olunmayacaq.

## 5. BİRGƏ SIGORTALI ILƏR

(a) Bu Sığorta Müqaviləsinə əsasən iki yaxud daha çox **Sigortalı** sığortalanırsa, birinci adı çəkilən **Sigortalı** bütün **Sigortalı ilər** üçün fəaliyyət göstərəcək. Sığortaçılar tərəfindən ödəniş birinci adı çəkilən **Sigortalıya** hər hansı **Sigortalı** tərəfindən yol verilən itki Sığortaçıları bu itkidən tam azad edəcək. Əgər birinci adı çəkilən **Sigortalı** bu Sığorta Müqaviləsinə əsasən sığortalanmağı dayandırırsa, növbəti **Sigortalı** birinci adı çəkilən **Sigortalı** hesab olunacaq.

(b) Hər hansı **Sigortalı** tərəfindən yiyələnmiş bilik və ya edilmiş kəşf bu Müqaviləsinin bütün məqsədləri üçün bilik və kəşfləri yaradacaq.

(c) Sığortaçıların bütün **Sigortalı ilər** tərəfindən yol verilmiş bütün itki və itkilər üçün olan öhdəliyi Sığortaçılar üçün olan məbləğdən çox olmayacaq.

(d) Sığortaçılar bir **Sigortalı** tərəfindən digər **Sigortalının** xeyrinə yol verilmiş itkilər üçün üzərinə öhdəlik götürməyəcəklər.

(e) Razılaşdırılır ki, burada verilmiş Sığorta yalnız birinci adı çəkilən **Sigortalı** üçün eksklüziv faydalı olacaq və heç bir halda adı çəkilən **Sigortalı**dan başqa heç kimin bu Sığorta Müqaviləsinə əsasən fəaliyyət hüququ yoxdur.

## 6. MƏHKƏMƏ XƏRCLƏRİ

Sığortaçılar **Sigortalını Sigortalıya** qarşı elan edilmiş hər hansı məhkəmə işi yaxud prosesinin müdafiəsində Sığortaçıların əvvəlcədən yazılı razılığı olmadan yaranmış və **Sigortalı** tərəfindən ödənilmiş müvafiq məhkəmə xərcləri əleyhinə sığortalayacaq, bu Sığorta Müqaviləsinə əsasən bununla əlaqədar törədilmiş əməl və əməllər və ya baş vermiş hadisələrə görə **Sigortalının** bunları geri almaq hüququnu bərpa edəcək. Hər hansı məhkəmə işi yaxud prosesinin müdafiəsində Sığortaçılar ödənilmiş məhkəmə xərcləri Ümumi Şərtlərin 8-ci bəndinə əsasən Sığortanın Yekun Məhdudiyyətinin və tətbiq olunan Sığorta Müddəası üçün yarım məhdudiyyətinin azaldılması şərtilə tətbiq ediləcək.

Yuxarıdakı halla bağlı **Sigortalı** hər hansı məhkəmə işi yaxud prosesinin başlaması haqqında Sığortaçılara dərhal məlumat verəcək və Sığortaçıların tələbi ilə onları bütün ərizələrin və digər sənədlərin nüsxələri ilə təmin edəcək.

Əgər əməlin çoxsaylı səbəbləri hər hansı məhkəmə işi yaxud prosesində təsdiqlənibsə və **Sigortalı** əleyhinə müəyyən edilibsə, bu Sığorta Müqaviləsinə əsasən və cəzalandırıcı, ardıcıl yaxud digər qeyri- güzəştli zərərlər üçün məhdudiyyətsiz iddialar daxil olmaqla bu alınmış itki olduğunu təyin etməyəcək və o zaman **Sigortalı** bu cür təsdiqlənmiş səbəblərin müdafiəsində sığortalanmış xərclərini təsdiqləyəcək.

Bu Sığorta Müqaviləsinə əsasən **Sigortalının** itkisinin məbləği bərpa oluna bilən məbləğdən çoxdursa yaxud Azadolma tətbiq edilə bilərsə, bu Ümumi Şərtin birinci bəndinə əsasən Sığortaçıların öhdəliyi bu Sığorta Müqaviləsinə əsasən baş verən məhkəmə xərclərinin nisbəti ilə məhdudlaşır və bu məbləğin yekunu və üstəgəl bərpa edilə bilinməyən məbləği təsdiqləyir. Belə proporsional bölünmüş məbləğ Sığortanın Yekun Məhdudiyyətinin və tətbiq olunan Sığorta Müddəası üçün yarım məhdudiyyətinin azaldılması şərtilə tətbiq ediləcək.

Hər hansı məhkəmə işi yaxud prosesində yekun qərar çıxmayınca Sığortaçılar **Sigortalını** hər hansı məhkəmə xərcləri əleyhinə sığortalamaq üçün məsuliyyət daşımayacaqlar.

Ola bilsin ki, Sığortaçılara bu Ümumi Şərtlərin birinci bəndində istinad edilən məhkəmə işi yaxud prosesinin müdafiəsini aparmaq tapşırılmayıb. Sığortaçıların seçimi ilə **Sigortalı** Sığortaçılara **Sigortalı** adından Sığortaçıların seçimi ilə hüquqi nümayəndələr vasitəsilə məhkəmə işi yaxud prosesinin müdafiəsini aparmağa icazə verəcək. **Sigortalı** Sığortaçıları məhkəmə işi yaxud prosesinin müdafiəsi üçün vacib hesab ediləcək bütün məlumat və yardımla təmin edəcək.

Sığortaçılar tərəfindən məhkəmə işi yaxud prosesinin müdafiəsində ödənilmiş bütün məhkəmə xərcləri Sığortanın Yekun Məhdudiyyətinin və tətbiq olunan Sığorta Müddəası üçün yarım məhdudiyyətinin azaldılması şərtilə tətbiq ediləcək.

Müdafiə etmək üçün seçilmiş Sığortaçılar məhkəmə xərclərinin öz hesabından ödəyirsə bu zaman **Sigortalı** bu xərclərə görə Sığortaçılara dərhal əvəzini ödəyəcəklər.

**Sigortalı** məhkəmə işi yaxud prosesinin Sığortaçılar tərəfindən həll edilməsi üçün əsassız şəkildə razılıq verməyəcək.

## 7. XƏBƏRDARLIQ VƏ İTKİNİN AŞKARLANMASI

Bu Sığorta Müqaviləsinə əsasən sığortalamaq hüququna ilkin şərt kimi mümkün olduğu ən tez zamanda və **Sigortalı** tərəfindən hər hansı itki aşkarlandıqdan sonra otuz (30) gün ərzində **Sigortalı** bu barədə Sığortaçılara yazılı xəbərdarlıq verəcək.

Bu Sığorta Müqaviləsinin məqsədləri üçün **Sigortalının** bu haqda ilk xəbər tutması vaxtında baş verməsi nəzərdə tutulan aşkarlanmalar ağıllı insanın belə itkiyə səbəb olacaq yaxud yardım edəcək işlərin, sövdələşmələrin və hadisələrin baş verməsindən və **Sigortalının** bu itkilərin bu Siyasətin şərt və müddəalarına uyğun olub olmamasını sübut etməyə kifayət qədər

biliyi olub olmamasından asılı olmayaraq və hətta itkinin məbləği haqqında ətraflı məlumat olmamasına baxmayaraq Bu Sığorta Müqaviləsi ilə sığortalanmış cür itkinin baş verməsinə yaxud baş verəcəyinə inanmasına səbəb olacaq.

Aşkarlanmanın həmçinin **Sigortalının** həqiqi və ya potensial iddia aldığı zaman da baş verməsi nəzərdə tutulur, bu iddiada təsdiq edilir ki, **Sigortalı** Bu Sığorta Müqaviləsi ilə Sığortalı itki növü üçün təyin edilən hallarda, hətta itkinin məbləği haqqında ətraflı məlumat olmamasına baxmayaraq üçüncü tərəf qarşısında məsuliyyət daşıyır.

İşçi olub olmamasından asılı olmayaraq yaxud belə şəxsin bura cəlb edilməsi və ya bir şəxsin buraxılması faktının göstərən və **Sigortalı** tərəfindən aşkarlanan bütün itki yaxud itkilər bir itki kimi nəzərə alınacaq.

## 8. KOMPENSASİYANIN HƏCMİ

(a) Bu Sığorta Müqaviləsinin Cədvəlinin 3-cü bəndində verilmiş Sığorta Müqaviləsi Müddəti ərzində aşkarlanmış bütün itki yaxud itkilər üçün Sığortaçıların ümumi öhdəliyi və məhkəmə xərcləri daxil olmaqla belə itki və itkilərin yekun məbləğindən asılı olmayaraq bu Sığorta Müqaviləsinin Cədvəlinin 7-ci bəndində verilmiş Sığortanın Yekun Məbləği ilə məhdudlaşır. Tətbiq edilə bilən hər hansı Sığorta Müddəasının yarım məhdudiyyəti Sığortanın Yekun Məbləğinin bir hissəsi və əlavəsidir və məhkəmə xərcləri daxil olmaqla yarım məhdudiyyəti ilə Sığorta Müddəasına aid bütün itkilər üçün Sığortaçıların tam öhdəliyi belə itki yaxud itkilərin yekun məbləğindən asılı olmayaraq yarım məhdudiyyət məbləği ilə məhdudlaşır.

Sığortanın Yekun Məbləği bu Sığorta Müqaviləsinə əsasən edilmiş ödənişin məbləği ilə azalacaq. Belə ödənişlərlə Sığortanın Yekun Məbləğin qurtarmasından sonra Sığortaçıların gələcəkdə belə bir öhdəliyi olmayacaq.

(i) bu Sığorta Müqaviləsinin hər hansı Sığorta Müddəasına (ları) əsasən **Sigortalını** hər hansı itki yaxud itkilər üçün sığortalamaq, və

(ii) **Sigortalını** hər hansı məhkəmə xərcləri üçün sığortalamaq, və

(iii) Sığortaçıların məhkəmə işi və prosesinin müdafiəsini aparmaq üçün Sığortaçılar seçildiyi halda **Sigortalının** müdafiəsini davam etdirmək. Sığortanın Yekun Məbləğin qurtardıqdan sonra Sığortaçılar tərəfindən **Sigortalıya** xəbərdarlıqdan sonra **Sigortalı** müdafiə üçün bütün məsuliyyəti öz üzərinə öz hesabına götürəcək.

(b) Sığortanın Yekun Məbləğinin azalmasından əlavə olaraq Cədvəlin 7-ci bəndində verilmiş hər hansı tətbiq edilən Sığorta Müddəasının (ları) yarım məhdudiyyəti adı çəkilən Sığorta Müddəası (ları) ilə bağlı hər hansı ödənişin məbləği ilə azaldılacaq. Belə ödənişlərlə adı çəkilən Sığorta Müddəasının (ları) yarım məhdudiyyəti qurtardıqdan sonra Sığortaçıların gələcəkdə heç bir öhdəliyi olmayacaq:

(i) bu Sığorta Müqaviləsinin hər hansı Sığorta Müddəasına (ları) əsasən **Sigortalını** hər hansı itki yaxud itkilər üçün sığortalamaq, və

(ii) Adı çəkilən Sığorta Müddəası (ları) ilə bağlı adı çəkilən itki yaxud itkilərlə əlaqədar baş vermiş bütün hər hansı məhkəmə xərclərindən **Sigortalını** sığortalamaq,

(iii) Sığortaçıların məhkəmə işi və prosesinin müdafiəsini aparmaq üçün Sığortaçılar seçildiyi halda **Sigortalının** müdafiəsini davam etdirmək. Sığortanın Yekun Məbləğin qurtardıqdan sonra Sığortaçılar tərəfindən **Sigortalıya** xəbərdarlıqdan sonra **Sigortalı** müdafiə üçün bütün məsuliyyəti öz üzərinə öz hesabına götürəcək.

Bu Sığorta Müqaviləsinə əsasən edilmiş ödəniş nəticəsində bu Sığorta Müqaviləsinin Cədvəlinin 7-ci bəndində verilmiş Sığortanın yarım məhdudiyyətində verilmiş məbləğdən daha az məbləğədək azalır, sonra hər hansı belə yarım məhdudiyyətin məbləği müvafiq olaraq azaldılacaq ki, məhkəmə xərcləri də daxil olmaqla, hər hansı itki yaxud itkilər üçün hər hansı yarım məhdudiyyətin məbləği Sığortanın Yekun Məbləğinə əsasən yerdə qalan mümkün azalmış məbləğdən çox olmasın.

Sığortanın Yekun Məbləği və hər hansı yarım məhdudiyyət bundan sonra on iki (12) təqvim ayı ərzində və ya Cədvəlin 3-cü Bəndində verilmiş müddətdə Sığortaçılar tərəfindən belə bərpa həqiqətən alınmayınca bu Sığorta Müqaviləsinə əsasən edilmiş ödənişdən sonra gələn hər hansı bərpa ilə tam və ya qismən şəkildə bərpa edilməyəcək.

Əgər itki birdən çox Sığorta Müddəasına əsasən sığortalanarsa, bu itkiyə görə ödənilə biləcək maksimum məbləğ hər hansı bir tətbiq oluna bilən Sığorta Müddəasına əsasən yerdə qalan mümkün ən böyük məbləğdən çox olmayacaq.

(c) İtmiş Qiymətli Kağızlar: Qiymətli kağızın itməsi zamanı Ümumi Şərtlərin 11 (d) (??) bəndinə uyğun olaraq itmiş qiymətli kağız müqaviləsi yaxud sığorta sazişi vasitəsilə nizamlanır, Sığorta Müqaviləsi Müddəti ərzində belə itki olduqda Sığortaçılar adı çəkilən itmiş qiymətli kağızlara yaxud sığorta müqaviləsinə əsasən ödəniş etmək üçün çağırılmırlar və hər hansı itki yaxud itkilərin ödənişi üçün Sığortanın Yekun Məbləği yaxud hər hansı yarım məhdudiyyəti azaltmayacaq. Buna

baxmayaraq itmiş qiymətli kağızlara yaxud sığorta müqaviləsinə əsasən hər hansı itki yaxud itkilər üçün Sığortaçılar tərəfindən hər hansı ödəniş bu Siyasətə əsasən olan ödəniş hesab ediləcək.

Sığortanın Yekun Məbləği yaxud hər hansı yarım məhdudiyyətin başa çatması yaxud azalması Sığortanın Yekun Məbləği yaxud hər hansı yarım məhdudiyyətin başa çatması yaxud azalmasından əvvəl verilmiş itmiş qiymətli kağızlara yaxud sığorta müqaviləsi ilə bağlı Sığortaçıların öhdəliklərinə təsir etməyəcək.

## 9. ZƏRƏRİN SÜBUTU

Zərərin aşkar edilməsindən sonra altı ay müddətində **Sigortalı Sigortalının** baş maliyyə direktoru tərəfindən bütün təfərrüatları ilə birlikdə lazımi şəkildə təsdiq edilmiş zərərin sübutunu **Sigortalıya** yazılı şəkildə təqdim etməlidir. Sübut üçün məsuliyyət belə itkinin mövcud iqtisadi şəraitdən deyil, birbaşa sığortalanmış təhlükədən irəli gəldiyini ilə bağlı iddianın sübutunun hazırlanması **Sigortalının** öhdəsinə düşür.

## 10. ZƏRƏRİN BƏRPA EDİLMƏSİ ÜÇÜN HÜQUQİ PROSEDURLAR

Sığorta şirkəti öz təftişini tamamladıqdan sonra **Sigortalının** bu Sığorta Müqaviləsinin müddəti, şərtləri və digər bəndləri ilə ödənilməsini tələb etdiyi zərəri ödəməzsə, Sığorta şirkəti **Sigortalının** istəyi ilə Birləşmiş Krallığın müvafiq yurisdiksiyası üzrə səlahiyyətli məhkəməsinə məlumat verəcəkdir.

Belə hüquqi prosedurlarda xidmət müddəti Sığorta şirkətinin adından Xidmət Prosesini qəbul etmək üçün lazımi şəkildə səlahiyyətləndirilmiş müəyyən edilmiş şəxs(lər)-dən asılı olacaq. İstənilən hər hansı bir **Sigortalının** əleyhinə təsis edilmiş belə hüquqi prosedurlarda, digər Sığorta şirkətləri dərhal sonra müraciət etdikləri təqdirdə belə Məhkəmə və ya Apelyasiya məhkəməsi ilə yekun mühakimə olunacaqlar.

Ümumi Şərtlərin 9-cu bəndində göstərildiyi kimi, zərərin bərpa edilməsi üçün hüquqi prosedurlar **Sigortalının** zərərin aşkar edilməsindən sonrakı 2 ilin tamamlanmasından sonra deyil, zərərin sübutunu təqdim etdikdən sonrakı altı ay müddətinə kimi həyata keçiriləcək.

Haqqında danışılan iki illik müddət bu Müqaviləsinin strukturunu tənzimləyən hər hansı bir qanunla məhdudlaşdırılarsa, belə məhdud etmələrin dəyişdirilməsi nəzərdə tutulacaq ki, minimum məhdud etmə müddətinə malik olsun və qanunla icazə verilsin.

## 11. QİYMƏTLƏNDİRMƏNİN ƏSASI

(a) Hesablama

Bu Sığorta Müqaviləsi daxilində istənilən zərər üçün alınmışların miqdarını müəyyən etmək üçün hər hansı bir mənbədən əldə edilmiş bütün pullar bildirilmiş zərərin yaranma səbəbinin nə olmasından asılı olmayaraq, vəkalət verənin ödəniş və qəbzləri, maraqları, dividentləri, komisyon mükafatı və s. daxil olmaqla, əldə olunduğu zaman faktiki ödənişdən, ilkin ödənişdən məbləğdən çıxılacaq, avans ödəniləcək, götürüləcək və əks halda itəcək. İstənilən mənbədən əldə edilmiş bütün mülkiyyətlərin dəyəri bildirilmiş zərərin yaranma səbəbi ilə əlaqəli olaraq əldə edilən kimi **Sigortalının** bildirilmiş zərərindən eyni qaydada çıxılacaq.

(b) Maliyyə vəsaitləri

İddia irəli sürüləcək zərər üçün istənilən xarici maliyyə vəsaiti və ya valyutaların dəyəri zərərin aşkar edildiyi tarixdən öncə son iş günü bağlanmaqda olan bazar qiymətləri ilə müəyyən ediləcək. Belə bir gündə bazar qiyməti və ya dəyəri mövcud olmazsa, o zaman dəyər Sığorta edənlə **Sigortalı** arasındakı razılığa əsasən və ya standart yol olan arbitraj yolu ilə müəyyən ediləcək.

(c) Azadolma

Əgər Bu Sığorta Müqaviləsi Azadolma yaxud Cədvəlin 7-ci bəndindəki Sığortanın Yekun Məbləği ilə yol verilirsə, hər hansı itki yaxud itkilərin ödənişi üçün yerdə qalan məbləğ **Sigortalının** burada iddia olunan qiymətli kağızların itməsinə qarşı tam sığortalamaq üçün kifayət məbləğdə deyil, bu Sığorta Müqaviləsinin tətbiq oluna bilən Sığorta Müddəasına əsasən Sığortaçıların öhdəliyi belə qiymətli kağızların ödənişi yaxud belə qiymətli kağızların dublikatı ilə məhdudlaşır.

(d) İtmiş Qiymətli Kağızlar

Bu Sığorta Müqaviləsinə əsasən qiymətli kağızların itməsi ilə bağlı iddia olduqda **Sigortalı** aşağıda verilmiş şərtlərlə ilk olaraq onun tərəfindən verilmiş sığorta məktubundan istifadə edərək itmiş qiymətli kağızları qaytarıb yerinə qoymağa cəhd edəcək. Verilmiş sığorta məktubundan istifadə edərək itmiş qiymətli kağızları qaytarıb yerinə qoymaq mümkün olmadıqda Sığortaçıların əvvəlcədən yazılı razılığı əsasında **Sigortalı** qiymətli kağızların dublikatının verilməsinə nail olmaqla itmiş qiymətli kağız öhləyini yerinə yetirəcək.

(e) Elektron Məlumat Hazırlayan Vasitə

**Sigortalı** tərəfindən biznesində istifadə etdiyi Elektron Məlumat Hazırlama Vasitəsinin itməsi yaxud zədələnməsi zamanı bu Sığorta Müqaviləsinə əsasən Sığortaçılar məsuliyyət daşıyacaq, yalnız belə vasitələr başqa Elektron Məlumat Hazırlama Vasitəsi tərəfindən həqiqətən yenidən eyni cür və eyni keyfiyyətli şəkildə istehsal edilirsə və onda təmiz vasitə və üstəgəl **Sigortalı** tərəfindən təmin ediləcək həmin məlumatın bu Elektron Məlumat Hazırlama Vasitəsinin yenidən hazırlanması üçün köçürülməsi yaxud nüsxəsinin çıxarılması üçün sərf olunan əmək haqqı əlavə olunacaq.

(f) Digər Əmlak

Xarici valyuta, qiymətli kağızlar yaxud Elektron Məlumat Hazırlama Vasitədən başqa digər əmlakın itməsi. zədələnməsi zamanı Sığortaçılar bu əmlakın həqiqi nağd dəyərindən daha çox məbləğ ödəmək üçün məsuliyyət daşımayacaqlar. Sığortaçılar öz seçimləri ilə belə əmlakın nağd dəyərini ödəyə, onu yenisi ilə əvəz edə yaxud dəyişdirə bilər. Sığortaçılar və **Sigortalı** arasında əmlakın nağd dəyərinin ödənilməsi, onu yenisi ilə əvəz edilməsi yaxud dəyişdirilməsi haqqında narazılıqlar arbitraj yolu ilə həll olunacaq .

(g) Elektron Məlumat/Elektron Kompüter Proqramları

Elektron Məlumat və ya Elektron Kompüter Proqramlarının itməsi zamanı Sığortaçılar bu Sığorta Müqaviləsinə əsasən məsuliyyət daşıyacaqlar və yalnız bu Elektron Məlumat və ya Elektron Kompüter Proqramları başqa Elektron Məlumat və ya Elektron Kompüter Proqramları tərəfindən həqiqətən yenidən eyni cür və eyni keyfiyyətli şəkildə istehsal edilirsə və onda təmiz vasitə və üstəgəl **Sigortalı** tərəfindən təmin ediləcək həmin məlumatın bu Elektron Məlumat Hazırlama Vasitəsinin yenidən hazırlanması üçün köçürülməsi yaxud nüsxəsinin çıxarılması üçün sərf olunan əmək haqqı əlavə olunacaq.

Amma bu Elektron Məlumat yenidən hazırlana bilmirsə və adı çəkilən Elektron Məlumatda özündə qiymətli kağızlar yaxud Borc Sənədləri daxil olmaqla dəyərli olan maliyyə vasitələri əks olunursa, onda itki bu bölmənin Qiymətli Kağızlar və Digər Əmlak bəndlərində göstərilmiş kimi dəyərləndiriləcək.

## 12. ƏMƏKDAŞLIQ

Bu sığorta Müqaviləsinə əsasən hüquq üçün ilkin şərtlər kimi **Sigortalı** Sığortaçılar və onların təyin edilmiş nümayəndələri ilə burada xəbərdarlıq edilmiş hər hansı itki ilə bağlı tam əməkdaşlıq etməlidir. **Sigortalı** Sığortaçıların tələbi ilə dəfələrlə yerlərdə onun mühasiblərinin audit yoxlamaları daxil olmaqla bütün uyğun qeydlərin yoxlanılması prosesini təmin etmiş və hər hansı İşçisi yaxud digər şəxslərin müsahibəsini təşkil etmişdir. **Sigortalı** bütün sənədləri icra etməyə və bütün hüquqların, müəllif hüquqları, maraq və səbəblərin qorunmasında lazımi yardım göstərməyə razılaşır.

## 13. SUBROQASİYA, XİLAS ETMƏ VƏ BƏRPA

Razılaşdırılır ki, hər hansı itki üçün ödəniş edildikdən sonra Sığortaçılar belə itkinin olması ilə əlaqədar bütün hüquqları, başlıqları, maraq və səbəbləri əvəzləyəcəklər.

Hər hansı itkinin ödənişindən sonra bərpa olunduqda, bu bərpanın edilməsi üçün ödənilmiş məbləğ çıxıldıqdan sonra bərpa olunmuş məbləğ **Sigortalının** öz əməyi və düzəltmə xərci istisna olmaqla aşağıdakı qaydada tətbiq ediləcək:

(a) bu Sığorta Müqaviləsinə əsasən ödənilmiş itkinin məbləğindən çox olan məbləğin tam yaxud qismən ödənilməsi (tətbiq edilə bilən hər hansı Azadolma məbləği istisna olmaqla).

(b) bu Sığorta Müqaviləsinə əsasən ödənilmiş itkinin məbləğinin heç bir hissəsi itki məbləğindən çox deyilsə əgər varsa balans, yaxud tam xalis bərpa haqqının Sığortaçılara ödənilməsi.

(c) ən sonda Cədvəldə verilmiş Azadolma nəticəsində **Sigortalı** tərəfindən yol verilmiş itkinin bir hissəsi və/yaxud bu Sığorta Müqaviləsinin artıq olduğu Sığortanın hər hansı müqaviləsi (ləri) ilə Sığortalı bu itki hissəsinə.

## 14. BAŞQA SIĞORTA YAXUD KOMPENSASİYA

Razılaşdırılır ki, bu Sığorta Müqaviləsində itki halı yarandıqda o digər sığorta yaxud kompensasiya ilə itkini sığortaladığı üçün yalnız bu cür digər sığorta və təzminat məbləğinin artıqlığı üçün olan iddialara görə ödəniş edəcək (Sığortanın Yekun Məbləğ yaxud hər hansı tətbiq olunan yarım Məhdudiyyətdən çox olmayan). Eksedent sığorta kimi Bu Sığorta Müqaviləsi digər belə sığorta yaxud təzminatın müddətinin bitməsinədək hər hansı itkinin ödənişinə tətbiq edilməyəcək və yardım etməyəcək.

## 15. SAHİBKARLIQ

Bu Sığorta Müqaviləsi Sığortaçının sahib olduğu və hüquqi cəhətdən məsuliyyət daşıdığı Elektron Məlumat və Elektron Məlumat Hazırlama Vasitəsinin itməsi yaxud əmlak itkisi zamanı tətbiq ediləcək. Bu Sığorta Müqaviləsi Cədvəldə adı verilmiş **Sigortalının** tək istifadəsi və xeyri üçün təmin ediləcək.

## 16. AZADOLMA / AZADOLMADA İTKİ HAQQINDA XƏBƏRDARLIQ

Sığortaçılar yalnız Cədvəldə 8-ci bənddə verilmiş Azadolmanın arıq olduğu zaman məsuliyyət daşıyacaq. Azadolma Sığorta Müqaviləsi Müddəti ərzində belə itkilərin sayından asılı olmayaraq hər bir itki üçün tətbiq ediləcək

**Sigortalı** bu Sığorta Müqaviləsində verildiyi zaman və bu Sığorta Müqaviləsinin şərtlərinin əhatə etdiyi hər hansı sığorta itkisi barədə Sığortaçılara onların buna görə məsuliyyət daşıyıb daşımamasından asılı olmayaraq xəbərdarlıq edəcək və Sığortaçıların tələbindən sonra bu itkiyə dair təfsilatları qısa şəkildə sənədləşdirəcək.

## 17. MÜDDƏALARIN BAŞA ÇATMASI

Bu Sığorta Müqaviləsi qazanılmamış sığorta haqqını verməklə yaxud verməməklə başa çatacaq

(a) aşağıdakılardan sonra dərhal

  (i) Ümumi Şərtlərin 4-cü (a) bəndində verildiyi kimi **Sigortalının** nəzarətində dəyişikliklə bağlı hər hansı hadisə baş verməsi,

  (ii) Ümumi Şərtlərin 4-cü (b) bəndində verildiyi kimi **Sigortalının** aktivlərdəki dəyişiklik və səhm sahibkarlığı ilə bağlı xəbərdarlıq edə bilməməsi

  (iii) Ümumi Şərtlərin 4-cü (b) bəndində verildiyi kimi Sığortaçılar tərəfindən sahibkarlıq və ya nəzarət məsələlərində dəyişiklikdən sonra sığorta fəaliyyətindən imtina etməsi.

(b) Ümumi Şərtlərin 4-cü (b) bəndində verildiyi kimi **Sigortalının** hər hansı filialında sahibkarlıq və ya nəzarət məsələlərində dəyişikliklə bağlı hadisə baş verdikdən dərhal sonra.

(c) **Sigortalının** Sığortaçılar tərəfindən onların bu Sığorta Müqaviləsinini sona çatdırmaq haqqında qərarı barədə yazılı xəbərdarlıq almasından sonra otuz (30) gün müddətində. Əvvəlcədən sifariş edilmiş poçt vasitəsilə göndərilibsə və **Sigortalının** Təklif Formasında verilmiş Əsas Ünvanına ünvanlanıbsa, bu xəbərdarlıq göndərilən kimi alınmış hesab olunacaq.

(d) Sığortaçıların Sığorta olunan tərəfindən bu Sığorta Müqaviləsinini sona çatdırmaq haqqında qərarı barədə göndərilmiş yazılı xəbərdarlığı almasından dərhal sonra.

(e) Cədvəlin 3-cü bəndində göstərilmiş son tarixdə Əsas Ünvanda standart vaxtla günorta vaxtı.

Əgər Ümumi Şərtlərin (a) yaxud (e) bəndlərinə müvafiq şəkildə sona çatdırılırsa Sığortaçılar İllik Mükafatın qısa müddətə hesablanmış faiz dərəcəsi ilə, amma Ümumi Şərtlərin (d) bəndinə müvafiq olaraq Sığortaçılar tərəfindən sona çatdırılırsa İllik Mükafatı proporsional şəkildə hər hansı qazanılmamış mükafatı geri qaytaracaq.

Bu Sığorta Müqaviləsi Sığortanın Yekun Məbləğinin qurtarmasından dərhal sonra itki üçün bir və ya daha çox ödənişlə başa çatacaq və bu zaman mükafat taz qazanılacaq.

Bu Sığorta Müqaviləsi hər hansı Xidmət Bürosu ilə əlaqədar sona çatacaq:

(a) hər hansı **Sigortalı**, yaxud direktor və ya məsul şəxs belə bir şəxslə əlbir olaraq Xidmət Bürosunun hər hansı əməkdaşı, direktoru və ya məsul şəxsi, yaxud işçisi tərəfindən **Sigortalı** yaxud digər şəxsə qarşı əmlaka zərər vermədən törədilmiş vicdansız yaxud dələduzluq əməlini istənilən vaxt öyrənərsə, yaxud

(b) **Sigortalı** tərəfindən Sığortaçıların bu şəxsə görə bu Sığorta Müqaviləsinini ləğv etmək yaxud dayandırmaq barədə yazılı qərarını aldıqdan sonra on beş (15) gün ərzində.

Belə ləğv etmənin qüvvədə olduğu tarixdən sonra aşkarlanan və bu **Sigortalı** tərəfindən hər hansı itki üçün məsuliyyəti üzərindən götürdüyü üçün bu Sığorta Müqaviləsinin ləğv edilməsi.

## 18. XİDMƏT BÜROSU YAXUD MÜŞTƏRİYƏ QARŞI İDDİA

Bu Sığorta Müqaviləsi yuxarıda deyildiyi kimi hər hansı Xidmət Bürosu yaxud müştərinin xeyrinə sığorta etmir və Sığortaçılar tərəfindən **Sigortalıya** bu Xidmət Bürosunun əməkdaşları, direktorları, məsul şəxsləri yaxud işçiləri və ya müştəri tərəfindən törədilmiş və itki ilə nəticələnən hər hansı vicdansız və dələduz əmələ ödəniş etdikdən sonra təkbaşına yaxud başqaları ilə əlbir olub etməsindən asılı olmayaraq bu **Sigortalının** hüquqlarının təyin edilməsi və əməlin səbəbləri Xidmət Bürosu yaxud müştəri əleyhinə olduğu üçün törədilmiş belə əməllərin nəticəsində belə ödəniş **Sigortalı** tərəfindən Sığortaçılara yaxud Sığortaçılar tərəfindən təyin edilmiş Sığortaçıların birinə veriləcək və **Sigortalı** Sığortaçılara yaxud Sığortaçılar tərəfindən təyin edilmiş Sığortaçıları təmin etmək üçün bütün sənədləri icra edəcək.

## 19. DƏLƏDUZLUQ

Məbləğ yaxud digər məsələ ilə bağlı **Sigortalı** yalan yaxud saxta olduğunn bilə-bilə hər hansı iddia qaldırırsa Bu Sığorta Müqaviləsi qanuni olmayacaq və bütün iddialar müsadirə olunacaq.

## 20. İZAHAT

Bu Sığorta Müqaviləsinin şərtlərinin, istisnalarının, məhdudiyyətlərinin strukturu, izahı və mənası Azərbaycanın ümumi qanununa və bu müqavilədə olan İngilis tekstə müvafiq olaraq müəyyənləşdiriləcək.

# MALİYYƏ TƏSİSATLARININ VƏ KORPORASİYALARIN RİSKLƏRİNİN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ TƏMİNATLAR

## DİREKTORLAR VƏ MƏSUL ŞƏXSLƏRİN MƏSULİYYƏT SIĞORTASI

Sığorta haqqının ödənilməsi və təqdim edilməsini nəzərə alaraq, sığortaçı və sığorta müqaviləsi sahibi aşağıdakı kimi razılaşırlar.

**1. Sığorta Təminatı**

Aşağıdakı sığorta haqları yalnız sığorta müqaviləsi müddətində **Sigortalının** əleyhinə qaldırılmış və bu sığorta müqaviləsində tələb edildiyi kimi sığortaçıya bildirilmiş iddialar üçün verilir.

1.1 **İdarəetmə Məsuliyyəti**

(i) **Fərdlər**

*Sığortaçı* hər **Sigorta olunanın** hər hansı qeyri-qanuni əmələ görə itkisinin qarşılığını ödəyəcək.

(ii) ***Kənar təşkilat direktorları***

*Sığortaçı* hər hansı *qeyri-qanuni əmələ* görə *kənar* ***təşkilatın*** *direktoruna* yaranmış *itkiyə* görə pul ödəyəcək.

(iii) **Şirkətin haqqının ödənilməsi**

Əgər şirkət ***Sigorta olunanın*** hər hansı *qeyri-qanuni əməlinə* görə yaranmış *itkinin* qarşılığını ödəyirsə, *sığortaçı bu itkiyə* görə şirkətə həmin *məbləği ödəyir.*

1.2 ***Qeyri-icraçı direktorlar üçün xüsusi eksedent limit***

*Sığortaçı* aşağıdakı hallarda hər hansı-*qeyri-qanuni əmələ* görə hər bir *qeyri-icraçı direktor üçün qeyri-icraçı direktor üçün xüsusi eksedent limit* həcmində *kompensasiya olunmayan itki* üçün ödəniş edəcək: (i) məsuliyyət limiti; (ii) bu sığorta müqaviləsinin məsuliyyət limitindən artıq xüsusi yazılmış bütün digər müvafiq sığorta yaxud əks təqdirdə; və (iii) hər hansı qeyri-icraçı direktora mümkün olan itki üçün bütün digər sığorta haqları tam istifadə olunmalıdır.

**2. Tətbiqlər**

2.1 **Aşkarlanma**

(i)**İkitərəfli *aşkarlanma müddəti***

Əgər bu sığorta müqaviləsi yenilənməyibsə yaxud oxşar sığorta müqaviləsi ilə əvəzlənməyibsə, sığorta müqaviləsi sahibi cədvəldə göstərilən müvafiq əlavə sığorta haqqının ödənilməsindən 30 gün sonra bu hüququ olacaq.

(ii) ***Təqaüdə çıxmış sığortalanmış şəxslər*** **üçün *aşkarlanma müddəti***

Əgər bu sığorta müqaviləsi yenilənməyibsə yaxud oxşar sığorta müqaviləsi ilə əvəzlənməyibsə, təqaüdə çıxmış sığortalanmış şəxslər heç bir əlavə sığorta haqqı olmadan *altı illik aşkarlanma müddəti* hüququ vardır.

2.2 **Yeni *filiallar***

Əgər *sığorta müqaviləsi sahibi sığorta müqaviləsi müddətində* öz *filiallarından* bir yaxud bir neçəsinin vasitəsilə aşağıdakıları əldə edirsə:

(i)Direktorlar şurasının tərkibinə nəzarət edir; yaxud

(ii) Səhmdarların yarıdan çoxunun səsvermədə iştirak hüququna nəzarət edir; yaxud

(iii) Yaxud verilmiş səhmlərin yarıdan çoxuna sahib olur.

Bu zaman *filial* termini Amerika Birləşmiş Ştatları, onun ərazisi və mülklərində təsis olunan və qeydiyyatdan keçən və əvvəldə sığorta müqaviləsi sahibinin yekun birləşmiş aktivlərinin 10%-dən daha çox olan aktivlərin ümumi məbləğindən çoxuna sahib olan korporasiyanı əhatə etmək üçün tətbiq ediləcək.

Bütün digər hallarda sığorta müqaviləsi sahibi belə korporasiya üçün bu sığorta müqaviləsinin tətbiqini tələb edə bilər; bir şərtlə ki, sığorta müqaviləsi sahibi sığortaçının potensial artımını qiymətləndirmək üçün sığortaçıya kifayət qədər detallar versin. Sığortaçının

sığorta müqaviləsi müddətində sığorta müqaviləsi şərtlərinə dəyişiklik etməyə hüququ olacaq, bura müvafiq əlavə sığorta haqqı təyin etmək hüququ da daxildir.

2.3 **Fövqəladə xərclər**

Əgər Fövqəladə hala görə *sığortaçının* yazılı razılığı hər hansı *iddia* ilə əlaqədar yaranmış *müdafiə xərclərindən* əvvəl alına bilməzsə, *sığortaçı məsuliyyət limitinin* cəmi 10% həcmində *müdafiə xərcləri* üçün keçmiş təsdiqi verəcək.

2.4 **Əlavə *tənzimləyici böhran çağırışı***

Tədqiqat xərclərindən başqa, sığortaçı məsuliyyət limitinin bir hissəsi kimi iddia yaxud tədqiqat dəqiqliyi ilə uyğun olmayan kritik tənzimləyici hadisəyə cavab olaraq tənzimləyici cavab komandası vasitəsilə baş vermiş normativ böhrana cavab tədbirləri xərcləri üçün ödəniş edəcək.

2.5 **Şərtləri yumşaldılması və xidmətlərin ləğv edilməsi**

Sığorta müqaviləsi sahibinin seçimindən sonra sığortaçı sığorta müqaviləsi müddətində cədvəlin 10-cu Maddəsində göstərilmiş şərtlərin yumşaldılması və xidmətlərin ləğv edilməsi üçün tənzimləyici cavab komandasını hazır etmişdir.

2.6 **Aktivlər və imtiyaz xərcləri**

(i)***Məhkəmə təqibi xərcləri***

Qanunun icazə verdiyi hallarda sığorta müqaviləsi müddətində sığortaçı sığorta müqaviləsi müddətində çıxarılmış məhkəmə qərarının ləğv edilməsi yaxud yerinə yetirilməsinə nail olmaq üçün hər bir **Sigorta olunanın** məhkəmə təqibi xərclərini ödəyəcək:

a) belə ***Sigorta olunanın*** şəxsi aktivlərinin yaxud sahibkarlıq hüququnun dondurulması yaxud dayandırılması, sahibkarlığın mənimsənilməsi və nəzarət, müsadirəsi*;*

b) bu ***Sigorta olunanın*** şəxsi aktivlərinin yaxud daşınmaz əmlakı üzərində qiymət*;*

c) bu **Sigorta olunanın** müvəqqəti yaxud daimi vəzifə tutması yaxud direktor və ya məsul şəxs qismində çalışmasına qadağa qoyulması;

d) bu **Sigortalı olunanların** xüsusi yaşayış yeri və rəsmi saxlanılma imtiyazlarının məhdudlaşdırılması;

e) bu **Sigorta olunanın** cinayət hökmündən başqa bir səbəb üçün düzgün, cari və etibarlı immiqrasiya statusunun verilməsi; yaxud

f) bu ***Sigorta olunanın*** ekstradisiyası.

(ii) ***Girov öhdəliyi və mülki öhdəlik üzrə xərclər***

*Sığortaçı sığorta müqaviləsi* müddətində bu *sığorta müqaviləsinin sığorta haqqına* əsasən birbaşa *sığortalanmış iddia* ilə əlaqədar hər bir ***Sigorta olunanın*** *girov öhdəliyi və mülki öhdəlik xərclərini* ödəyəcək.

**3. İzahlar**

Bu sığorta müqaviləsində aşağıdakı kursivlə sözlərin aşağıdakı mənaları vardır:

3.1 ***Girov öhdəliyi və mülki öhdəlik üzrə xərclər***

Hər hansı *qeyri-qanuni əməl* üçün məhkəmə iclası tərəfindən tələb olunan göstərilmiş məbləğ üçün ***Sigorta olunanın*** mümkün öhdəliyini 12 aya qədər girov yaxud digər maliyyə sənədinə zəmanət vermək üçün müvafiq sığorta haqqı (amma əlavə deyil)

3.2 ***İddia***

(i)göstərilmiş *qeyri- qanuni əmələ* görə kompensasiya və ya digər hüquqi vasitə axtaran arbitraj prosesi və ya yazılı tələb yaxud mülki, cinayət, tənzimləyici proseslər*;*

(ii) Sığorta olunanlara gəldikdə - istintaq.

3.3 ***Şirkət***

*Sığorta müqaviləsi sahibi* yaxud hər hansı *filial.*

3.4 ***Razılaşdırılmış iddia***

Hər hansı **Sigorta olunanın** könüllü (hüquqi cəhətdən tələb olunandan daha yaxşı) müdaxiləsi, yardımı yaxud iştirakı əleyhinə qaldırılmış iddia. Əgər aşağıdakılardan birinin əleyhinə olarsa hər hansı şirkət tərəfindən iddia razılaşdırımış iddia hesab ediləcək: (i) digər *şirkət*; yaxud (ii) *iddianın* irəli sürüldüyü zaman ***Sigorta olunan*** qismində çalışan hər hansı ***Sigorta olunan***. Bu fərziyyələr səhmdar törəmə iddialarına tətbiq edilməyəcək.

3.5 ***Ardıcıllıq tarixi***

Müvafiq tarix cədvəldə göstərilmişdir

3.6 ***Kritik tənzimləyici hadisə***

(i) sığorta müqaviləsi müddətində hər hansı rəsmi tənzimləyici tərəfindən hər hansı *şirkətə* reyd və ya yerindəcə səfər və bu rəsmi şəxsin *sığortalanmış şəxslərin* sənədləri yaxud müsahibələrinin hazırlanması, yenidən baxılması, nüsxəsinin çıxarılması və ya müsadirə edilməsi*;*

(ii) yuxarıda verilənlə bağlı ictimaiyyətə elan edilmə; yaxud

(iii) sığorta müqaviləsi müddətində hər hansı **Sigorta olunanın** hər hansı rəsmi tənzimləyicidən **Sigortalını** həmin tənzimləyici ilə müsahibələrdə iştirak etməyə və suallara cavab verməyə və ya sənədləri hazırlamağa məcbur edən rəsmi xəbərdarlıq alması.

3.7 ***Müdafiə xərcləri***

*Sığortaçının* ilkin yazılı razılığı ilə **Sigorta olunan** tərəfindən yaxud onun adından iddia hazırlandıqdan sonra birbaşa onun tədqiqatı, müdafiəsi, həlli yaxud apelyasiyası ilə bağlı meydana gəlmiş müvafiq xərclər və məsrəflər (hansı ki, həddən artıq gecikdirilməyəcək və tutulmayacaq), ancaq bura hər hansı **Sigorta olunanın** mükafatı, hər hansı şirkətin vaxtının qiyməti yaxud əlavə xərcləri daxil olmayacaq.

*Müdafiə xərclərinə* sığortalanmış *iddianın* müdafiəsi ilə bağlı dəlilin qiymətləndirməsi, hesabatı, diaqnozu yaxud təkzibini hazırlamaq üçün **Sigortalı** adından sığortaçı tərəfindən təsdiq edilmiş müdafiəçi vasitəsilə təyin edilmiş ekspertin müvafiq ödənişlər, xərclər və məsrəflər daxildir.

3.8 ***Direktor* yaxud *məsul şəxs***

*Şirkətin* hər hansı fiziki şəxs direktoru yaxud məsul şəxsi.

3.9 ***Aşkarlanma müddəti***

Sığorta müqaviləsi müddəti bitməzdən əvvəl baş vermiş qeyri-qanuni əmələ görə sığorta müqaviləsi müddətində sığortaçıya irəli sürülmüş iddia haqqında yazılı xəbərdarlığın verildiyi sığorta müqaviləsi müddəti başa çatdıqdan dərhal sonrakı müddət, bir şərtlə ki, sığortaçı tərəfindən tələb olunan hər hansı müvafiq əlavə sığorta haqqı *sığorta müqaviləsi müddəti* bitdikdən sonra 30 gün ərzində ödənilsin.

3.10 ***Fövqəladə xərclər***

*2.3 Fövqəladə Xərclər tətbiqinə müvafiq olaraq baş vermiş Müdafiə Xərcləri.*

3.11 ***İş təcrübəsinin pozulması***

(a) hər hansı faktiki yaxud təsdiqlənmiş ədalətsiz və ya səhvən işdən çıxarılma, faktiki yaxud konstruktiv işə götürmənin həyata keçirilməsi yaxud başa çatması, bura nəzərdə tutulan müqavilənin pozulması, işlə bağlı böhtan, şəxsi həyata müdaxilə yaxud yanlışlıq; işə götürmə yaxud vəzifəcə yüksəltmədə yanlışlıq;

karyera imkanlarından yanlış məhrum edilmə, yaxud yanlış nizam-intizam; düzgün iş tövsiyələrinin olmaması; sahibkarlıq hüququnun verilməməsi; laqeyd işçi qiymətləndirilməsi; hər cür seksual yaxud iş yeri və ya irqi və yaxud əlillik narahatlıq (narahat edən iş yeri mühitinin yaradılması daxil olmaqla); birbaşa yaxud dolayı yolla qəsdən yaxud qəsdən edilməmiş qeyri- qanuni ayrıseçkilik; müvafiq işçi sığorta müqavilələri və prosedurlarını təmin edə bilməmə; ödəniş (lokaut daxil olmaqla); və (b) əmək/iş münasibətlərində tətbiq olunan yerli qanunlar, qanuni aktlar və əsasnamələrə uyğun olaraq iddia üçün hər hansı digər əsas; bir şərtlə ki, yuxarıda adı çəkilən akt, xəta yaxud buraxılma və ya əsas hər hansı şirkətin hər hansı keçmiş, indiki, gələcək yaxud gözlənilən işçisinin işə götürülməsi ilə bağlı olsun.

3.12 ***Sigortalı***

Hər hansı **Sigorta olunan**

3.13 ***Sigorta olunan***

Sığorta müqaviləsi müddətində aşağıdakılardan biri olan hər hansı fiziki şəxs:

(i) direktor yaxud məsul şəxs, lakin kənar auditor deyil, yaxud şirkətin müflislik halında əvəz edici şəxsi;
(ii) *şirkətin* işçisi:
a) həmin *şirkətdə* idarəetmə yaxud nəzarətçi qismində çalışan;

b) *iş təcrübəsi pozulmasını* təsdiqləyən iddia ilə bağlı; yaxud

c) şirkətin *direktoru* yaxud məsul şəxsi ilə ortaq müqəssiri adlanan iddiada belə işçinin *qeyri-qanuni əməlin* törədilməsində iştirak etməsi yaxud yardım etdiyinin təsdiq edilməsi;

(iii) kənar ***təşkilatın*** direktoru*;*

(iv) belə ***Sigorta olunanın*** *qeyri-qanuni əməli* üçün irəli sürülən iddiadan qaynaqlanan itki üçün ***Sigorta olunanın*** bacarıqsız yaxud müflis yaxud ölən həyat yoldaşı*;* və

(v) belə ***Sigorta olunanın*** *qeyri-qanuni əməli* üçün irəli sürülən iddiadan qaynaqlanan itki üçün ölmüş ***Sigorta olunanın*** *inzibatçısı yaxud icraçısı.*

3.14 ***Sığortaçı***

Cədvəldə adı siyahıda verilmiş şirkət deməkdir.

3.15 ***Tədqiqat***

hər hansı ***Sigorta olunan*** tərəfindən mümkün pis davranışına dair hər hansı *rəsmi şəxs* tərəfindən hər hansı rəsmi məhkəmə iclası, tədqiqat yaxud sorğu, nə zaman ki, hər hansı ***Sigorta olunan***: (i) hüquqi cəhətdən iştirak etməyə məcbur olur; yaxud (ii) məhkəmə iclası, tədqiqat yaxud sorğu hədəfi kimi tədqiqat orqanı tərəfindən yazılı müəyyənləşdirilir. ***Sigorta olunan*** ilk dəfə belə məcbur ediləndə yaxud müəyyənləşdirildikdə tədqiqat ilk hazırlanmış hesab olunacaq. *Tədqiqatlar* şirkətə yönəlmiş yaxud **Sigorta olunan**dan daha çox istehsala yönəlmiş hər hansı daxili tədqiqat və ya tədqiqatlar, yoxlama yaxud razılıq təhlili, şablon tənzimləyici nəzarət mənasında işlənməyəcək.

3.16 ***Tədqiqat xərcləri***

Tədqiqatı hazırlamaq yaxud orda iştirak etməklə bağlı ***Sigorta olunan*** tərəfindən yaxud adından *sığortaçının* yazılı razılığı ilə baş verən, Cədvəlin 4-cü Maddəsində (ii) verilmiş sub Limitlərə kimi müvafiq ödənişlər, xərclər və məsrəflər (hər hansı ***Sigorta olunanın*** mükafatı, onların zamanının dəyəri yaxud hər hansı şirkətin əlavə xərcləri).

3.17 ***Məhkəmə hökmü***

(i) müvəqqəti yaxud ilkin məhkəmə hökmü; və ya

(ii) hər hansı **Sigorta olunanın**, hə hansı məhkəmə hökmünün deportasiyası yaxud ekstradisiyası ilə bağlı hər hansı mühakimə;

Bu sığorta müqaviləsinin hər hansı sığorta haqqına əsasən Sığortalı belə sığorta olunmuş şəxsə qarşı qaldırılmış iddia ilə əlaqədar **Sigorta olunana** qarşı məhkəmə hökmü**.** *Məhkəmə hökmünə* bu iddianın qaldırılması və elan edilməsində verilmiş yekun qərar daxil olmayacaq.

3.18 ***Məsuliyyət Limiti***

məbləğ cədvəldə verilmişdir.

3.19 ***İtki***

Hər hansı qeyri-qanuni əmələ görə **Sigortalı** əleyhinə iddia ilə nəticələnən hüquqi cəhətdən məsul olan **Sigorta olunanın** *müdafiə xərcləri, tədqiqat xərcləri,* zərərin kompensasiya olunması haqqında məhkəmə qərarı (cəza və cərimə itkiləri daxil olmaqla).
*İtkiyə* həmçinin hər hansı tətbiqə əsasən *sığortaçı* tərəfindən edilmiş ödənişlər daxildir, aşağıdakılar da daxil olmaqla: tətbiq 2.3 - *Fövqəladə Xərclər*; tətbiq 2.4 – *Normativ Böhrana Cavab üçün Xərclər*; tətbiq 2.6 – *Məhkəmə təqibi Xərcləri, Girov Öhdəliyi və Mülki Öhdəlik Xərclər.*

*İtkiyə* cərimələr yaxud vergilər, mükafatlar yaxud işlə bağlı müavinətlər, çox zərərlərin artırılmış hissəsi yaxud sığorta edilə bilməyən məbləğlər daxildir.

3.20 ***Qeyri- icraçı direktor***

Sığorta müqaviləsinin başlandığı gün sığorta müqaviləsi sahibinin direktoru qismində çalışan hər hansı fiziki şəxs:

(i) hər hansı *şirkətin* məsul şəxsi yaxud işçisi kimi çalışmayıb və çalışmır; və

(ii) *direktor* vəzifəsindən başqa hər hansı məsləhətçi qismində göstərdiyi xidmətə görə hər hansı şirkətdən birbaşa yaxud dolayı yolla heç bir kompensasiya almayıb və almır.

*Qeyri- icraçı direktor* da həmçinin sığorta müqaviləsi müddətində sığorta müqaviləsi sahibinin direktoru kimi xidmət göstərməyə başlayan hər hansı fiziki şəxs və

Yuxarıdakı (i) və (ii) təmin edən şəxslər.

3.21 ***Kompensasiya olunmayan itki***

*Qanunverici qadağa* yaxud ictimaiyyətə elan edilmiş və ya hazırlanmış müflisliyə görə şirkətin sığorta edə bilmədiyi *sığortalanmış şəxsinin itkisi.*

3.22 ***Rəsmi Orqan***

Hər hansı tənzimləyici, hökumət orqanı, hökumət təşkilatı yaxud rəsmi ticarət orqanı.

3.23 ***Rəsmi saxlanılma***

belə sığortalanmış şəxsə qarşı qaldırılmış iddia ilə əlaqədar hökumət yaxud məhkəmə orqanı adından yaxud tərəfindən idarə olunan zəmanət verilmiş mühafizə binalarında ***Sigorta olunanın*** həbsdə saxlanılması.

3.24 ***Kənar təşkilat***

a) filial; yaxud

b) korporasiya,
yuxarıda verilənlərdən başqa hər hansı korporasiya, hansı ki:

(i)Amerika Birləşmiş Ştatlarında fond birjalarında və bazarlarda siyahıda olan qiymətli kağızları olan, orda yerləşən və hüquqi şəxs kimi qeydiyyatdan keçən; Birləşmiş Ştatlar Qiymətli Kağızlar üzrə Komissiyası və Valyuta Komissiyası ilə qeydiyyatdan keçmiş hər hansı qeydiyyat bildirişi üçün hüquqi cəhətdən tələb olunan qiymətli kağızları var, yaxud Fond Birjasının 1934-cü il tarixli Aktının 13-cü Bölməsinə uyğun olaraq Qiymətli Kağızlar üzrə Komissiyası ilə məlumatları qeydiyyatdan keçirmək üçün hər hansı öhdəlik;

(ii) qiymətli kağızların birgə sərmayəsi üçün bank, hesablama palatası, kredit müəssisəsi, investisiya firması, investisiya məşvərətçisi/meneceri, investisiya fondu yaxud qarşılıqlı fond, fərdi səhmlər yaxud riskli kapital şirkəti, dəllal firması, sığorta şirkəti yaxud buna bənzər müəssisə; yaxud

(iii) bu sığorta müqaviləsinin başlandığı tarixdə mənfi təmiz aktivləri var idi;
*kənar obyekt* kimi bu sığorta müqaviləsinin indossamentində siyahıya alınanadək.

3.25 ***Kənar təşkilat direktoru***

Sığorta müqaviləsi müddəti ərzində şirkətin xüsusi tələbi ilə *kənar obyektdən* gələn direktor, məsul şəxs, qəyyum, rəis yaxud buna bənzər vəzifədə çalışmış və ya çalışan fiziki şəxs.

3.26 ***Hər bir qeyri- icraçı direktorun xüsusi eksedent limiti***

məbləğ Cədvəldə göstərilib.

3.27 ***Sığorta müqaviləsi sahibi***

təşkilat Cədvəldə göstərilmişdir.

3.28 ***Sığorta müqaviləsi müddəti***

başlama vaxtından qurtarma vaxtına qədər olan müddət cədvəldə göstərimişdir.

3.29 ***Çirkləndirici***

hər hansı bərk, maye, qaz, bioloji, radioloji yaxud termal qıcıqlandırıcı, zəhərli yaxud təhlükəli maddə, yaxud asbest, daşqın, tüstü, buxar, toz, fibra, kif, spor, göbələk, mikrob, his, buğ, turşu, qələvi, kimyəvi məmulatlar və tullantı kimi çirkləndirici maddələr .

Belə tullantılara yenidən istehsal, bərpa yaxud yenidən düzəldiləsi materiallar və nüvə materialları daxildir, lakin bununla məhdudlaşmır.

3.30 ***Məhkəmə təqibi xərcləri***

Mühakimə üsulu üçün *sığortaçının* əvvəlcədən yazılı razılığı ilə yaranan hüquqi müvafiq vəkil haqqı, xərcləri və məsrəfləri.

3.31 ***Normativ böhrana cavab tədbirləri üçün xərclər***

*Kritik tənzimləyici hadisəyə* cavab olaraq tənzimləyici *çağırış komandasının* müvafiq xərcləri, ödənişləri və məsrəfləri.

3.32 ***Normativ cavab komandası***

cədvəlin 10 (a) Maddəsində göstərlmiş hər hansı şəxs yaxud obyekt.

3.33 ***Tutulma***

məbləğ cədvəldə göstərilmişdir.

3.34 ***Təqaüdə çıxmış sığortalanmış şəxs***

Sığorta müqaviləsi müddətinin bitməsindən əvvəl həmin şirkətdən təqaüdə çıxan və sığortalanmış şəxs qismində çalışmayan hər hansı *direktor,* məsul şəxs *yaxud işçi.*

3.35 ***Zəmanət***

Şirkətdə borc və səhmdar iştirakını təmsil edən hər hansı zəmanət.

3.36 ***Təqdimat***

Hər hansı şirkətin sığortaçıya təqdim edilmiş hər bir imzalanmış təklif forması, bildirişlər, zəmanətlər, təqdimatlar və onlara əlavələr; tənzimləyici ilə sənədləşdirilmiş maliyyə sənədləri və bütün digər informasiya.

3.37 ***Filial***

Sığorta müqaviləsi sahibi birbaşa yaxud dolayı yolla bir yaxud bir neçə obyektdə aşağıdakıları edirsə:

Direktorlar şurasının tərkibinə nəzarət edir;
əhmdarların yarıdan çoxunun səsvermədə iştirak hüququna nəzarət edir;

Yaxud verilmiş səhmlərin yarıdan çoxuna sahib olur.

Bu sığorta müqaviləsinin başladığı gün yaxud ondan əvvəl.

3.38 ***Sövdələşmə***

Aşağıdakı halların hər hansı biri:

(i)sığorta müqaviləsi sahibi öz aktivlərinin çox hissəsini yaxud hamısını birləşdirir və ya hər hansı digər şəxsə yaxud müəssisəyə və ya birlikdə fəaliyyət göstərən bir qrup şəxsə yaxud müəssisələrə satır; yaxud

(ii) digər şəxs yaxud şəxslərlə birlikdə yaxud müəssisə və müəssisələrlə fəaliyyət göstərən hər hansı şəxs yaxud müəssisənin sığorta müqaviləsinin ümumi iclasında səs vermək hüquqlarının 50%-dən çoxunu tətbiq etmək yaxud sığorta müqaviləsi sahibinin direktorlar şurasının iclaslarında səslərin çoxunu tətbiq edə bilən direktorların təyin edilməsinə nəzarət etmək hüququ vardır.

3.39 ***Qeyri-qanuni əməl***

**Sigorta olunanın** izahında siyahıda olan hər hansı qisimdə **Sigorta olunan** tərəfindən hər hansı faktiki yaxud təsdiq edilmiş əməl, xəta yaxud yanlış hərəkət; yaxud bu siyahıya alınmış qisim ucbatından **Sigorta olunan**a qarşı qaldırılımış hər hansı iddia

**4. İstisnalar**

Sığortaçı hər hansı tətbiq yaxud hər hansı iddia ilə bağlı ödəniş etmək üçün məsuliyyət daşımayacaq:

4.1 **Davranış**

Aşağıdakılardan qaynaqlanan, onlara əsaslanan və xas olan:

(i)**Sigortalının** hüquqi cəhətdən hüququ olmadığı imtiyaz yaxud xeyrin əldə edilməsini təmin etmək üçün nəzərdə tutulmuş qeyri-qanuni əməl; yaxud

(ii) qəsdən törədilmiş, razılaşdırılmış yaxud yol verilmiş:

a) Vicdansızlıq yaxud dələduzluq; yaxud

b) qanunun yaxud qaydaların cinayət pozulması;

yuxarıdakılardan hər hansı birinin hüquqi yaxud arbitraj tribunasının yekun məhkəmə hökmü ilə təsis edildiyi halda **Sigortalı** tərəfindən qəbul yaxud tənzimləyicinin yazılı qərarı.

4.2 **Xəsarət və əmlaka ziyan**

Bədənə xəsarət, xəstəlik, ölüm yaxud emosional həyəcan yaxud hər hansı əmlakın xarab olması, məhv edilməsi, əmlakdan istifadə zamanı xətər yetirilmə yaxud itirilməsi nəticəsində dəyən ziyan; bir şərtlə ki, emosional həyəcan üçün hər hansı iddia *iş təcrübəsinin pozulması* ilə əlaqədar istisna edilməyəcək.

4.3 **Əsas iddialar və hallar**

Aşağıdakılardan qaynaqlanan, ona əsaslanan və ona xas olan:

(i)məlumat verilmiş yaxud yeni yaxud əvəzlənən sığorta müqaviləsinə əsasən verilmiş vəziyyət haqqında xəbərdarlıqda hər hansı iddiada təsdiq olunan yaxud göstərilən təsdiq edilmiş faktlar yaxud əlaqədar *qeyri- qanuni əməl(lər)*; yaxud

(ii) ardıcıl tarixdən başlayaraq hər hansı gözlənilən yaxud ilkin məhkəmə prosesi, yaxud eynisi ilə təsdiqlənən yaxud ondan törəyən və ya gözlənilən yaxud ilkin məhkəmə prosesində təsdiqlənmiş kimi göstərilən eyni faktlar. Bu istisna hal üçün "məhkəmə prosesi" termininə hər hansı mülki yaxud cinayət prosesi, həmçinin hər hansı inzibati və ya tənzimləyici proses yaxud rəsmi tədqiqat və ya arbitraj yaxud hökm daxil olacaq, lakin bununla məhdudlaşmır.

4.4 **Çirkləndirmə**

Çirkələndirici maddələrlə bağlı sənədlərin faktiki, təsdiqlənmiş yaxud hədələnmə yolu ilə yerinə yetirilməsi, yayılması, buraxılması yaxud çıxarılmasından yaranan, ona aid olan; yaxud çirkləndirici maddələri yoxlamaq, nəzarət etmək, təmizləmək, aradan qaldırmaq, saxlamaq, emal etmək, neytrallaşdırmaq üçün hər hansı tələb; bir şərtlə ki, bu istisna hal aşağıdakılara tətbiq olunmasın:

(i)*sığortalana bilməyən xərclərə* daxil olan *müdafiə xərcləri;* yaxud

(ii) şirkətin səhmdarı tərəfindən ***Sigorta olunan****ə* qarşı hər hansı *iddia, Sığortalı şəxs* tərəfindən vəzifə pozğunluğu nəticəsində birbaşa yaxud dolayı yolla o şirkətə yaxud onun səhmdarlarına zərər verdiyi təsdiqlənən.

4.5 **Qəyyumlar**

Şirkətin təqaüd, gəlirdə iştirak yaxud şirkətin işçilərə ödəniş proqramının, o cümlədən 1974-cü il tarixli İşçilərin Təqaüd Təminatı haqqında Qanun (ABŞ) yaxud 1995-ci il tarixli Pensiya Aktı (BK) yaxud hər hansı dövlətin, ərazinin, ədalət yaxud siyasi şöbənin qanununun buna bənzər hansı müddəalarının öhdəliklərinin, vəzifələrinin yaxud məsuliyyətinin faktiki yaxud təsdiqlənmiş pozulması daxil olmaqla ümumi yaxud qanunla müəyyən edilmiş, qəyyumu, varisi yaxud inzibatçısı kimi ***Sigorta olunan*** tərəfindən hər hansı əməl yaxud xətadan yaranan, ona xas olan

4.6 ***Razılaşdırılmış iddialar***

(i)hər hansı *razılaşdırılmış iddiadan* qaynaqlanan, ona əsaslanan yaxud ona aid; yaxud

(ii) Amerika Birləşmiş Ştatları, onun ştatları, əraziləri yaxud mülklərində yaxud aşağıdakılardan hər hansı birinin tərəfindən yaxud adından istənilən qanunlar əsasında hər hansı **Sigortalı** əleyhinə qaldırılmış iddialar:

a) *şirkət*;
b) hər hansı *şəxsin icraçı* qismində çalışmış olduğu yaxud çalışdığı *kənar obyekt*; yaxud
c) bu *şirkətin* yaxud *kənar obyektin* ***Sigorta olunan**i*;

hər hansı **Sigorta olunan**ə qarşı hər hansı iddia istisna olmaqla:
(1) şirkət adından təmin edilən yaxud həyata keçirilən səhmdar törəmə fəaliyyəti kimi nəzərdə tutulan, lakin hər hansı direktor, məsul şəxs yaxud hər hansı şirkətin könüllü müdaxiləsi, yardımı yaxud aktiv iştirakı (qanuni tələb olunandan daha çox);
(2) hər hansı ***Sigorta olunan*** tərəfindən yol verilmiş *işçi təcrübəsi pozulması* üçün;
(3) əgər iddia bu sığorta müqaviləsinə əsasən sığortalanmış digər bir iddiadan irəli gəlirsə, bu yardım və ya sığorta üçün ***Sigorta olunan*** tərəfindən nəzərdə tutulub;
(4) şirkətin hər hansı keçmiş direktoru, məsul şəxsi yaxud işçisi təqib edilmiş; yaxud
(5) *şirkət* adından birbaşa yaxud dolayı yolla hər hansı *şirkətin* inzibatçısı, təsviyəçisi, qəyyumunun müflislik halında davam etdirilmə;

Hüquqi yaxud arbitraj tribunasının yekun məhkəmə hökmü ilə təsis edildiyi halda **Sigortalı** tərəfindən qəbul edilən yaxud tənzimləyicinin yazılı qərarı ilə iddianın razılaşdırılmış iddia olduğu sübut olunmayınca bu istisna hal hər hansı sığorta olunmuş şəxsin müdafiə xərclərinə tətbiq edilməyəcək.

## 5. Ümumi Müddəalar

### 5.1 *Aşkarlanma müddəti*

*Sığorta müqaviləsi sahibi sığorta müqaviləsi* qurtardıqdan sonra ən gec 15 gün ərzində yazılı şəkildə *aşkarlanma müddətini* tələb etməlidir. Aşkarlanma müddəti ləğv edilə bilməz.

Baxmayaraq ki, sövdələşmə baş tutduqda bu sığorta müqaviləsi sığorta müqaviləsi sahibinə aşkarlanma müddətində heç bir hüquq vermir; sığorta müqaviləsi sahibinin yazılı tələbindən sonra, sığortaçı təkrar aşkarlanma müddətinə istinad edə bilər. Bu xahişi nəzərə alaraq, sığortaçının aşkarlanmanı tam öz üzərinə götürməyə və sığortaçının müvafiq saydığı şərtlər və məhdudiyyətlər çərçivəsində bu təklifi tətbiq etmək hüququ olacaq.

### 5.2 Hissələrə bölünmə və etibar

4.1 istisnanın tətbiq olub-olunmadığını müəyyən etmək məqdəsilə, hər hansı *Sığortalı* adamın davranışı, əldə etdiyi məlumat və ya biliklər hər hansı başqa *Sığortalı* insana aid edilməyəcək; və yalnız şirkətin hər hansı keçmiş, indiki və ya gələcək baş icraçı direktora, baş əməliyyat direktoruna, baş maliyyə rəhbərinə və ya baş hüquqi mütəxəssisə (və ya ekvivalent vəzifəli şəxslərə) məxsus məlumat və bilik həmin *şirkətə* aid ediləcək.

*Təqdim edilmə* ilə əlaqədar, hər hansı Sığortalı şəxsə məxsus bilik və ya elədiyi bəyannamələr hər hansı başqa *sığortalana* aid edilməyəcək ki, həmin başqa *sığortalanmış* şəxsə qarşı hər hansı iddian qarşısında ödənişin edilib-edilməyəcəyi müəyyən edilsin.

Hər *qeyri-icraçı direktora görə xüsusi qalıq həddi* – 1.2 sığorta bəndinə əsasən hər qeyri-icraçı direktora *sığortaçının* öhdəliklərindən toplanaraq yaranan ayrıca həddir, hansı ki *öhdəlik həddinin* hissəsi deyil, əlavəsidir. *Sığortalıların* sayından və ya sığorta müqaviləsinin müddəti və ya aşkarlama müddəti ərzində edilmiş iddiaların sayından asılı olmayaraq (Əlaqədar iddia, tək iddia başlıqlı 5.9 bəndinin ümumi müddəasına əsasən sığorta müqaviləsi müddəti ərzində edilmiş iddialar və ya əlaqədar iddialar daxil olmaqla), *sığortaçı* bu hədləri aşan öhdəlik daşımayacaq.

Sığorta müqaviləsində irəli sürülmüş öhdəliyin hər alt-həddi – sığortaçının bu müqavilə çərçivəsində sığortanın tətbiq olunduğu hər hansı *itkiyə* görə ödəyəcəyi maksimal toplanmış məbləğdir.

Bu müqavilə çərçivəsində *sığortaçının* ödəyəcəyi hər hansı məbləğ *öhdəliyin həddi* (və ya hər *qeyri-icraçı direktora görə xüsusi qalıq həddi*) çərçivəsində sığortaçının *itkiyə* görə öhdəliyini tədricən azaldacaq.

### 5.3 *Məsuliyyət limiti*

Məsuliyyət limitinə bütün sığorta haqları və tətbiqlərinə dair sığortaçının bütün məsuliyyəti daxildir, lakin sığorta haqqı 1.2 istisna haldır.

### 5.4 *Tutulma*

Tutulma *kompensasiya edilə bilməyən itkilərə* aid edilmir. Hər hansı şirkətin itkisinə görə, və ya hər hansı şirkətin kompensasiya etdiyi və etməyə razı olduğu itkiyə görə, sığortaçı yalnız tutulma məbləğindən artıq olan hissəyə görə cavabdeh olacaq. Tutulma sığortaçının itkiyə görə öhdəliyinin bir hissəsi deyil. Tutulma şirkətlərin öhdəsinə düşür və sığortalanmır. Tək *tutulma* davam edən, təkrarlanan və ya əlaqədar *səhv hərəkətlərə* əsaslanan, aid edilən və ya onlardan yaranan hər hansı *iddiaya* və ya *iddialar toplusuna* görə yaranmış bütün *itkilərə* tətbiq olunur.

Əgər sığortaçı tutulmanın tətbiq olunduğu itkiyə görə avans ödəyərsə, *sığortaçı Sığortalılara* avans olaraq ödənilmiş *itki* barədə xəbər verən kimi, *Sığortalılar* dərhal sığortaçıya həmin məbləği qaytaracaq.

5.5 ***İrəli sürülmüş və məlumat verilmiş iddialar***

Bu sığorta müqaviləsi çərçivəsində sığorta məbləği aşağıdakı şərtlərdə ödənilir: əgər Sığortalıa qarşı iddia ilk olaraq sığorta müqaviləsi müddəti və ya tətbiq olunan aşkarlama müddəti ərzində edilmişdir (və ya 5.9 ümumi müddəasına əsasən edilmiş kimi qəbul edilirsə) və əgər bu cür iddialar barədə sığortaçı mümkün qədər tez məlumatlandırılmışdırsa, lakin, istənilən halda aşağıdakı halların ən tezində:

(i) sığorta müqaviləsi müddəti və ya aşkarlama müddəti ərzində*;* və ya

(ii) sığorta müqaviləsi müddəti və ya aşkarlama müddətinin sonundan 30 gün ərzində, o şərtlə ki, bu cür iddia ilk öncə Sığortalıa qarşı sığorta müqaviləsi müddəti və ya aşkarlama müddəti (əgər varsa) ərzində irəli sürülsün.

5.6 ***Kritik tənzimləyici hadisələr***

Hər hansı kritik tənzimləyici hadisədən normativ böhrana cavab tədbirləri üçün sığorta haqqına ilkin şərt kimi kritik tənzimləyici hadisə haqqında mümkün olduğu qədər tez bir zamanda sığortaçıya məlumat verilməlidir.

5.7 ***İddia xəbərdarlığı***

İddialar və vəziyyət haqqında bütün xəbərdarlıqlar cədvəldə göstərilmiş ünvana yazılı halda göndərilməlidir.

5.8 **Vəziyyət barədə xəbərin verilməsi**

Hər Sığortalı, sığorta müqaviləsinin müddəti ərzində, iddiaya səbəb ola bilən hər hansı vəziyyət barədə sığortaçıya yuxarıda ünvana xəbər (bildiriş) göndərə bilər. Bildirişdə həmin iddianın gözləndiyinin səbəbləri və tarixlər, hərəkətlər və ya əlaqədar şəxslər daxil olmaqla bütün detallar qeyd olunmalıdır.

5.9 **Əlaqədar *iddia*, tək *iddia***

Sığorta müqaviləsinin müddəti (və ya tətbiq olunan aşkarlama müddəti) bitəndən sonra irəli sürülmüş hər hansı iddia, hansı ki aşağıdakı iddiaların bəyan etdiyi hər hansı faktdan və ya səhv hərəkətdən irəli gəlir, əsaslanır:

(i) ilk öncə sığorta müqaviləsinin müddəti (və ya tətbiq olunan aşkarlama müddəti) ərzində irəli sürülmüş və ya

(ii) iddiaya səbəb ola bilən hər hansı vəziyyət, hansı ki bu sığorta müqaviləsinin tələblərinə uyğun olaraq sığortaçıya bildirilmişdir,

sığortaçı tərəfindən aşağıdakı kimi qəbul ediləcək: iddianın irəli sürüldüyü tarix qismində iddianın və ya ona səbəb olmuş vəziyyət barədə bildirişin tarixi qəbul olunacaq.

Həmçinin, davam edən, təkrarlanan və ya əlaqədar *səhv hərəkətlərə* əsaslanan, aid edilən və ya onlardan yaranan hər hansı *iddiaya* və ya *iddialar toplusu* tək iddia hesab ediləcək.

5.10 ***İddiaların* müdafiəsi və həll edilməsi**

Hər bir ***Sigortalı*** onun əleyhinə qaldırılmış *iddiaya* qarşı müdafiə oluna yaxud mübarizə apara bilər. *Sığortaçı* belə müdafiədə və *sığortaçının* cəlb olunduğu hər hansı həll edilmə danışıqlarında tam iştirak etmək hüququna malikdir.

*Sığortaçı* hər hansı ***Sigortalı ilər*** arasında maddi maraq mübahisəsinin tələb etdiyi etdiyi həddə qədər ayrıca hüquqi təmsilçilik saxlanılmasını qəbul edəcək.

Əgər *sığorta müqaviləsi sahibi* tərəfindən ***Sigorta olunanə*** qarşı iddia irəli sürülürsə, *sığortaçının* həmin *iddia* ilə bağlı hər hansı digər Sığortalı şəxs yaxud şirkətlə əlaqə saxlamaq öhdəliyi yoxdur.

5.11 **Əməkdaşlıq və fırıldaqçılıq**

Bütün Sığortalılar öz hesabına, sığortaçıya mümkün dərəcədə kömək və əməkdaşlıq etməlidir. Hər hansı iddia irəli sürüldüyü halsa, hər Sığortalı itkini azaltmaq üçün mümkün addımları atacaq. Əgər hər hansı Sığortalı bu sığorta müqaviləsi əsasında hər hansı itkiyə görə ödəniş tələbi barədə bildiriş təqdim edərkən onun səhv və ya fırıldaq olduğunu bilərsə; və ya əgər Sığortalı sığorta müqaviləsinin müddəti başlamazdan əvvəl təqdimatda mühüm səhvin və ya çatışmayan məlumatın olduğunu bilmiş olarsa; hər bu cür sığortalana bu sığorta müqaviləsi əsasında ödəniş edilməyəcək.

5.12 ***Müdafiə xərclərinin* ödənilməsi**

Sığortaçı, bu sığorta müqaviləsinin əhatəsi çərçivəsində, tutulmadan artıq olan müdafiə xərclərini həmin xərclərə görə hesab fakturaları alandan sonra qısa müddətdə ödəyəcək. Sonda, bu sığorta müqaviləsinin əhatəsinə düşməməyi müəyyən edilmiş

ödənişlər müqavilə sahibi tərəfindən sığortaçıya qaytarılacaq.

Hər şirkət öz Sığortalı şəxslərinə, qanunvericiliyin qadağan etmədiyi dərəcədə, sığortaçının xahişi ilə və onun hesabına kompensasiya və müdafiə xərcləri üçün avans təmin edəcək və bunun üçün məhkəmənin təsdiqini almaq üçün lazımi ərizələr ilə müraciət edəcək.

5.13 **Razılıq**

Sığortaçı məqsədəuyğun bildiyi halda, hər hansı sığortalana qarşı hər hansı iddianı həll edə bilər. Sığortaçının qabaqcadan razılığını almadan, heç bir Sığortalı hər hansı öhdəliyi və ya məsuliyyəti boynuna almayacaq, razılaşmaya daxil olmayacaq və ya hər hansı qərara razı olmayacaq. Yalnız bu sığorta müqaviləsinə uyğun müdafiə edilmiş iddialardan irəli gələn qərarlar bu sığorta müqaviləsi çərçivəsində kompensasiya olunacaq. Hər hansı Sığortalı hər hansı iddianı və ya potensial iddianı, sığortaçının qabaqcadan razılığı olmadan, həmin Sığortalının kompensasiya almaq hüququnu qüvvədən salan tərzdə həll edərsə və ya iddiaçıdan və ya potensial iddiaçıdan bu sığorta müqaviləsinə qarşı aydın və ya effektiv tərzdə yardım istəyərsə, bu sığorta müqaviləsi çərçivəsində həmin iddiaya və ya potensial iddiaya görə heç bir ödəniş edilməyəcək.

5.14 **Paylaşdırma**

Sığortaçı yalnız Sığortalı şəxsə qarşı sürülmüş iddiadan yaranmış müdafiə xərcləri və ya digər itkilərə görə öhdəlik daşıyır. Bu sığorta müqaviləsi çərçivəsində, şirkətə qarşı sürülmüş iddiadan və ya məhkəmə qərarlarından yaranan müdafiə xərclərinin və ya şirkətin iddiaçı qarşısında öhdəliyindən yaranan itkiyə görə ödənişlərinin ödənilməsi sığortaçının öhdəsinə düşmür.

Bununla əlaqədar, hər hansı iddia ilə bağlı hər hansı şirkət və hər hansı Sığortalı aşağıdakı hallarda: (i) birgə ödədiyi müdafiə xərcləri; (ii) birgə imzaladıqları hər hansı razılaşma; və/ və ya (iii) onlara qarşı ayrılıqda və ya birlikdə məsuliyyət təyin edən hər hansı məhkəmə qərarı olarsa
həmin şirkət və Sığortalı və sığortaçı həmin məbləğləri öz arasında ədalətlə paylaşdırılmasına razı olaraq, hər hansı əlaqədar hüquqi və maliyyə məqamları, habelə hər Sığortalının və şirkətin əlaqədar xeyrini nəzərə alacaqlar.

İddianın həm bu müqavilə çərçivəsində əhatə olunan məsələlərə, həm də əhatə olunmayan məsələ və ya şəxslərə toxunduğu halda, hər hansı müdafiə xərcləri, habelə məhkəmə qərarından və ya razılaşmadan yaranmış xərclər şirkət, Sığortalılar və sığortaçı arasında paylaşdırılarkən, bu müqavilə çərçivəsində əhatə olunan məsələlərə, həm də əhatə olunmayan məsələ və ya şəxslərə aid olan əlaqədar hüquqi və maliyyə məqamlar nəzərə alınacaq.

5.15 ***Sığortaçı və Sigortalı arasında mübahisələr***

Bu sığorta müqaviləsi çərçivəsində hər hansı Sığortalıa avans olaraq ödəniləcək müdafiə xərclərinin məbləğinə dair razılıq əldə olunmazsa, sığortaçının həmin müdafiə xərclərini avans olaraq ödəmək öhdəliyi sığortaçının ədalətli hesab etdiyi həddən artıq olmayacaq, o vaxta qədər ki, başqa məbləğ razılaşdırılacaq və ya bu sığorta müqaviləsinin müddəalarına və ya müvafiq qanuna uyğun hesab ediləcək.

5.16 **Riskdə dəyişikliklər**

(i) Hər hansı iddiaya görə ödəniş yalnız **Sigorta olunanın** Sığortalı şəxs kimi xidmət göstərdiyi müddətdəki səhv hərəkətlərə tətbiq olunacaq.

Pul köçürməsinin həyata keçirildiyindən sonra baş vermiş səhv hərəkətə görə yaranmış, ona əsaslanan və ya aid edilə bilən hər hansı iddia ilə əlaqədar hər hansı ödənişi etmək və ya xidmətlər göstərmək məsuliyyəti sığortaçıya tətbiq olunmur.

(ii) Əgər, sığorta müqaviləsinin müddəti ərzində, şirkət öz qiymətli kağızlarını hər hansı qanunvericiliyə əsasən satışa qoysa, onların satılıb satılmadığından asılı olmayaraq, bu məlumat ictimaiyyətə məlum olan kimi, şirkət sığortaçıya bu barədə məlumat verəcək ki, onu qiymətləndirərək sığortaçı Sığortalının artan riskini dəyərləndirsin və bu halda sığortaçı bu sığorta müqaviləsinin şərtlərini dəyişmək və / və ya riskin artması ilə əlaqədar və ona uyğun olan əlavə mükafatlandırma tələb etmək hüququna malikdir.

Müqavilə sahibinin xahişi ilə, qiymətli kağızların satışa qoyulmasının ictimaiyyətə elan edilməsindən əvvəl, sığortaçı artmış riski qiymətləndirərək dəyərləndirəcək və bu müqaviləsin şərtlərinə və əlavə mükafatlandırmaya dair bütün lazımi dəyişikliklər barədə məlumat verəcək.

Bu halda, və müqavilə sahibinin xahişi ilə, sığortaçı, qiymətli kağızların satışa qoyulması ilə əlaqədar təqdim olunmuş hər hansı məlumat barədə müqavilə sahibi ilə məxfilik sazişi imzalayacaq.

5.17 **ABŞ QKBK**

Əgər bu sığorta müqaviləsindən əvvəl yaxud həmin müddətdə aşağıdakılardan hər hansı baş verərsə:

(i) *qiymətli kağızlar* ABŞ-ın Qiymətli kağızlar və Birja Komissiyasının (QKBK) diqqəti dairəsində olarsa, dairəsinə düşərsə və ya qanuni düşməlidirsə (1933-cü ilin Qiymətli Kağızlar Qanununun 5-ci bölməsinə uyğun olaraq); və ya

(ii) şirkət 1934-cü ilin Qiymətli Kağızlar Qanununun 13-cü bölməsinə uyğun olaraq hər hansı öhdəliyi boynuna götürməli olarsa və bu hadisə ilk öncə müqavilə müddəti ərzində baş verərsə, bu müqavilə çərçivəsində müqavilə sahibi aşağıdakıları mümkün qədər tez həyata keçirməlidir: (a) ABŞ QKBK-nın məlumat vermək (qeydiyyatdan keçmək) tələbi barədə və sığortaçının hər hansı əlavə riski qiymətləndirməsi üçün tələb oluna bilən məlumata dair bildirişi sığortaçıya verməli; və (b) riskin artdığına görə bu müqavilənin şərtlərinə edilən hər hansı düzəlişləri qəbul etməli və müvafiq əlavə mükafatlandırmanı sığortaçıya ödəməyə razılaşmalıdır. Əks təqdirdə, bu sığorta müqaviləsi çərçivəsində hər hansı ödəniş etmək, və ya aşağıdakılar ilə birbaşa və ya dolayı yol ilə əlaqədar, aşağıdakılara əsaslanan və ya aid edilə bilən sığorta məbləği və ya əlavə məbləği ödəmək məsuliyyətindən azad olunacaq: yuxarıdakı (i) bəndində sözügedən qiymətli kağızlar, yuxarıdakı (ii) bəndində sözügedən hadisə, bu cür şirkət, ona tabe olan şirkət və filiallar, onun ana şirkəti və ya onların hər hansı müvafiq Sığortalıları (bu sığorta müqaviləsi sənədlərində aydın sadalanan). Aydınlıq üçün, bu ümumi müddəa 1933-cü ilin QK Qanununun 144A Qaydasına uyğun alınmış və ya satılmış hər hansı qiymətli kağıza tətbiq edilməyəcək.

5.18 **Subroqasiya və əməkdaşlıq**

Bu sığorta müqaviləsinə əsasən sığortaçı hər hansı ödənişdən əvvəl yaxud sonra bütün **Sigortalı ilər**ın kompensasiya, əməkdaşlıq və sığorta haqqı hüquqlarına subroqasiya ediləcək. ***Sigorta olunan**lər* və *şirkətlər* bu hüquqlarına zərər verəcək heç nə etməyəcəklər. Bu *sığortaçının* öhdəliklərinə ilkin şərt olacaq ki, *sığortaçı* və ***Sigorta olunan**lər və şirkətlər* öz hesablarına: (i) mümkün qədər tez bir zamanda bütün müvafiq sənədlərlə birgə sığortaçıya vəziyyət və iddianın tam ətraflı məlumat verəcək; və (ii) iddia və ya xəbər verilmiş vəziyyətin tədqiqatı, müdafiəsi, həlli və apelyasiyasında *sığortaçı* ilə əməkdaşlıq edir və ona kömək edir. *Sığortaçı* 4.1 Davranış istisna halını həmin *iddiaya* və həmin ***Sigorta olunan**ə* tətbiq etməyincə *sığortaçı* həmin *iddia* ilə bağlı ***Sigorta olunan**ə* qarşı subroqasiya hüquqlarını tətbiq etməyəcək.

5.19 **Başqa sığorta və kompensasiya**

Bu müqavilə çərçivəsində təmin olunan sığorta artıq sığorta məbləği və hər hansı digər mənbədən kompensasiya imkanını verir. Sığortaçı kənar qurumun səlahiyyəti dairəsində baş vermiş səhv hərəkətə görə yaranmış itkiyə görə Sığortalıa ödəniş etməyəcək, aşağıdakı hallar istisna olmaqla: (i) həmin kənar qurum qanunvericiliyin qadağası və ya müflisliyə görə həmin kompensasiyanı ödəyə bilməzsə; və (ii) kənar quruma və ya onun direktorları, rəhbərləri və ya işçilərinə məxsus olan hər hansı digər tətbiq olunacaq kollektiv sığortası çərçivəsində həmin itkilər əhatə olunmamışdırsa.

Bu sığorta müqaviləsi çərçivəsində, habelə sığortaçı və ya hər hansı CHARTİS İnc. (CHARTIS Inc.) şirkətlərindən biri tərəfindən təmin olunan (tutulma, məsuliyyət/öhdəlik həddinin aşması, və tələb olunan bildirişin təqdim edilməməsi halları istisna olmaqla) sığorta çərçivəsində, hər hansı kritik tənzimləyici hadisəyə (və hər hansı digər əlaqədar kritik tənzimləyici hadisələrə) cavab tədbiri olaraq "normativ böhrana cavab tədbirləri üçün xərclər"in ümumi məbləğinə görə (yəni bütün bu cür kritik tənzimləyici hadisələrə cavab tədbirlərinin görülməsi üçün) CHARTIS Inc. şirkətinin maksimal öhdəliyi 50 000 AZN olacaq.

5.20 **Xidmətlərdən imtina edilməsi**

Bu sığorta müqaviləsi ilə üçüncü tərəfin təklif edilə bilən xidmətləri üçüncü tərəf tərəfindən sığortaçının nəzarəti olmadan öz sifarişçiləri olaraq birbaşa **Sigortalı ilə**ra göstərilir. Müvafiq olaraq, sığortaçı bu xidmətlərlə bağlı heç bir təminat, zəmanət yaxud təqdimat verə bilməz və vermir; və sığortaçı hər hansı üçüncü tərəf xidmət təminatçısının heç bir fəaliyyəti, xətaları yaxud səhvləri üçün, eləcə də bu xidmətlərin istifadəsindən irəli gələn zərərlər üçün heç bir məsuliyyət daşımayacaq.

5.21 **Xəbərdarlıq və səlahiyyət**

*Sığorta müqaviləsi sahibi* bu sığorta müqaviləsi ilə əlaqədar bütün məsələlərdə ***Sigortalı il**ər* adından fəaliyyət göstərəcək.

5.22 **Təyinat**

Nə bu sığorta müqaviləsi nə də burda verilən heç bir hüquq sığortaçının yazılı razılığı olmadan təyin edilə bilməz.

5.23 **Sığorta müqaviləsinin izahı**

Bu sığortanın yaxud onun quruluşu, etibarlılığı yaxud əməliyyatı ilə bağlı hər hansı məsələnin izahı cədvəlin 13-cü maddəsində göstərilmiş ölkənin qanunları ilə müəyyənləşdiriləcək.

Bu sığorta müqaviləsi, onun cədvəli və hər hansı indossamentləri bir müqavilədir, lakin məzmun başqa cür də tələb edə bilər:

(i)başlıqla yalnız təsviri xarakter daşıyır, izaha yardım etmir; (ii) təkdə işlənənlər cəmdə olanlara daxildir, yaxud əksinə;

(iii) kişi cinsinə qadın və orta cins daxildir;

(iv) xüsusi qanunvericiliyə aid bütün istinadlara bu qanunvericiliyə olan düzəlişlər və ya köhnə qanunun yenilənməsi və iddianın irəli sürüldüyü hər hansı yurisdiksiyada buna bənzər qanunvericilik daxildir; və

(v) mövqelər və vəzifələrlə bağlı istinadlara iddianın irəli sürüldüyü hər hansı yurisdiksiyada olan ekvivalentləri.

5.24 **Sığorta müqaviləsinin ləğv edilməsi**

Sığorta müqaviləsi müddətinin başlamasından sonra 60 gün ərzində sığortaçı bu sığorta müqaviləsinə görə sığorta haqqı almayıbsa,

sığortaçı bu sığorta müqaviləsindən lap əvvəldə imtina edə bilər..

# MÜƏSSİSƏLƏRİN CINAYƏTƏ QARŞI SIĞORTASI

Sığorta haqqının ödənilməsinin müqabilində sığortaçı aşağıdakılarla razılaşır:

## 1. Sığorta tıminatı

*Sığortaçı **Sigortalı*** istənilən vaxt aşağıdakılardan irəli gələn *itki* üçün sığortalamalıdır:

**Sigortalının** həmin itkiyə məruz qalması niyyəti ilə törədilmiş və sığorta müqaviləsi müddətində və ya aşkarlanma müddətində **Sigortalı** tərəfindən ilk dəfə aşkarlanmış

(A) hər hansı işçi tərəfindən (tək və ya digərləri ilə birlikdə hərəkət edən) törədilmiş saxtakarlıq və ya ləyaqətsiz hərəkət; və ya

(B) hər hansı digər şəxs tərəfindən törədilmiş saxtakarlıq hərəkəti;

## 2. Anlayışlar

2.1 ***Hər hansı digər şəxs*** :

(i) Hər hansı **Sigortalının** direktoru, məmuru, tərəfdaşı, qəyyumu və ya işçisi olmayan*;* və

(ii) hər hansı **Sigortalı** ilə yazılı və ya nəzərdə tutulan hər hansı xidmət müqaviləsi əsasında hər hansı xidmətləri olmayan və ya xidmətləri göstərməyən; və

(iii) hər hansı işçi ilə gizli sövdələşmədə olmayan hər hansı fiziki şəxsi ifadə edir.

2.2 ***Törəmə şirkət*** buraxılmış və ya dövriyyədə olan səsvermə hüquqlu səhmlərinin 50%-dən az və ya ona bərabər hissəsi sığorta müqaviləsi sahibinə məxsus olan hər hansı şirkəti, o cümlədən filiallarından biri və ya bir neçəsi vasitəsilə və sığorta müqaviləsi sahibinin idarəetmə nəzarətini özündə saxladığı birbaşa və ya dolayı birgə müəssisəni ifadə edir.

Hər hansı törəmə şirkət üçün sığorta həcmi yalnız həmin şirkət sığorta müqaviləsi sahibinin törəmə şirkəti olduğu müddətdə törədilmiş, bu sığorta müqaviləsi ilə əhatə olunan hər hansı hərəkətdən irəli gələn itki ilə bağlı tətbiq edilir. Lakin sığorta müqaviləsi sahibinin yazılı müraciəti əsasında, sığortaçı daha artıq təsirə məruz qalmanın müəyyənləşdirilməsi və qiymətləndirilməsindən sonra, törəmə şirkətin qəbul edilməsindən əvvəl törədilmiş hərəkətlər üçün sığorta həcminin təmin edilməsini nəzərdən keçirə bilər. Həmin sığorta həcmi yalnız sığortaçı tərəfindən xüsusi olaraq yazılı formada razılaşdırıldıqda etibarlıdır.

2.3 ***Kompüter və ya vəsaitlərin köçürülməsi ilə bağlı fırıldaqçılıq*** **Sigortalının**:

(i) **Sigortalının** kompüter sisteminə daxil olmaq səlahiyyəti olmayan hər hansı şəxs tərəfindən kompüter avadanlığı və ya proqram təminatı və ya sistemlərinin qəsdən təhrifi ilə kompüter sisteminin birbaşa və ya dolayı nəzarəti altında olan vəsaitlərinin*;* və ya

(ii) verilən təlimatların **Sigortalı** və ya həmin təlimatları vermək üçün **Sigortalı** tərəfindən səlahiyyət verilmiş şəxs və ya təşkilatdan gəlməsi, lakin fırıldaq yolu ilə köçürülməsi, verilməsi və ya hər hansı digər şəxs tərəfindən fırıldaqçılıqla dəyişdirilməyə məruz qalması və ya saxtalaşdırılması ehtimalı ilə **Sigortalı** tərəfindən maliyyə institutunda (**Sigortalı** və ya **Sigortalı** tərəfindən səlahiyyət verilmiş şəxs və ya təşkilatın vəsaitlərin köçürülməsi, ödənişi və ya təqdim edilməsini tələb edə bildiyi) saxlanılan hesabın debet hesabına aid edilməsi və həmin hesabdan vəsaitlərin köçürülməsi, ödənilməsi və ya təqdim edilməsi üçün saxta elektron, teleqraf, yoxlanmış faksimil, yoxlanmış teleks, telefon vasitəsilə və ya yazılı təlimatdan sonra həmin hesabdan vəsaitlərin oğurlanmasını ifadə edir.

2.4 ***Təhrif və ya təhrif olunma*** həqiqi dövriyyədə olan sənədin elə təhrif olunmasını ifadə edir ki, **Sigortalı** qeyd edilən sənədin həqiqi orijinal dövriyyədə olan sənəd olmasına inanmaq üçün təhrifin keyfiyyəti əsasında aldanır. Faktların qəsdən ilə düzgün təfsir olunmamasından ibarət olan və həqiqi imzalanmış saxta sənədlər təhrif hesab edilmir.

2.5 ***Kredit razılaşması*** hər hansı kredit razılaşması, kreditin uzadılması və ya alqı-satqı sazişi, kredit və ya kredit xarakterli sövdələşmənin alınması, icarə və ya kirayə sazişi, hesab-faktura, hesab, saziş və ya borcun digər dəlili, hər hansı səbəbdən yekun olaraq ödənilməmiş hissələrin daxil olduğu, hər hansı müştərinin hesabından edilən ödənişlər və ya çıxarılmaları ifadə edir.

2.6 ***Aşkar edilmiş*** *və ya* ***aşkar olunma*** hər hansı **Sigortalı** və ya **Sigortalının** direktorları, məmurları, departament direktorları, baş menecerləri, qəyyumları və ya bunlara bərabər şəxslərin bu sığorta müqaviləsi ilə əhatə olunan itkiyə zəmin yarada biləcəyi hesab edilən hər hansı hərəkət və ya hərəkətlər haqqında xəbərdar olmasını ifadə edir, aşkar olunma vaxtı itkinin dəqiq məbləği və ya təfərrüatları məlum olmaya da bilər. Belə aşkar olunma hər **Sigortalıya** məlum olan məlumatlar və ya onun tərəfindən həyata keçirilmiş aşkar olunmadan ibarətdir.

2.7 ***Aşkar olunma müddəti*** Ümumi şərt 6.7-də göstərilən, bu sığorta müqaviləsinin yenilənməməsi və ya əvəz olunmamasından dərhal sonrakı vaxt müddətini ifadə edir ki, həmin müddət ərzində sığorta müqaviləsinin başa çatmasından əvvəl törədilmiş və digər yolla bu sığorta müqaviləsi ilə əhatə olunan hər hansı hərəkət ilə əlaqədar həmin vaxt müddətində aşkar edilmiş hər hansı itki haqqında sığortaçıya yazılı məlumat verilə bilər.

2.8 ***İşçi*** direktor və ya tərəfdaşdan başqa, **Sigortalı ilə** hər hansı xidmət müqaviləsi bağlamış və ya xidmət müqaviləsi əsasında işləyən və **Sigortalının** əmək haqqı, maaş və / və ya komisyon ödənişlər ödədiyi və **Sigortalının** həmin xidmətin həyata keçirilməsini idarə etmək və istiqamətləndirmək hüququ olduğu hər hansı fiziki şəxsi ifadə edir. İşçi termini həmçinin aşağıdakıları ifadə edir:

(i) **Sigortalının** işçisinin adi vəzifələrinin əhatə dairəsində olan işləri yerinə yetirərkən **Sigortalının** direktoru ;

(ii) **Sigortalının** nəzarəti altında işçinin vəzifələrini həyata keçirən ştatdankənar və ya müvəqqəti işçi;

(iii) **Sigortalı** tərəfindən yazılı müqavilə əsasında təyin edilmiş və işçi kimi xidmətini həyata keçirməkdə **Sigortalı** tərəfindən idarə olunan və istiqamətləndirilən hər hansı təqaüdə çıxmış işçi;

(iv) **Sigortalının** nəzarəti altında tədrisi davam etdirən, iş təcrübəsi əldə edən və ya işçinin vəzifələrini həyata keçirən hər hansı tələbə, stajçı və ya könüllü;

(v) **Sigortalı ilə** işinə rəsmi xitam verilməsindən sonra 90 gündən artıq olmayan müddətdə **Sigortalının** keçmiş işçisi *(*işə xitam verilmənin 3.9 (i) saylı İstisnaya uyğun olaraq bu sığorta müqaviləsi ilə əhatə olunan hərəkətin nəticəsi olması istisna edilir);

(vi) qəyyum, etibar edilən şəxs, administrator və ya hər hansı plana aid məmur;

(vii) **Sigortalı** üçün hüquqi xidmətləri həyata keçirərkən **Sigortalı** tərəfindən saxlanılan vəkil (stajçı istisna olmaqla), və həmin vəkilin işçisi;

(viii) **Sigortalının** nəzarəti altında işçinin vəzifələrini həyata keçirmək üçün işədüzəltmə bürosu tərəfindən (və ya bənzər mənbədən) **Sigortalı** üçün təmin edilmiş şəxs;

(ix) **Sigortalının** hər hansı normal inzibati funksiyanı təmin etdiyi şəxs və ya təşkilatın işçisi;

(x) adı **Sigortalı** tərəfindən identifikasiya edilə bilməyən, lakin hərəkət və ya hərəkətləri bu sığorta müqaviləsinə əsasən əhatə olunan itkiyə səbəb olmuş işçi, bu şərtlə ki, təqdim edilmiş dəlillər itkinin şübhəsiz həmin işçinin hərəkəti nəticəsində baş verdiyini sübut edir.

Yuxarıda qeyd edilənlərə baxmayaraq, işçi termini sığortaçı tərəfindən xüsusi razılaşdırılmadığı halda və bu sığorta müqaviləsində təsdiq edilmədiyi halda hər hansı kənar auditor, kənar mühasib, vasitəçi, investisiya üzrə məsləhətçi və ya investisiya üzrə menecer, agent, komisyonçu, yükü qəbul edən, podratçı və ya digər bənzər agent və ya nümayəndə olan və ya onlar adından hərəkət edən hər hansı şəxsi ifadə etmir.

2.9 ***Saxtalaşdırma və ya saxtalaşdırılmış*** səlahiyyəti olmadan və aldatmaq niyyəti ilə hər hansı digər şəxs tərəfindən həqiqi şəxsin əl yazısı ilə imzası və ya adının təsdiq edilməsi və ya qeyd edilən şəxsin imzasının surətinin çıxarılmasını ifadə edir. Buraya hər hansı məqsədlə, istənilən vəzifədə səlahiyyətlə və ya səlahiyyətsiz bir kəsin öz adının tam və ya qismən imza ilə göstərilməsi daxil deyil. Mexaniki və ya elektron çəkilmiş və ya yenilənmiş imzalara əl yazısı imzaları kimi yanaşılır.

2.10 ***Fırıldaq hərəkəti*** aşağıdakıları ifadə edir:

(i) hər hansı pul, qiymətli kağızların saxtalaşdırılması və ya təhrif olunması və ya fırıldaqla dəyişdirilməsi, və ya əsasında **Sigortalı** hərəkət etdiyi və ya əsaslandığı və daxil olan çeklərin saxtalaşdırılmasının daxil olduğu təlimat; və ya

(ii) **Sigortalının** cari və ya əmanət hesabını saxladığı hər hansı bankda **Sigortalının** hesabından çəkilmiş pulu təmsil edən həqiqi məbləği ödəmək üçün hər hansı çek və ya bənzər yazılı öhdəliyin **Sigortalı** tərəfindən saxtalaşdırılması və ya fırıldaqla dəyişdirilməsi;

(iii) **Sigortalıya** və ya **Sigortalının** hər hansı işçisinə biznes məqsədilə verilmiş korporativ kredit, debit və ya ödəniş kartından fırıldaq yolu ilə istifadə, o halda ki, həmin kart saxtalaşdırılır və ya fırıldaq yolu ilə dəyişdirilməyə məruz qalır, bu şərtlə ki, **Sigortalı** və işçi kartın verilmə şərtləri, müddəaları və ya hər hansı digər şərtlərə riayət etmişdir və **Sigortalı** həmin itki üçün hüquqi məsuliyyət daşıyır*;*

(iv) *Daxil olan çekin saxtalaşdırılması;*

(v) *Kompüter və ya vəsaitlərin köçürülməsi ilə bağlı fırıldaqçılıq.*

2.11 ***Fırıldaq yolu ilə dəyişdirmə*** sənədi hazırlamaq və ya imzalamaq üçün səlahiyyət verilmiş şəxsdən başqa hər hansı digər şəxs tərəfindən fırıldaq məqsədilə hər hansı sənəddə əsaslı dəyişiklik etməni ifadə edir.

2.12 ***Daxil olan çekin saxtalaşdırılması*** aşağıdakıların və ya onlarda fırıldaq yolu ilə dəyişdirilməni ifadə edir:

(i) hər hansı çek və ya köçürmə vekseli:

(a) hər hansı bankdan götürülmüş; və ya

(b) hər hansı korporasiyanın özündən götürülmüş; və ya

(ii) Əlavənin 4-cü bəndində göstərilən Saxlanılmaya əlavə olaraq **Sigortalının** itkinin 20%-ni saxlamasına müvafiq olaraq, hər hansı dövlət orqanı tərəfindən alınmış pulu təmsil edən həqiqi məbləği ödəmək üçün hər hansı çek və ya yazılı əmr və ya göstəriş, və ya **Sigortalının** aşağıdakılar üçün ödəniş və ya nəzərdə tutulan ödənişi həyata keçirərkən öz obyektində almalı olduğu, hər hansı dövlət orqanı tərəfindən tərtib edilmiş zəmanət:

(a) satılmış və ya təchiz edilmiş maddi əmlak; və ya

(b) göstərilmiş xidmətlər.

2.13 ***Sigortalı*** sığorta müqaviləsinin sahibini və ya sığorta müqaviləsi sahibinin hər hansı filialını və törəmə şirkətlərini və bu sığorta müqaviləsi qəbul edilərkən mövcud olan hər hansı planı ifadə edir.

2.14 ***Sığortaçı*** CHARTİS AZƏRBAYCAN ifadə edir.

2.15 ***Tədqiqat mütəxəssisi*** Standart Əlavə 4.3 (ii)-yə əsasən nəzərdə tutulduğu kimi sığortaçının əvvəlcədən razılığı ilə **Sigortalı** tərəfindən saxlanılan hər hansı tədqiqat mütəxəssisini ifadə edir.

2.16 ***İtki*** hər hansı tək hərəkət və ya əlaqədar, davamlı və ya təkrarlanan hərəkətlərdən (tək hərəkət kimi nəzərə alınmalıdır) irəli gələn və ya onlarla bağlı ortaya çıxan, **Sigortalının** məruz qaldığı birbaşa maliyyə itkisini ifadə edir. *İtki* normal iş müddətində qazanıldığı halda **Sigortalı** tərəfindən ödənilmiş əmək haqlarını, komisyon haqları, ödənişləri, pul mükafatlarını, həvəsləndirmələri, mükafatları, gəlirin paylanmasını, təqaüdləri və ya digər işçi müavinətləri əhatə etmir.

*İtki* aşağıdakılar nəticəsində baş verən və ya onları təşkil edən hər hansı itkini ifadə etmir:

(i) Sığorta Həcmi 1 (A) ilə əhatə olunmadığı halda, və işçinin özü və ya həmin işçi tərəfindən gəlir əldə etməsi nəzərdə tutulan hər hansı digər fərd və ya təşkilatın yersiz maliyyə gəliri əldə etməsi ilə nəticələnən, qiymətli kağızlar, mallar, fyuçers müqavilələri, səhmlər, xarici və ya Federal rezerv fondları, valyutalar, xarici fond birjasında hər hansı sövdələşmə və ya ticarət**;** və ya

(ii) hər hansı məsuliyyətsiz və ya diqqətsiz hərəkətlər; və ya

(iii) Standart Tətbiq 4.1-də nəzərdə tutulanlardan başqa, üçüncü tərəf üçün məsuliyyətin yaradılması.

2.17 ***İdarəetmə nəzarəti*** onu ifadə edir ki, sığorta müqaviləsinin sahibi əlaqədar təşkilatın gündəlik idarə edilməsinə nəzarət etmək hüququna malikdir və təhlükəsizlik və daxili nəzarət prosedurlarını (maliyyə və ya operativ) müəyyən edir.

2.18 ***Pul*** valyuta, qəpiklər, banknotlar və külçələri, çekləri, səyahət çeklərini, qeydiyyata alınmış çekləri, poçtla köçürmələri və pul köçürmələrini ifadə edir.

2.19 ***Digər mənbədən cəlb olunma*** **Sigortalı** adından normal inzibati funksiyanı həyata keçirmək üçün **Sigortalı** tərəfindən saxlanılan və ya səlahiyyət verilən şəxs və ya təşkilatı ifadə edir, bu şərtlə ki:

(i) həmin funksiya yazılı müqavilə əsasında həyata keçirilir; və

(ii) **Sigortalı** həmin funksiyanın həyata keçirilməsini təftiş etmək hüququnu özündə saxlayır; və

(iii) Həmin funksiyanın həyata keçirilməsi üçün **Sigortalı** tərəfindən saxlanılmazdan və səlahiyyət verilməzdən əvvəl **Sigortalı** həmin şəxs və ya təşkilatı səlahiyyət, maliyyə stabilliyi və düzgünlük üçün yoxladığını nümayiş edə bilər.

**Sigortalı** hər hansı normal inzibati funksiya üçün digər mənbədən cəlb etdiyi hər hansı şəxs və ya təşkilatla bağlı sığorta həcmi digər mənbədən cəlb olunan şəxs və ya **Sigortalı** üçün əlverişli olan, müqavilə və ya digər əsasla hər hansı təzminat və ya etibarlı və ya alınması mümkün olan sığorta və ya kompensasiyadan yüksək tətbiq edilir.

2.20 ***Plan*** **Sigortalı** tərəfindən **Sigortalının** keçmiş, indiki və ya gələcək işçiləri və ya onların müvafiq benefisiarlarının xeyrinə yaradılmış və saxlanılan hər hansı təqaüd, işçi müavinəti, sosial müavinət, pay əmanəti və ya səhm opsiyası planı və ya xeyriyyə fondunu ifadə edir.

Hər hansı plan üçün sığorta təminatı yalnız bu sığorta müqaviləsi ilə əhatə olunan hərəkətdən irəli gələn itki ilə bağlı tətbiq edilir, o halda ki, həmin şəxs **Sigortalı** tərəfindən saxlanılan planla əlaqədar şəxsdir. Lakin sığorta müqaviləsi sahibinin yazılı müraciəti əsasında, sığortaçı daha artıq təsirə məruz qalmanın müəyyənləşdirilməsi və qiymətləndirilməsindən sonra, planın qəbul edilməsindən əvvəl törədilmiş hərəkətlər üçün sığorta həcminin təmin edilməsini nəzərdən keçirə bilər. Həmin sığorta həcmi yalnız sığortaçı tərəfindən xüsusi olaraq yazılı formada razılaşdırıldıqda etibarlıdır.

2.21 ***Sığorta müqaviləsinin sahibi*** Əlavənin 1-ci Bəndində göstərilən təşkilatı ifadə edir.

2.22 ***Sığorta müqaviləsinin müddəti*** Əlavənin 2-ci bəndində göstərilən və ya sığorta tərəfindən uzadılmış vaxt müddətini ifadə edir.

2.23 ***İtkidən əvvəl məsləhətçi*** Standart Tətbiq 4.6-ya əsasən göstərildiyi kimi, bu sığorta müqaviləsinin indossamentində sadalanan hər hansı müstəqil məsləhətçini ifadə edir.

2.24 ***Obyektlər*** sığortaçıya məxsus olan və ya onun tutduğu və öz işgüzar fəaliyyətini həyata keçirdiyi binanın daxili hissəsini ifadə edir.

2.25 ***Qiymətli kağızlar*** ya pul, ya da mülkiyyəti təmsil edən bütün dövriyyədə olan və olmayan sənədləri və ya müqavilələri, o cümlədən hər hansı veksel, səhm, öhdəlik, debentura, borcsuzluq dəlili, pay və ya digər əsas kapital və ya borc qiymətli kağızını əhatə edir, lakin buraya pul daxil deyil.

2.26 ***Filial*** sığorta müqaviləsi sahibinin ya birbaşa ya da öz filiallarından biri və ya bir neçəsi vasitəsilə dolayı yolla:

(i) direktorlar şurasının strukturunu idarə etdiyi; və ya

(ii) səsvermə səlahiyyətinin yarısından çoxunu idarə etdiyi; və ya

(iii) buraxılmış səhm kapitalının yarısından çoxuna sahib olduğu hər hansı şirkəti ifadə edir.

Hər hansı filial üçün sığorta təminatı yalnız bu sığorta müqaviləsi ilə əhatə olunan hər hansı hərəkətdən irəli gələn itki ilə bağlı tətbiq edilir, o halda ki, həmin şirkət **Sigortalının** filialıdır. Lakin sığorta müqaviləsi sahibinin yazılı müraciəti əsasında, sığortaçı daha artıq təsirə məruz qalmanın müəyyənləşdirilməsi və qiymətləndirilməsindən sonra, filialın qəbul edilməsindən əvvəl törədilmiş hərəkətlər üçün sığorta həcminin təmin edilməsini nəzərdən keçirə bilər. Həmin sığorta həcmi yalnız sığortaçı tərəfindən xüsusi olaraq yazılı formada razılaşdırıldıqda etibarlıdır.

2.27 ***Terror*** qüvvə və ya zorakılıqla hər hansı hüquqi və ya faktiki hakimiyyətin devrilməsinə və ya ona təsir göstərməyə yönəlmiş fəaliyyətlərlə hər hansı təşkilat üçün və ya onun adından və ya onunla əlaqədar hərəkət edən hər hansı fərdin hərəkətini ifadə edir.

## 3. İstisnalar

Sığortaçı aşağıdakılardan hər hansı birindən irəli gələn, və ya onlarla bağlı olan və ya onları təşkil edən ödənişləri etmək üçün heç bir məsuliyyət daşımır:

### 3.1 Dolayı itki

Şərti Tətbiq 5.1 və 5.3-ə əsasən sığortalanmadığı halda, istənilən xarakterli vasitəli və ya dolayı itki, o cümlədən, məhdudiyyət olmadan bu sığorta müqaviləsi ilə əhatə olunan itkiyə görə **Sigortalı** və ya hər hansı digər fərd və ya təşkilat tərəfindən realizə edilməmiş hər hansı gəlir, faiz və dividendlər.

### 3.2 Kredit riskləri

Hər hansı kredit razılaşmasının tam və ya qismən ödənilməməsi və ya bununla bağlı öhdəliklərin yerinə yetirilməməsi nəticəsində ortaya çıxan itki və ya Sığorta Təminatı 1(A) və 1(B)-yə əsasən əhatə olunmadığı hallarda, kredit üzrə satılmış və ya təchiz edilmiş mülkiyyət üçün nəzərdə tutulan ödənişdə **Sigortalı** tərəfindən alınmış vəsaitlərin saxtalaşdırılması və ya fırıldaq yolu ilə dəyişdirilməsindən yaranan itki.

3.3 **Direktorlar/tərəfdaşlar**

**Sigortalının** hər hansı direktoru və ya tərəfdaşı tərəfindən tək və ya digərləri ilə birlikdə törədilmiş hər hansı hərəkət və ya bir sıra hərəkətlərdən birbaşa və ya dolayı nəticələnən itki, əlaqədar hərəkət törədildikdə həmin direktor və ya tərəfdaşın 2.8 (i) Anlayışı altında işçi hesab edildiyi hallar istisna edilir.

3.4 **İşçinin hərəkətləri**

Sığorta Təminatı 1(A) və ya hər hansı əlaqədar tətbiqlərlə əhatə olunan hallar istisna olmaqla, hər hansı işçinin hərəkəti və ya bir sıra hərəkətlərindən birbaşa və ya dolayı yolla ortaya çıxan itki.

3.5 **Şantaj və ya qaçırılma və girovdan çıxartma**

Ya Sığorta Təminatı 1(A), ya da Standart Tətbiq 4.2-yə əsasən sığortalanmış hallar istisna olmaqla, şantaj və ya qaçırılma və girovdan çıxartmaya görə itki.

3.6 **Haqlar, xərclər və məsrəflər**

Standart Tətbiq 4.2, 4.3 (i) və 4.3 (ii)-yə əsasən Sığortalı hallar istisna olmaqla, bu sığorta müqaviləsi ilə əhatə olunan itkinin mövcudluğu və ya məbləğini müəyyən edərkən, və ya hər hansı hüquqi prosedurun aparılması və ya müdafiəsində ortaya çıxan və ya çağırış xərcləri və ya çağırışla əlaqədar xərclər üçün haqlar, xərclər və məsrəflər.

3.7 **Cərimələr, cəzalar və ya ziyanlar**

Standart Tətbiq 4.1 və ya Şərti Tətbiq 5.1-ə əsasən sığortalanarsa, birbaşa kompensasiya olunan ziyan istisna olmaqla, **Sigortalının** məsuliyyət daşıdığı istənilən növ cərimələr, cəzalar və ya ziyanlar.

3.8 **Yanğın**

Standart Tətbiq 4.4-ə əsasən sığortalanarsa, pul, qiymətli kağızlar, seyflər və ya anbarların məruz qaldığı itki və ziyan istisna olmaqla, yanğının səbəb olduğu itki və ya ziyan.

3.9 **Xəbərdar olduqdan sonra baş vermiş itki**

(a) **Sigortalı** və ya **Sigortalının** hər hansı direktorları, tərəfdaşları, qəyyumları, məmurları, departament direktorları, baş menecerləri və ya **Sigortalıya** bərabər hər hansı şəxs və ya (b) **Sigortalının** digər mənbədən cəlb etdiyi hər hansı tərəf həmin şəxs və ya hər hansı digər şəxs və ya təşkilat tərəfindən saxtakarlıq, nadürüstlük, kriminal ziyan və ya oğurluq hərəkəti və ya hərəkətlərini törətməsi haqqında məlumatlı olduğu vaxtdan baş vermiş itki:

(i) o halda ki, həmin işçi **Sigortalının** xidmətindədir və ya hər hansı **Sigortalı ilə** işləyir; və ya

(ii) işçinin hər hansı **Sigortalı** tərəfindən işə götürülməsindən əvvəl, bu şərtlə ki, hərəkət və ya hərəkətlər AZN 15,000 və ya daha yüksək dəyəri olan pul, qiymətli kağızlar və ya digər mülkiyyəti əhatə edir.

3.10 **Əsas səhmdar**

Bu sığorta müqaviləsi ilə əhatə olunan itki ilə nəticələnən hərəkəti törətdiyi vaxt hər hansı **Sigortalının** buraxılmış səhm kapitalının 5%-dən çoxuna sahib olan hər hansı şəxsin cəlb olunduğu itki.

3.11 **Zorakılıqla olmayan cinayət**

Aşağıdakılarla bağlı olan hallar istisna olmaqla, hər hansı qüvvə və ya zorakılıq olmadan hər hansı pul, qiymətli kağızlar və ya mülkiyyətin itirilməsi və / və ya onlara dəyən ziyan:

(i) Standart Tətbiq 4.4.-ə əsasən sığortalanarsa, obyektlərdə və ya tranzitdə olan pul və / və ya qiymətli kağızlar; və ya

(ii) hər hansı digər şəxs tərəfindən törədilmiş fırıldaq hərəkəti; və ya

(iii) **Sigortalının** işçisi tərəfindən törədilmiş və Sığorta Təminatı 1(A) –ya əsasən Sığortalı itki; və ya

(iv) Standart Tətbiq 4.2-yə əsasən sığortalandığı halda itki.

3.12 **Obyektlərə dəyən ziyan**

Aşağıdakılardan hər hansı dəyən ziyan və ya onların dağılması:

(i) ziyanın necə baş verməsindən asılı olmayaraq obyektlər və ya bina; və ya

(ii) Şərti Tətbiq 5.2-yə əsasən sığortalanmadığı halda obyektlərin içindəkilər, cihazlar və inventar.

(iii) Standart Tətbiq 4.4(i)-yə əsasən sığortalanmadığı halda seyflər və ya anbarlar.

3.13 **İtkinin əvvəlcədən və ya sonradan aşkar edilməsi**

***Sigortalının***:

(i) sığorta müqaviləsi müddətinin başlamasından əvvəl; və ya

(ii) sığorta müqaviləsi müddətinin başa çatması və ya aşkarlanma müddətindən sonra aşkarladığı itki.

3.14 **Gəlir, itki və ya inventarın hesablanması**

Sübutu yalnız aşağıdakılardan asılı olan itki:

(i) gəlir və itkinin hesablanması və ya müqayisəsi; və ya

(ii) inventar sənədlərinin faktiki fiziki sayla müqayisəsi.

Lakin, işçinin cəlb olunduğu və müəyyən edildiyi hallarda, inventar sənədləri və inventarın faktiki fiziki sayı itkinin yardımçı sənədləri kimi təqdim edilə bilər.

3.15 **Məxfi informasiya, kommersiya sirləri və əqli mülkiyyət**

Hər hansı məxfi informasiya, o cümlədən məhdudiyyət olmadan kommersiya sirləri, kompüter proqramları, müştərilər haqqında informasiya, patentlər, ticarət nişanları, müəlliflik hüquqları və ya emal metodlarının əldə edilməsindən birbaşa və ya dolayı yolla ortaya çıxan itki.

3.16 **Radioaktivlik və nüvə**

Birbaşa yaxud dolayı yolla aşağıdakıların səbəb olduğu və ya zəmin yaratdığı, itki, xərc, məsuliyyət, və ya istənilən xarakterli dolayı itki:

(a) ionlaşdırıcı radiasiya və ya hər hansı nüvə yanacağı yaxud hər hansı nüvə yanacağının yanmasından əmələ gələn hər hansı nüvə tullantısından yaranan radioaktiv çirklənmə, və ya

(b) hər hansı partlayıcı nüvə aqreqatının yaxud onun nüvə komponentinin radioaktiv, zəhərli, partlayıcı yaxud digər zərərli xüsusiyyətləri.

3.17 **Hər hansı fərd və ya təşkilat tərəfindən zorakılıqla cinayət**

Aşağıdakı hallar istisna olmaqla, qüvvə və zorakılıqdan istifadənin tətbiq edildiyi oğurluqdan ortaya çıxan itki:

(i) Standart Tətbiq 4.4 və ya Şərti Tətbiq 5.2 və ya 5.4-ə əsasən sığortalanarsa; və ya

(ii) işçi tərəfindən törədilmiş (tək və ya digərləri ilə birlikdə hərəkət edən) və Sığorta Təminatı 1 (A)-ya əsasən sığortalanmış.

3.18 **Könüllü mübadilə və ya tədarük**

Aşağıdakı hallar istisna olmaqla, hər hansı mübadilə və ya tədarükdə pulun, qiymətli kağızların könüllü verilməsi və ya təslim edilməsindən (pulların və qiymətli kağızların verilməsi və ya təslim edilməsinin aldadılma yolu ilə həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq) yaranan itki:

(i) Həmin itki işçi tərəfindən törədilmiş (tək və ya digərləri ilə birlikdə hərəkət edən) və Sığorta Təminatı 1 (A)-ya əsasən sığortalanmışdır; və ya

(ii) Hər hansı digər şəxs tərəfindən törədilmiş fırıldaq hərəkətinin nəticəsidir.

3.19 **Müharibə və terror**

Müharibə, basqın, xarici düşmənin hərəkətləri, hərbi hərəkatlar, və ya müharibə xarakterli əməliyyatlar (élan edilmiş və edilməmiş müharibə), vətəndaş müharibəsi, üsyan, inqilab, xalq hərəkatının bir hissəsini əhatə edən və ya xalq hərəkatını təşkil edən mülki iğtişaş, hərbi və ya ələ keçirilmiş hakimiyyət, hərbi vəziyyət , nizamsızlıq, hər hansı hüquqi təşkil edilmiş hakimiyyətin hərəkəti və ya terror nəticəsində birbaşa və ya dolayı yolla ortaya çıxan itki.

## 4. Standart Tətbiqlər

Bu sığorta müqaviləsinin bütün şərtləri, istisnaları və müddəalarına müvafiq olaraq, sığorta müqaviləsi aşağıdakılara şamil edilir:

### 4.1 Diqqət, mühafizə və nəzarət

Sığorta təminatı hər hansı fərd və ya təşkilata aid olan, lakin **Sigortalının** diqqəti, mühafizəsi və nəzarəti altında olan və **Sigortalının** məsuliyyət daşıdığı pul, qiymətli kağızlar və ya digər mülkiyyətin itkisinə şamil edilir. Həmin məbləğ Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin bir hissəsidir və ona əlavə deyil.

### 4.2 Şantaj və ya qaçırılma və girovdan çıxartma

Sığorta təminatı aşağıdakı Sığortalı itkilərlə bağlı **Sigortalıya** onların itkisi, o cümlədən bildirilmiş hədə nəticəsində **Sigortalı** tərəfindən girov pullarının (o cümlədən girovdan çıxarılma və ya şantaj ödənişləri) ödənilməsi və ya digər mülkiyyətin təmin edilməsinin nəticəsində bununla bağlı ortaya çıxan xərclərin kompensasiya edilməsi üçün tətbiq edilir:

(i) **Sigorta olunana** bədən xəsarəti yetirmək; və ya

(ii) **Sigortalıya** məxsus olan və üzərində **Sigortalının** hüquqi məsuliyyət daşıdığı hər hansı mülkiyyətə (o cümlədən kompüter sistemləri, proqram təminatı və ya proqramlar və hər hansı obyektlər və ya obyektlərin içərisində olan cihazlar və inventar) ziyan dəyməsi və ya dağıdılması;

Bu şərtlə ki:

(a) həmin girov pulu və ya mülkiyyətin təslim edilməsindən əvvəl hədələnən şəxs hədə və ya tələb haqqında yoldaşına və ya işçiyə məlumat vermək üçün cəhd göstərmişdir və **Sigortalı** məsələni polisə bildirmişdir; və

(b) Standart Tətbiq 4.2-yə əsasən Sığortalı şantaj və ya qaçırılma və girovdan çıxartma üçün təzminat Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin 100%-dən az məbləğlə və ya hər hansı tək itki üçün və ümumilikdə AZN 2,500,000 olan məbləğlə məhdudlaşır; və

(c) bu Standart Tətbiqə əsasən təzminat Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin bir hissəsidir və ona əlavə deyil; və

(d) Yalnız Standart Tətbiq 4.2-yə əsasən təzminat Əlavənin 4-cü Bəndində göstərilən Saxlanılmaya tabe deyil.

Yalnız Standart Tətbiq 4.2-nin məqsədinə uyğun olaraq, **Sigorta olunan Sigortalının** direktoru və ya işçisini və ya tərəfdaşını və ya həmin şəxsin qohumu və ya qonağını ifadə edir.

Yalnız Standart Tətbiq 4.2-nin məqsədinə uyğun olaraq, xərclər bu sığorta müqaviləsi ilə Sığortalı hər hansı şantaj, və ya qaçırılma və girovdan çıxarılma nəticəsində birbaşa olaraq yalnız **Sigortalı** tərəfindən çəkilmiş bütün ağlabatan və zəruri xərcləri, o cümlədən aşağıdakıları ifadə edir:

- ♦ **Sigortalı** və ya **Sigorta olunan** tərəfindən qaçırılma və ya girov haqqında məlumat verən şəxsə mükafat kimi ödənilən hər hansı məbləğ;
- ♦ Qaçırılmadan zərər çəkmiş şəxsin azad edildikdən sonra öz ailəsi ilə qovuşması üçün səyahət xərcləri və qaçırılmadan zərər çəkmiş şəxsi əvəz etmək üçün işçinin xərcləri;
- ♦ Qaçırılma və ya şantaj təhlükəsizinin qurbanı olan **Sigorta olunanın** təxliyəsi üçün səyahət xərcləri və ya mehmanxana xərcləri;
- ♦ Qaçırılma və ya şantajdan sonra və ya onlar nəticəsində tibbi xidmətlər və xəstəxanaya yerləşdirilmək üçün **Sigorta olunan** tərəfindən çəkilmiş ağlabatan və zəruri xərclər, o cümlədən nevropatoloq, psixiatr tərəfindən müalicə, plastik cərrahiyyə və ya müdafiə xərcləri;
- ♦ Aşağıdakılar üçün ağlabatan və zəruri ödənişlər və xərclər:
  - **Sigortalı** tərəfindən cəlb olunmuş müstəqil məhkəmə analitiki;
  - **Sigortalı** tərəfindən cəlb olunmuş müstəqil peşəkar tərcüməçi;
  - Clayton Consulting (təhlükəsizlik üzrə məsləhətçilər) və ya onun filialları;
  - Hill & Knowlton (ictimai əlaqələr üzrə məsləhətçilər) və ya onun filialları.

Bundan başqa, başa düşülür və qəbul edilir ki, Standart Tətbiq 4.1 aşağıdakı coğrafi ərazilərdə baş verən və ya birbaşa və ya dolayı yollarla həmin coğrafi ərazilərlə əlaqədar olan hər hansı itki və ya şantaj, və qaçırılma və ya girovdan çıxarılma tələbini (o cümlədən, bunlarla əlaqədar olan girov pulları və xərclərini) əhatə etmir: Kolumbiya, Braziliya, Meksika,

Ekvador, Filippin, Honduras, Nigeriya (o cümlədən sahildən kənar), Somali (o cümlədən sahildən kənar), Əfqanıstan, Pakistan, İraq və ya Çeçenistan.

4.3 **Haqlar, xərclər və məsrəflər**

(i) **Vəkil haqları**

Sığorta təminatı hər hansı tələb, iddia, məhkəmə prosesi, və ya hüquqi prosesin müdafiəsində **Sigortalı** tərəfindən ödənilmiş və sığorta müqaviləsi ilə əhatə olunan itkidən birbaşa ortaya çıxması müəyyən edilən ağlabatan vəkil haqları, xərclər və məsrəflərin kompensasiya edilməsinə şamil edilir, bu şərtlə ki:

(a) həmin təzminat AZN 250,000 və ya Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin 5%-i (hansı daha az olarsa) ilə məhdudlaşır və həmin məbləğ Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin bir hissəsidir və ona əlavə deyil;

(b) Standart Tətbiq 4.3(ii)-yə əsasən Sığortalı hallar istisna olmaqla, sığortaçı bu sığorta müqaviləsi altında hər hansı itkinin mövcudluğu, qüvvədə olması və ya məbləğinin **Sigortalı** tərəfindən müəyyənləşdirilməsində ödənilmiş haqlar, xərclər və ya məsrəflər üçün məsuliyyət daşımır (həmin xərclərin hüquqi, mühasibat və ya digər xidmətlər üçün olmasından asılı olmayaraq);

(c) belə vəkil haqları, xərclər və məsrəflər sığortaçının əvvəlcədən yazılı razılığı ilə ödənilir;

(d) tələb, iddia, məhkəmə prosesi və ya hüquqi prosedurun yekunlaşmasından əvvəl sığortaçı **Sigortalıya** hər hər hansı vəkil haqları, xərclər və məsrəflər üçün ilkin ödəniş etmək öhdəliyini daşımır;

(e) həmin vəkil haqları, xərclər və məsrəflərin əvəzi hər hansı digər tərəfdən alına bilməz.

Bu Standart Tətbiq 4.3(i)-nin məqsədinə müvafiq olaraq, müdafiə **Sigortalının** ümumi yurisdiksiya məhkəməsində cavabdeh qismində çıxış etdiyi vəziyyəti ifadə edir.

(ii) **Tədqiqat mütəxəssisindən istifadə**

Sığorta Təminatı bu sığorta müqaviləsi ilə Sığortalı və ya potensial Sığortalı itkinin arxasında duran faktları araşdırmaq və həmin itkinin həcmini hesablamaq üçün tədqiqat mütəxəssisinin haqları və xərclərinin əhatə olunmasına şamil olunur. Tədqiqat mütəxəssisinin xərcinə heç bir Saxlanılma məbləği tətbiq edilmir və sığortaçı tərəfindən ödənilən həmin xərc AZN 250,000 və ya Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin 5%-i (hansı daha az olarsa) ilə məhdudlaşır. Həmin məbləğ Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinə əlavə olaraq ödənilməlidir.

Bu şərtlə ki, tədqiqat mütəxəssisi sığortaçının əvvəlcədən yazılı təsdiqi ilə bu sığorta müqaviləsinə əsasən bildirilən hər hansı itkini araşdırmaq üçün **Sigortalı** tərəfindən təyin edilir. Tədqiqat mütəxəssisi maraqların ziddiyyəti olan hər hansı təşkilat və ya şəxs olmamalıdır. Bu sığorta müqaviləsinə əsasən əvəzi ödənilən hər hansı haqlar, xərclər və ya məsrəflərin ödənilməsindən əvvəl sığortaçının əvvəlcədən yazılı təsdiqi tələb olunur. Sığortaçı **Sigortalı** və tədqiqat mütəxəssisi ilə ilkin görüşdə iştirak etmək hüququnu özündə saxlayır.

Tədqiqat mütəxəssisi **Sigortalının** nəzarətinin necə pozulduğu və ya pozula biləcəyi haqqında məlumat verməli və gələcək bənzər itkilərin qarşısını almaq üçün tövsiyələri ümumiləşdirməlidir.

Hesabat ingilis dilində (sığortaçı tərəfindən razılaşdırılmış formatda) iki nüsxədə **Sigortalı** və sığortaçıya təqdim edilməlidir.

(iii) **Yenidən hazırlama xərcləri**

Sığorta təminatı bu sığorta müqaviləsi ilə Sığortalı itkidən sonra proqramların düzəldilməsi və təhlükəsizlik kodlarının dəyişdirilməsi üçün zəruri olan hallarda **Sigortalının** proqram təminatları və ya sistemlərinin yenidən yazılması və ya dəyişdirilməsi üçün ağlabatan xərclərə şamil edilir. Bu kimi yenidən yazılma və ya dəyişdirmə üçün sığortaçının məsuliyyəti hər hansı tək itki üçün və ümumilikdə AZN 250,000 məbləği ilə məhdudlaşır və həmin məbləğ Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin bir hissəsidir və ona əlavə deyil;

4.4 **Pul və qiymətli kağızlar – ziyan, məhv edilmə və ya itmə**

Sığorta təminatı aşağıdakılara şamil edilir:

(i) pul və ya qiymətli kağızların fiziki itkisi və ya onlara ziyan dəyməsi və ya faktiki məhv edilməsi və ya yoxa çıxması, o cümlədən həmin itki ilə əlaqədar seyflərə və ya anbarlara ziyan dəyməsi və ya onların faktiki məhv edilməsi; və/və ya

(ii) qüvvə və zorakılıqdan istifadə ilə və ya istifadəsiz aşağıdakı hallarda baş verən, pul və ya qiymətli kağızların hər hansl digər şəxs tərəfindən oğurlanması:

(a) obyektlər daxilində; və ya

(b) bank obyekti və ya buna bənzər tanınmış təhlükəsiz saxlanc yerinin daxilində; və ya

(c) tranzitdə və **Sigortalının** direktoru və ya işçisi və ya tərəfdaşının diqqəti, mühafizəsi və nəzarəti altında olduqda; və ya

(d) həmin pul və ya qiymətli kağızların mühafizə edilməsi üçün **Sigortalı** tərəfindən müvafiq səlahiyyət verilmiş hər hansı mühafizə şirkəti və ya zirehli avto nəqliyyat şirkətinin diqqəti, mühafizəsi və nəzarəti altında olduqda;

Bu şərtlə ki, bu Standart Tətbiq:

(1) Yanğın nəticəsində pul və ya qiymətli kağızların fiziki itkisi və ya onlara ziyan dəyməsi və ya faktiki məhv olması ilə hər hansı tək itki ilə bağlı AZN 250,000 məbləği ilə məhdudlaşır; və

(2) **Sigortalı** üçün əlverişli olan, müqavilə və ya digər əsasla hər hansı digər qüvvədə olan və yığılan sığorta və təzminatdan hər zaman yüksəkdir (yaxud saxlanılma məbləğinin tətbiqi və ya məsuliyyət limitinin tükənməsi halları istisna olmaqla, qüvvədə ola biləcək və ya yığılacaq); və

(3) Əlavənin 3-cü Bəndində göstərilən Məsuliyyət Limitinin bir hissəsidir və ona əlavə deyil;

4.5 **Yeni subyektlər – yeni yaradılmış və ya alınmış**

Sığorta təminatı aşağıdakılara şamil edilir:

(i) sığorta müqaviləsi müddətində hər hansı **Sigortalı** tərəfindən yeni yaradılmış və ya formalaşdırılmış filial və ya törəmə şirkət; və ya

(ii) hər hansı digər bizneslə birləşmə, və ya onun aktivlərinin alınması, və ya digər yolla əldə edilməsi. Bu sığorta müqaviləsinə əsasən təzminat hər hansı digər bizneslə birləşmə, və ya onun aktivlərinin alınması, və ya digər yolla əldə edilməsi tarixindən törədilmiş hərəkətlərə şamil edilir.

Yuxarıdakı (i) və (ii) bəndləri ilə əlaqədar olaraq belə filial yaxud törəmə şirkətinə və ya planı yaxud bu obyektin sığorta müqaviləsinin sahibinin filialı yaxud birgə şirkəti yaxud planı olmuşdursa və ya hal-hazırda mövcuddursa sığorta bu sığorta müqaviləsinə əsasən edilmiş hər hansı iş nəticəsində yaranan itki üçün verilir. Bu sığorta müqaviləsi yalnız sığortanın başlamasından sonra aşkar edilmiş itki üçün tətbiq ediləcək. Yuxarıdakı (i) və (ii) bəndləri olduğu halda belə yeni obyekt aşağıdakı hallarda sığortalanacaq:

(a) birləşmiş illik ümumi gəlir və bütün **Sigortalıların** işçilərinin ümumi sayı 15%-dən az olan illik ümumi gəlir və işçilərin ümumi sayı; və

bu sığorta müqaviləsinin əhatə etdiyi itki növlərinə aid son 3 il ərzində heç bir itki aşkar etməmişdir, hansı ki, sığorta olub-olmadığından asılı olmayaraq, fərdi surətdə Saxlamanın (Cədvəlin 4-cü bəndində göstərilmiş) 30%-dən çox olmuşdur; və

(c) haqqında *sığortaçıya* ən son olaraq xəbər verilmiş, ***Sigortalının*** biznesinə oxşar biznes ilə məşğuldursa; və

(d) bu cür qurumu yaradılması və ya satın alınmasında, ***Sigortalının*** *sığortaçıya* ən son olaraq məlumat verdiyi prosedur və qaydalar kimi effektiv olan prosedur və qaydalara tabedirsə.

Yeni qurum yuxarıdakı (a), (b), (c) və (d) bəndlərindəki şərtlərə cavab verməzsə, *sığortaçı* bu cür yaranma, birləşmə, konsolidasiya, satın alma və ya əldə etmənin tarixində və ya ondan sonra törədilmiş hərəkətlərə görə, bu sığorta müqaviləsi çərçivəsində ödənişin təmin edilməsinə dair yazılı xahişə razı ola bilər, təkcə bir şərtlə ki, yeni yaradılmış və ya alınmış filial və ya assosiasiya şirkəti və ya plan və ya aktivlərin alınmasından sonra 90 gün ərzində *sığortaçı* həmin yeni yaradılmış və ya alınmış filial və ya assosiasiya şirkəti haqqında dolğun məlumat ilə qabaqcadan təmin olunsun və sığorta müqaviləsinə əlavə məbləğlər və / və ya düzəlişlər qabaqcadan *sığortaçı* ilə razılaşdırılsın.

**4.6 İtkidən əvvəl məsləhətçi xidmətləri**

Sığorta itkidən əvvəl məsləhətçi xidmətlərini əhatə etmək üçün tətbiq edilir və bunun vasitəsilə sığorta müqaviləsinin sahibinin itkidən əvvəl məsləhətçi xidmətlərinə hüququ vardır:

(i) bu cür xidmətlərin həcmi tam olaraq ***Sigortalı*** tərəfindən müəyyən ediləcək, o şərtlə ki, həmin həcm bu sığorta müqaviləsinin ümumi risk idarə etmə parametrlərinə uyğun olsun; və

(ii) bu xidmətlərlə birləşmiş xərclər Cədvəlin 5-ci Bəndində göstərildiyi kimi Sığorta haqqının maksimum 10%-i həcmində məhdudlaşdırılacaq, hər hansı sığorta haqqı ödənilməli vergi istisna olmaq. Bu 4.6 Standart Tətbiq

Cədvəlin 4-cü Bəndində göstərilmiş Tutulmaya aid olmayacaq və bu xərclər Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətini pozmayacaq; və

(iii) yuxarıda üzərinə götürülmüş işlərin təsvirinə əsasən sığortaçı bu xidmətlərin göstərilməsinə görə müvafiq olaraq birbaşa itkidən əvvəl məsləhətçiyə həmin məbləğdə pul ödəyəcək və bu ödəniş birgə xərcləri göstərən invoys əsasında həyata keçiriləcək.

Anlaşılır və razılaşdırılır ki, itkidən əvvəl məsləhətçi tərəfindən hazırlanmış yazılı yekun hesabatın sığortaçıya bəlli olması yalnız **Sigortalı** tərəfindən nəzərə alınmalıdır. Buna baxmayaraq bu sığorta müqaviləsinə əsasən sığortaçının göstərdiyi belə maliyyə vəsaiti varsa, **Sigortalı** eynisini bu sığorta müqaviləsinin yenilənməsi zamanı yaxud Cədvəlin 2-ci Bəndində göstərildiyi kimi sığorta müqaviləsi müddətinin tətbiqini aşkar etməlidir.

## 5. Şərti Tətbiqlər

Bu sığorta müqaviləsinin bütün şərtləri, istisna halları və müddəaları şərtilə sığorta Cədvəlin 7-ci Bəndində Daxil Edilməyənlər kimi göstərilmiş aşağıdakı hallarda tətbiq edilir:

5.1 **Müqavilədə nəzərdə tutulmuş cərimələr**

Yazılı müqaviləyə əsasən **Sigortalı** tərəfindən həyata keçirilmiş yaxud onun üzərinə götürdüyü Sığortaçının belə itkiyə görə daşıdığı məsuliyyətin Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətinin 15% həcmində məhdudlaşması və bu məbləğ Məsuliyyət Məhdudiyyətinin bir hissəsi olub ona əlavə olmaması şərtilə bu sığorta müqaviləsinə əsasən Sığortalı itkidən nəticələnən hər hansı cərimə məbləğini əhatə etmək üçün sığorta tətbiq edilir.

5.2 **Qərəzli İtki**

**Sigortalıya** zərər vurmaq məqsədilə aşağıdakılar tərəfindən törədilmiş qərəzli itkinin nəticəsində sığorta bu itkiləri əhatə etmək üçün tətbiq edilir:

(i) hər hansı *işçi* (təkbaşına yaxud başqaları ilə əlbir şəkildə); yaxud

(ii) bu *itkilərin* baş verdiyi *obyektlərdə* hər hansı digər şəxs tərəfindən;

Bir şərtlə ki, bu Tətbiq:

(a) hər hansı tək itki yaxud birləşmiş halda AZN 250,000 məbləğində olsun və bu məbləğ Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətinin bir hissəsi olub ona əlavə olmasın; və

(b) pula və qiymətli kağızlara və seyflərə və anbarlara qarşı qərəzli zərər nəticəsində yaranan itkini istisna edir; və

(c) yanğın nəticəsində yaranan itkini istisna edir; və

(d) həmişə hər hansı digər sığorta yaxud müqavilədə nəzərdə tutulmuş və ya ***Sigortalı*** üçün mümkün olan kompensasiya həcmində olur; və

(e) Eyni iş yaxud müvafiq, davamlı yaxud təkrar seriya ilə bağlı Standart Tətbiq 4.3 (iii) Yenidənqurma Xərclərinə əlavə olaraq tətbiq edilmir.

5.3 **Alma və ödəməyə olan faizlər**

Sığorta bu sığorta müqaviləsinə əsasən Sığortalı itki üçün alına bilən yaxud bu sığorta müqaviləsinə əsasən Sığortalı itki nəticəsində **Sigortalı** tərəfindən ödənilməli hər hansı faiz məbləğini əhatə etmək üçün tətbiq edilir:

(i) Bu itkiyə məruz qalınan vaxt və bu itkinin aşkarlandığı zaman arasındakı vaxtda İngiltərə Bankının qüvvədə olan tarif ödənişi həddində tətbiq edilərək hesablanır; və

(ii) Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətinin 15% həcmində məhdudlaşır və bu məbləğ Məsuliyyət Məhdudiyyətinin bir hissəsi olub ona əlavə deyil.

**5.4 Hər hansı digər şəxs tərəfindən əmlakın zorakılıqla oğurlanması**

Sığorta aşağıdakıları əhatə etmək üçün tətbiq edilir:

(i) *Hər hansı digər şəxs* tərəfindən zorakılıqla *obyektin* girişi yaxud çıxışından oğurluq yaxud oğurluğa cəhd etmə nəticəsində yaranan və aşağıdakılarla nəticələnən itki:

(a) hər hansı maddi mülkiyyətin oğurlanması (içindəkilər və şəbəkə və kommunikasiya xəttindən başqa); yaxud

(b) AZN 250,000 dəyərində obyektin içindəkilər və şəbəkə və kommunikasiya xəttinin oğurlanması ilə nəticələnən hər hansı tək oğurluq, bu məbləğ Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətinin bir hissəsi olub ona əlavə deyil; yaxud

(ii) Yolda olduğu zaman direktor, işçi yaxud **Sigortalının** əməkdaşı tərəfindən zorakılıqla oğurluq yaxud oğurluğa cəhd nəticəsində yaranmış itki hər hansı şəxs tərəfindən maddi əmlakın oğurlanması deməkdir;

Bir şərtlə ki, bu Tətbiq:

(a) həmişə hər hansı digər sığorta yaxud müqavilədə nəzərdə tutulmuş və ya ***Sigortalı*** üçün mümkün olan kompensasiya həcmində olur; və

(b) (b) Cədvəlin 3-cü Bəndində göstərilmiş Məsuliyyət Məhdudiyyətinin bir hissəsi olub ona əlavə deyil

Bu 5.4 Şərti Tətbiq məqsədilə əmlaka pul və ya qiymətli kağızlar daxil deyil.

## 6. Ümumi Müddəalar

### 6.1 Məsuliyyət məhdudiyyəti

Hər hansı itki üçün ödəniş sığortaçının başqa itkilərə qarşı öhdəliyini azaltmayacaq. Hər hansı fərdi itkiyə görə sığortaçının maksimum öhdəliyi Cədvəlin 3-cü Bəndində göstərilmiş məbləğdən çox olmayacaq.

### 6.2 Bu sığorta müqaviləsi və ilkin sığortaya əsasən məsuliyyət məhdudiyyəti

Qismən bu sığorta müqaviləsi və qismən də Sığortaçı yaxud hər hansı Chartis şirkəti tərəfindən **Sigortalıya** verilmiş başqa sığorta müqaviləsi ilə Sığortalı və keçmiş aşkarlanma müddəti qurtarmamış itki (təzələnmiş sığorta müqavilələri daxil olmaqla) əvvəlki sığorta müqaviləsinə yaxud bu sığorta müqaviləsinə əsasən daha böyük məbləğdə məhdudlaşdırılacaq və heç bir halda birləşməyəcək.

### 6.3 Məsuliyyətin üst-üstə düşməməsi

Bu sığorta müqaviləsinin neçə il qüvvədə olmasından və yenilənməsindən və ya ödənilmiş sığorta haqqının sayından asılı olmayaraq Cədvəlin 3-cü Bəndində göstərildiyi kimi Öhdəlik Məhdudiyyəti ildən ilə və ya bir müddətdən başqa müddətə birləşmiş olmayacaq.

### 6.4 Saxlanılma və başqa sığorta

Bu sığorta müqaviləsinə əsasən hər bir itki üçün sığorta aşağıdakı həddə olacaq:

(i) Cədvəlin 4-cü Bəndində göstərilmiş saxlama; yaxud

(ii) **Sigortalı** üçün mümkün olan digər hər hansı etibarlı və alına bilən, müqavilə ilə nəzərdə tutulmuş sığorta yaxud kompensasiyanın məbləği.

Saxlanılma aşağıdakı hallarda tətbiq edilməyəcək:

(a) bu planın qanunla Amerika Birləşmiş Ştatlarında (ABŞ) 1974-cü il tarixli Muzdlu İşçilərin Təqaüdlə Təmin edilməsi haqqında Qanunla uyğun gəlməsinin tələb olunduğu hər hansı plan; yaxud

(b) soyğunçuluq yaxud oğurluq və girovu geri alma hallarında 4.2 Standart Tətbiqə əsasən təmin edilmiş kompensasiya; yaxud

(c) 4.3 Standart Tətbiq (ii) və 4.6 Standart Tətbiqə əsasən hər hansı tədqiqat mütəxəssisindən istifadə olunması.

Əgər itki qismən bu sığorta müqaviləsi qismən də başqa sığortaçı yaxud daşıyıcı tərəfindən verilmiş əvvəlki sığorta müqaviləsi ilə sığortalanırsa, bu sığorta müqaviləsinə əsasən itkiyə tətbiq olunan Tutma digər belə sığorta müqaviləsinə əsasən itkiyə tətbiq edilmiş Tutma yaxud çıxılma ilə azaldılacaq.

### 6.5 Fərdi sığorta müqaviləsi

Bu sığorta müqaviləsi fərdi sığorta müqaviləsidir və əgər birdən çox **Sigortalı** sığortalanırsa bu sığorta müqaviləsi **Sigortalının** xeyrinə müştərək **Sigortalı** kimi fərdi sığorta müqaviləsi olaraq qalacaqdır və müvafiq olaraq məhdudiyyətsiz olaraq:

(i) bu sığorta müqaviləsinə əsasən sığorta müqaviləsi sahibi özü və bütün **Sigortalılar** üçün fəaliyyət göstərəcək, bura xəbərdarlıqlar göndərilməsi və alınması, itki haqqında xəbərdarlıq edilməsi, bu sığorta müqaviləsinin bir hissəsini təşkil etmək üçün verilmiş hər hansı indossamentin alınması yaxud qəbul edilməsi üçün lazım ola biləcək sığorta haqqının ödənilməsi daxildir, lakin bununla;

(ii) bu sığorta müqaviləsinə əsasən sığorta müqaviləsi sahibinə hər hansı itkinin ödənilməsi sığortaçını bu itkidən tam azad edəcək**,** buna baxmayaraq hər hansı Birləşmiş Krallıq planı ilə qəbul edilən hər hansı itki olduqda itki bu sığorta müqaviləsinə uyğun olaraq sığortalanır, ödəniş sığortaçı tərəfindən benefisiarlar adından yaxud onlar üçün bu pul vəsaitinin qəyyumlarına ödəniləcək;

(iii) bu sığorta müqaviləsinə əsasən birdən çox **Sigortalı** varsa və sığorta müqaviləsi sahibindən başqa hər hansı belə obyekt bu sığorta müqaviləsinə müvafiq olaraq sığortalanmağı dayandırırsa, bu zaman yerdə qalan **Sigortalılar** bu sığorta müqaviləsinə əsasən bütün məqsədlər üçün müştərək **Sigortalı** olmağa davam edirlər;

(iv) əldə edilmiş məlumat yaxud hər hansı **Sigortalı** və ya direktor, əməkdaş, qəyyum, məmur, departament direktoru, baş menecer yaxud buna bənzər şəxs tərəfindən aşkarlanma bütün məqsədlər üçün hər bir **Sigortalı** tərəfindən əldə edilmiş məlumat yaxud aşkarlanma kimi qəbul ediləcək;

(v) hər hansı yaxud bütün **Sigortalılar** tərəfindən yol verilmiş itki üçün sığortaçının öhdəliyi sığortaçının məsuliyyət daşıdığı məbləğdən çox olmayacaq.

(vi) digər **Sigortalı** bu itkidən xeyir götürdükdə və bu sığorta müqaviləsi ilə Sığortalı itkini hesablayanda həmin xeyir bu itkinin dəyərinə qarşı hesablanacaq.

6.6 **Necə xəbərdarlıq verməli və itki haqqında məlumat verməli**

(i) İddia ərizəsi yaxud yaranmış hal haqqında xəbərdarlıq yazılı halda poçt yaxud faks vasitəsilə aşağıdakı ünvana göndəriləcək:

**Çartis Azərbaycan Sığorta Şirkəti ASC**
Azərbaycan Respublikası, Bakı, AZ1010, Nizami küçəsi, 96, Ləndmark Binası

Əgər poçtla göndərilibsə göndərilmə tarixi xəbərdarlıq edilmə tarixi ilə uyğun gəlməlidir və poçtla göndərmə dəlili olaraq xəbərdarlıq kifayətdir.

(ii) Bu sığorta müqaviləsinə əsasən sığortaçının öhdəliklərinə presedent olaraq **Sigortalı:**

(a) istənilən halda itki aşkarlandıqdan sonra 60 gündən gec olmayaraq mümkün olan kimi sığortaçıya yazılı xəbərdarlıq göndərmək; və

(b) hər hansı işçinin cəlb edilməsi nəticəsində baş vermiş itki haqqında polisə xəbərdarlıq etmək; və

(c) sığortaçının bütün tələb olunan məlumat və sənədlərlə təmin etmək və itkiyə dair bütün məsələlərdə sığortaçı ilə əməkdaşlıq etmək*;* və

(d) tədqiqat mütəxəssisi tərəfindən qaneedici məlumat olmadığı təqdirdə sığortaçını 6 ay ərzində bütün detalları ilə birlikdə itki faktının olması barədə sübutla təmin etmək.

6.7 **Aşkarlanma müddəti**

Əgər bu sığorta müqaviləsi sahibi bu sığorta müqaviləsini təzələməyi yaxud uzatmağı seçmirsə və bu sığorta müqaviləsini ona bənzəri ilə əvəz etmirsə yaxud sığortaçı və ya hər hansı digər tərəf ilə sığortalamırsa, bu zaman sığorta müqaviləsi sahibinin sığortaçı ilə qeyri-yenilənmənin qüvvəyə mindiyi tarixdən sonra 90 günlük aşkarlanma müddəti hüququ vardır.

6.8 **İtkinin Ödənilməsi**

Sığortaçı **Sigortalının** razılığı ilə sahibkar ilə birgə əmlakın itməsinə dair iddia tələbi irəli sürə bilər. Sığortaçının sığortaladığı hər hansı əmlak sığortaçının əmlakı hesab ediləcək. Onun fikrincə, sığortaçı pul dəyərini ödəyə yaxud müvafiq təmirlər və ya dəyişmələr edə bilər.

6.9 **Dəyərləndirmənin əsası**

Sığortaçı heç bir halda aşağıda göstərilənlərdən başqa heç nəyə görə öhdəlik daşımayacaq:

(i) İtkinin aşkarlandığı gün Birləşmiş Krallığın nəşr edilən Finacial Times yaxud qiymətli kağızlar, beynəlxalq fond, valyutalar yaxud qiymətli metallardan bəhs edən buna oxşar hər hansı gündəlik maliyyə qəzetinin müəyyən etdiyi faktiki dövriyyə dəyəri yaxud əgər azdırsa qiymətli kağızları dəyişdirməyin faktiki dəyəri;

(ii) mühasibatlıq kitabları və sənədlərini hazırlamaq üçün **Sigortalı** tərəfindən təchiz edilən faktiki transkripsiya və məlumatın üzünün köçürülməsi üçün kompüter vaxtı üstəgəl əmək haqları və blank kitabları, blank vərəqləri və digər materialların xərci;

(iii) bu elektron məlumatı hazırlamaq üçün **Sigortalı** tərəfindən təchiz edilən faktiki transkripsiya və elektron məlumatın üzünün köçürülməsi üçün əmək haqqı;

(iv) itki zamanı başqa əmlakın real pul dəyəri və ya əmlakı bənzər keyfiyyət yaxud dəyərli yaxud daha az dəyərli əmlakla əvəz etmənin yaxud düzəltmənin faktiki dəyəri. **Sigortalı**da girov yaxud ikinci dərəcəli borc kimi saxlanılarsa digər

əmlakın faktiki pul dəyəri avans yaxud borc əldə edərkən **Sigortalı** tərəfindən müəyyənləşdirilmiş yaxud qeydə alınmış əmlakın faktiki pul dəyərindən çox olmayacaq.

6.10 **Kompensasiyalar**

Kompensasiyalar (sığorta, təkrar sığorta, zəmanət yaxud kompensasiya istisna olmaqla) aşağıdakı ödənişlər qaydası ilə ödəniləcək:

(i) birincisi, kompensasiya ilə bağlı hər hansı yaranan xərclər yaxud məsrəflər üçün;

(ii) ikinicisi, **Sigortalıya** Cədvəlin 3-cü Bəndində göstərilmiş Öhdəlik Məhdudiyyətini ötüb keçən hər hansı itki üçün kompensasiya veriləcək;

(iii) üçüncüsü, sığortaçı edilmiş hər hansı ödəniş üçün kompensasiya veriləcək; və

(iv) sonuncusu, **Sigortalıya** Cədvəlin 4-cü Bəndində göstərilmiş Tutmaya uyğun gələn itki üçün kompensasiya veriləcək.

6.11 **Subroqasiya**

Bu sığorta müqaviləsinə əsasən hər hansı ödəniş olduqda ödənişlə bağlı **Sigortalının** bütün hüquqlarının kompensasiyası üçün sığortaçı bu ödəniş həcmində subroqasiya olunacaq. **Sigortalı** bütün tələb olunan sənədləri icra edəcək və sığortaçı tərəfindən ödənişdən əvvəl yaxud sonra lazım ola biləcək fəaliyyətləri yerinə yetirmək üçün sığortaçıya **Sigortalının** adından iddia irəli sürmək hüququnu verən hər hansı lazımi sənədlərin icrası da daxil olmaqla istənilən hüquqları müdafiə etmək üçün əlindən gələni edəcək.

6.12 **Rəhbər qanun və mübahisələrin həlli**

Yaradılması, etibarlılığı və əməliyyatla bağlı bu sığorta siyasətinin hər hansı izahı AZƏRBAYCAN RESPUBLİKASININ qanunları və sığorta meüaviləsindəki İngilis Mətninə uyğun olaraq həyata keçiriləcək.

Bu sığorta müqaviləsi ilə əlaqədar yaxud onun əsasında yarana biləcək hər hansı mübahisə yaxud fikir ayrılığı (tədqiqat mütəxəssisinin məlumatından sonra itkinin kompensasiya edilməsinə dair tərəflər arasında mübahisə daxil olmaqla) bu sığorta müqaviləsinin bitməsindən əvvəl yaxud sonra olmasından asılı olmayaraq aşağıdakı mübahisə həlli prosedurlarının hər hansı birini əsas götürməklə sığorta müqaviləsinin sahibinin seçiminə təqdim ediləcək:

(i) hər hansı MAC tərəfindən səlahiyyət verilmiş danışıqlar agentliyinin tövsiyələrinə uyğun olaraq könüllü danışıqlar**;**

(ii) bu sığorta müqaviləsinə əsasən məcbur arbitraj müqavilə ilə sığortaçı və sığorta müqaviləsi sahibi (sığortaçının mübahisə yaşadığı Sığortalı adından) arasında təyin edilmiş bir arbitr tərəfindən London Beynəlxalq Arbitraj Məhkəməsi Qaydalarını üstün tutaraq yaxud arbitraja istinad edərək 30 gün ərzində LBAM-nin Prezidenti və ya onun müvafiq qaydada təyin edilmiş müavini tərəfindən bu müqaviləni rədd edərək. Arbitrin təyin edilməsi ilə bağlı LBAM-nin Prezidentinə edilmiş hər hansı xahiş zamanı mübahisə məsələsini düzgün müzakirə etmək üçün arbitrin hansı sahələrdə təcrübəyə malik olmasını şərt qoyacaq.

ÖLKƏDƏ EKVİVALENT PROSEDUR MÖVCUDDURSA ARBİTRAJ MÜDDƏASI DƏYİŞDİRİLƏ BİLƏR.

Sığorta müqaviləsi sahibi prosedur üçün (i) seçməlidir:

(a) danışıqlar qurtarmayınca və daha sonrakı götür-qoy eləmə və danışıqlar üçün ən azı 30 gün keçməyincə heç bir məhkəmə prosesinə başlanmayacaq.

(b) danışıqların xərci razılığa gəlməyənədək tərəflər arasında bərabər şəkildə bölüşdürüləcək.

(c) mübahisə tərəflərindən biri olan hər hansı **Sigortalı** danışıqlar bitdikdən sonra 30 gündən az olmayan müddətdə prosedura əsasən məcburi arbitraja müraciət edə bilər (ii).

Sığorta müqaviləsi sahibi prosedur üçün (ii) seçməlidir:

(a) istənilən halda arbitraj xərcləri və LCİA məsrəfləri bir tərəfdən sığortaçı digər tərəfdən **Sigortalı** arasında bərabər şəkildə bölüşdürüləcək.

(b) istənilən halda hər bir tərəf öz arbitraj xərclərini ödəyəcək və arbitrdən bu sazişlə bağlı mübahisələr üçün heç bir xərclə bağlı heç nə soruşulmayacaq və onun sifariş etmək hüququ olmayacaq.

(c) müvafiq məsələlərlə bağlı sığortaçı və bir neçə Sığortalı arasında müxtəlif mübahisələr yarandığı halda bunlar arbitr tərəfindən onun müvafiq hesab etdiyi şəkildə istər birlikdə istərsə də ardıcıl şəkildə dinləniləcək.

Bu sığorta müqaviləsinə əsasən hər hansı itkinin kompensasiya edilməsi üçün məhkəmə prosesi (yuxarıdakılara (i) və (ii) əsasən könüllü danışıqlar və məcburi arbitraj daxil olmaqla) qanunla müəyyən edilmiş minimum məhdudiyyət müddətinin başa çatmasından sonra aparılmamalıdır.

6.13 **Təyinat**

Bu sığorta müqaviləsinə əsasən sığorta müqaviləsi yaxud hər hansı hüquqlar sığortaçının yazılı razılığı olmadan təyin edilə bilməz.

6.14 **Üçüncü Tərəflərin hüquqları**

Bu sığorta müqaviləsində heç nə birbaşa **Sigortalı**dan başqa digər tərəfin mümkün xeyrinə verilə bilməz.

6.15 **Sığorta müqaviləsi müddətində risklərdə dəyişikliklər**

Sığorta müqaviləsi ərzində aşağıdakı risk dəyişikliklərindən hər hansı biri baş verirsə o zaman bu sığorta müqaviləsinə əsasən yalnız risk dəyişikliyinin qüvvədə olduğu vaxtdan əvvəl baş vermiş hallara tətbiq üçün sığortaya dəyişiklik edilir.

Bu Ümumi Müddəada risk dəyişikliyi aşağıdakı mənalarda işlənəcək:

(i) sığorta müqaviləsi sahibi yaxud alıcı, təsviyəçi, menecer və ya inzibatçının təyin edilməsinin ləğv edilməsi; və ya

(ii) hər hansı fərdi **Sigortalının** ləğv edilməsi yaxud bu sığortaçının alıcı, təsviyəçi, menecer və ya inzibatçının təyin edilməsi; yaxud

(iii) sığorta müqaviləsi sahibinin nəzarətindəki dəyişiklikdə baş verən hər hansı sövdələşmə, təyinat, daşınma, girov yaxud səhmlərin yaxud aktivlərin satılmasından sonra sığorta müqaviləsi sahibinin başqa şirkətlə birləşməsi; yaxud

(iv) hər hansı **Sigortalı**da nəzarət dəyişikliyi; yaxud

(v) 3.9 İstisnada verildiyi kimi **Sigortalının** hər hansı işçisi yaxud istənilən direktor, əməkdaş, qəyyum, məmur, departament direktoru, baş menecer yaxud buna bənzər şəxs tərəfindən dələduzluq və ya vicdansızlıq yaxud qərəzli zərər halının baş verməsi haqqında məlumat.

6.16 **Ləğv edilmə**

Bu sığorta müqaviləsi aşağıdakı kimi ləğv edilə bilər:

(i) sığortanın ödənilməməsinə görə sığortaçı tərəfindən;

(ii) sığortaçının yazılı xəbərdarlığını aldıqdan dərhal sonra sığorta müqaviləsi sahibi tərəfindən. Belə olduğu halda sığortaçı illik sığorta haqqının proporsional hesablanmış hər hansı qazanılmamış sığorta haqqını geri qaytaracaq, lakin itki ləğv etmə günündən əvvəl aşkarlandıqda sığorta haqqında heç bir qaytarılma istisna olunmur;

(iii) Sığorta müqaviləsi sahibi yaxud hər hansı **Sigortalı** və ya işçi yaxud da **Sigortalının** hər hansı işçisinə gəldikdə isə Cədvəlin 1-ci Bəndində göstərilmiş ünvana yazılı xəbərdarlığın sığortaçı çatdırılmasını izləmək. Ləğv etmə bu xəbərdarlığı aldıqdan sonra 30 gün ərzində tətbiq edilir.

6.17 **Fırıldaqçı iddiaları**

Əgər Sığortalı məbləğ yaxud başqa hər hansı məsələ ilə bağlı yalan və saxta olduğunu bildiyi iddianı ortaya atırsa bu sığorta müqaviləsi etibarsız sayılacaq və bütün iddialar qüvvədən düşəcək.

6.18 **İmza və düzəliş**

Bu sığorta müqaviləsi ilə təmin edilmiş sığorta etibarlıdır və yalnız bu sığorta müqaviləsinin Cədvəlində sığortaçının səlahiyyətli şəxsinin imzasının olduğun halda və eləcə də bu sığorta müqaviləsində heç bir dəyişiklik yaxud düzəliş olmadığı halda bu sığortaçının səlahiyyətli nümayəndəsinin imzasının olduğu yazılı indossament tərtib olunanadək etibarlı sayılır.

6.19 **Təklif və təqdimat**

Hər hansı **Sigortalıya** sığorta haqqı verərkən sığortaçı təqdim olunan məlumat ona edilmiş əlavələrlə birlikdə gələn təklif və məlumatları nəzərə alır. Bütün bu məlumat, əlavələr və hesabatlar müqaviləyə daxil edilərək onun əsasını təşkil edir. **Sigortalı** belə təqdimat hazırlayarkən hər hansı maddi faktı gizlətmir yaxud yanlış təqdim etmir.

6.20 **Başlıq və kursivlər**

Bu paraqraflarda başlıqlar yalnız rahatlıq məqsədini daşıyır və müqaviləyə hər hansı digər mənanı vermir. Bu sığorta müqaviləsində kursivlə verilmiş sözlərin xüsusi mənası var və burada aydınlaşdırılıb.